RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 159 (10179) 3 sentyabr 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Naxçıvanın yeni dövranı



## BU DÖVRÜN YARADICISI İLHAM ƏLİYEVDİR

Naxçıvanda görülən və görüləcək işlər çoxsahəli və çoxşaxəlidir.

Ən vacib məqamlardan biri məsafəcə Azərbaycandan uzaqda yerləşən bölgənin hərbi cəhətdən müdafiəsinin güclü olmasıdır!

Dövlət başçısı İlham Əliyev bu məsələni birinci şərt kimi qiymətləndirir:

"Bildiyiniz kimi, Naxçıvanda mənim sərəncamımla Əlahiddə Ordu yaradılmışdır. Bu ordu, təbii ki, Azərbaycan Silahlı Qüvvələrinin ayrılmaz tərkib hissəsidir. Ancaq Naxçıvanın spesifikası, coğrafiyası, Azərbaycanla, Azərbaycanın əsas hissəsi ilə coğrafi bağlantısının olmaması, əlbəttə ki, bu diyarın - muxtar respublikanın təhlükəsizliyinə daha böyük diqqət göstərməyimizə gətirib çıxardı və bu, daim belədir. Ona görə bu, birinci şərtdir. Bu gün qeyd etdiyim kimi, Azərbaycan Silahlı Qüvvələri bölgədə söz sahibidir. O cümlədən Naxçıvanda hərbi potensial gündən-günə gücləndirilir və gücləndiriləcək."

Dövlət başçısının daim diqqət mərkəzində saxladığı məsələlərdən biri də iş yerlərinin yaradılmasıdır.

Bu məqsədlə ardıcıl tədbirlər görülür.

Digər vacib məqam isə muxtar respublikanın dayanıqlı enerji ilə təmini və artıq qalanının ixracı imkanıdır.

Səfər zamanı cənab İlham Əliyev Azərbaycan televiziyasına müsahibəsində bu barədə dedi:

"Burada xüsusilə iş yerlərinin yaradılması ilə bağlı görülən və görüləcək işləri qeyd edə bilərəm. Bu gün Naxçıvan Sənaye Parkının təməli qoyuldu. Azərbaycanda mənim göstərişimlə bir çox sənaye parkları yaradılmışdır və onların arasında ərazi nöqteyi-nəzərindən Naxçıvan Sənaye Parkı Sumqayıt Sənaye Parkından sonra ikincidir. Dediyim kimi, təməl daşı qoyuldu və əminəm ki, tezliklə bu sənaye parkında artıq praktiki işlər başlanacaqdır.

Eyni zamanda bu parkın tərkib hissəsi olaraq 300 meqavat gücündə istilik-elektrik stansiyası inşa ediləcək. Onu bildirməliyəm ki, bu gün Naxçıvanın generasiya gücü təqribən 200 meqavatdır. Təkcə bir stansiya bunu 1,5 dəfə artıracaq. Təbii ki, bu stansiyanın iki məqsədi var: birincisi, Naxçıvan Muxtar Respublikasını dayanıqlı enerji ilə təmin etmək, ikincisi, ixrac məsələləridir."

Kontinental iqlimə malik bu diyarda bölgənin faizsiz enerji ilə təmini mühüm əhəmiyyət kəsb edir.

Cənab İlham Əliyev bu problemin də həll olunduğunu söylədi:

"Biz elə etməliyik ki, Naxçıvanın davamlı və dayanıqlı enerji təminatı heç vaxt pozulmasın.

Bu məqsədlər üçün vaxtilə yenə də mənim təşəbbüsümlə biz İran İslam Respublikası ilə qaz mübadiləsi sazişini imzaladıq. Bu sazişə əsasən, İrandan Azərbaycana qaz kəməri çəkilmişdir və eyni zamanda Azərbaycanın Astara rayonundan İran ərazisinə qaz nəqli təmin edilmişdir. Yəni biz Naxçıvanı mübadilə yolu ilə 100 faiz qazla təmin etdik".

10

## Çin və Azərbaycan səmimi dostlardır

### Prezident İlham Əliyev Çin Ali Xalq Prokurorluğunun baş prokurorunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Çin Xalq Respublikasının Ali Xalq Prokurorluğunun baş prokuroru Yinq Yonqun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinə Şanxay şəhərinin prokuroru Çen Yong, Ciangsu əyalətinin prokuroru Çjao Tyeşi və Qansu əyalətinin prokuroru Şen Cian daxildir.

2

## Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan mərhələsi

### Bu, Azərbaycanın müasir dövlətçilik tarixinin şərəfli salnaməsidir



1990-cı ilin parlament seçkilərində Heydər Əliyevin həm Azərbaycan SSR Ali Sovetinə, həm də Naxçıvan MSSR Ali Sovetinə deputat seçilməsi xalqın Ulu Öndərə olan inamının və etimadının dərin təcəssümü idi. 1990-cı il noyabrın 17-də Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan MSSR Ali Sovetinin sessiyası xalqımızın müstəqillik mücadiləsi tarixinin ən mühüm səhifələrindən biridir. Məhz həmin sessiyada muxtar respublikanın adından "sovet" və "sosialist" sözlərinin çıxarılması barədə qərar qəbul edildi. Eyni zamanda Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olundu və onun Azərbaycanın ali qanunvericilik orqanında da dövlət rəmzi kimi qəbul edilməsi məsələsi qaldırıldı.

Bu qərarların hər biri Heydər Əliyevin cəsarətinin, qətiyyətinin və vətənpərvərliyinin göstəriciləri idi. Ulu Öndərin təşəbbüsləri ilə qəbul edilən bu qərarlar sonradan bütün Azərbaycan üçün əhəmiyyətli siyasi-hüquqi proseslərin başlanğıcına çevrildi. Beləliklə, müstəqil dövlətçilik ideyası konkret siyasi qərarlarda öz ifadəsini tapdı.

Həmin dövrdə Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Ali Sovetinin 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verməsi də xüsusi qeyd olunmalıdır. Naxçıvanın bu faciəyə ilk siyasi qiymət verən ünvan olması bir daha Ulu Öndərin cəsarətindən xəbər verdi. 1991-ci ilin martında SSRİ-nin saxlanılması ilə bağlı ümumittifaq referendumunun Naxçıvanda boykot edilməsi də Heydər Əliyevin liderliyi ilə aparılan bu siyasi xəttin davamı idi.

13

## BMT Azərbaycana minatəmizləmə sahəsində dəstək verməyə hazırdır

### Prezident İlham Əliyev BMT-nin Azərbaycanda yeni təyin olunmuş rezident-əlaqələndiricisini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Birləşmiş Millətlər Təşkilatının (BMT) Azərbaycanda yeni təyin olunmuş rezident-əlaqələndiricisi Dmitro Şlapaçenkonu qəbul edib.

AZƏRTAC xəbər verir ki, Dmitro Şlapaçenko etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

2

## Mehriban Əliyevadan növbəti humanist təşəbbüs

### Tibb işçilərinin sosial rifahının yüksəldilməsi istiqamətində mühüm addım atılıb

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın TƏBİB sistemində çalışan tibb işçilərinin əməkhaqlarının artırılması ilə bağlı təşəbbüsü xüsusi əhəmiyyət daşıyır. Təşəbbüs tibb işçilərinin maddi rifahının yüksəldilməsi ilə yanaşı, səhiyyə sistemində insan kapitalının daha da gücləndirilməsinə xidmət edir. Prezident İlham Əliyev bu təşəbbüsü müsbət qarşılayaraq onun icrası ilə bağlı müvafiq tapşırıq verib. Bununla da ölkədə tibb işçilərinə dövlət qayğısının gücləndirilməsi istiqamətində növbəti mühüm addım atılıb. Yeni əməkhaqqı qaydalarının 2026-cı il sentyabrın 1-dən tətbiq olunması nəzərdə tutulur. İslahat TƏBİB-in tabeliyindəki tibb müəssisələrində çalışan 72212 tibb işçisini əhatə edir. Bu rəqəm islahatın miqyasını və səhiyyə sistemində çalışan insanların sosial müdafiəsinin dövlət siyasətindəki əhəmiyyətini aydın göstərir.

TƏBİB
Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi

Yeni mexanizmin mühüm xüsusiyyətlərindən biri əməkhaqqı artımlarının diferensial yanaşma əsasında müəyyənləşdirilməsidir. Belə ki, əməkhaqqının formalaşmasında vəzifə, ixtisas, iş yükü, fəaliyyət göstəriciləri və regionlarda mövcud kadr təminatı kimi amillər nəzərə alınacaq. Bu yanaşma səhiyyə sahəsində əməyin və məsuliyyətin xüsusiyyətlərini daha düzgün qiymətləndirməyə imkan verir.

9

## Sülh, müttəfiqlik və çoxtərəflilik

### Bakının qlobal siyasətdə yaratdığı yeni əməkdaşlıq və təhlükəsizlik modeli bundan ibarətdir

Sentyabrın 1-də Bişkekdə keçirilən "ŞƏT plyus" formatındakı görüşdə Prezident İlham Əliyevin çıxışı iki qardaş ölkənin - Azərbaycan ilə Qırğızıstanın arasında münasibətlərin artıq keyfiyyətcə tamamilə yeni - müttəfiqlik səviyyəsinə yüksəldiyini nümayiş etdirdi: "Bir ay öncə dövlət səfərim zamanı müttəfiqlik münasibətləri haqqında müqavilə imzalandı. Həmin tarixi sənəd Azərbaycanla Qırğızıstan arasında münasibətləri ən yüksək səviyyəyə qaldırdı".

Ölkəmizin rəhbəri vurğuladı ki, Qırğızıstanın 2027-2028-ci illər üçün BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi beynəlxalq ictimaiyyətin Qırğızıstanın siyasətinə verdiyi dəstəyi nümayiş etdirir.

Prezident İlham Əliyevin "ŞƏT plyus" formatındakı görüşdə toxunduğu ən mühüm məsələlərdən biri Cənubi Qafqazda yaranmış yeni reallıqlar və beynəlxalq hüququn tətbiqi mexanizmləri ilə bağlı oldu. Ölkəmizin rəhbəri tədbir iştirakçılarının diqqətinə çatdırdı ki, bir ildən bir az çox müddət əvvəl Azərbaycan və Ermənistan sülh sazişinin mətnini paraflayaraq 30 illik münaqişəyə son qoydular. Çoxillik münaqişə zonası olmuş Cənubi Qafqaz bölgəsi artıq sülh zonasına çevrilir: "BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş dörd qətnaməsi 30 ildən sonra, üç il əvvəl icra edildi. Azərbaycan artıq Ermənistana neft məhsulları tədarük edir və üçüncü ölkələrin yüklərinin tranzitini təmin edir. Ermənistanla birlikdə qarşılıqlı ticarətin həcminin artırılması, onun nomenklaturasının genişləndirilməsi və yeni yerüstü nəqliyyat kommunikasiyalarının yaradılması üzərində çalışırıq".

11

# Çin və Azərbaycan səmimi dostlardır

## Prezident İlham Əliyev Çin Ali Xalq Prokurorluğunun baş prokurorunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

*Əvvəli 1-ci səh.*



Görüşdə çıxış edən **Prezident İlham Əliyev** dedi:

- Xoş gəlmisiniz. Bilirəm ki, səfəriniz yekunlaşır. Siz Azərbaycana çox vacib səfər edirsiniz. Əminəm ki, səfəriniz çox uğurlu idi. Bu səfər münasibətlərimizin bütün sahələrdə daha da inkişafına xidmət edəcək. Ümid edirəm ki, siz ölkəmizdən xoş təəssüratlarla ayrılacaqsınız. Biz sizin səfərinizi strateji tərəfdaşlıq münasibətləri çərçivəsində çox əhəmiyyətli hesab edirik.

Bildiyiniz kimi, aprel ayından etibarən Çin və Azərbaycan artıq hərtərəfli strateji tərəfdaşlıq çərçivəsində fəaliyyət göstərir. Ötən il ölkənizə dövlət səfərimdə mənə göstərilən qonaqpərvərliyi böyük minnətdarlıq hissi ilə xatırlayıram. Çin Xalq Respublikasının Sədri Si Cinpin və digər yüksəksəviyyəli rəsmilərlə müzakirələrim bir daha göstərir ki, hər iki ölkə bir-birini çox yaxşı dost hesab edir.

Biz Çin şirkətlərində Azərbaycanda fəaliyyət göstərmək üçün böyük marağın olduğunu görməyə çox şadıq. Aprel ayından etibarən ölkələrimiz arasında fasiləsiz qarşılıqlı gediş-gəliş var. Çin şirkətləri həm investor, həm də podratçı qismində Azərbaycanda layihələrdə fəal iştirak edirlər. Bir çox vacib layihələr artıq icra olunub, lakin bir çoxları da icra mərhələsindədir.

Əlbəttə ki, hər iki ölkənin suverenliyinə və ərazi bütövlüyünə güclü qarşılıqlı dəstəyi Çinin və Azərbaycanın beynəlxalq hüquq normalarına sadiq olduğunu əyani şəkildə göstərir. Dünən "ŞƏT plyus" formatında Bişkekdə keçirilən yüksəksəviyyəli görüşdə Sədr Si Cinpin hüquq normaları, davranış qaydaları, beynəlxalq münasibətlər, qlobal xəritədə hər bir ölkənin bərabər olması haqqında danışdı. Biz bu çox aydın baxışla tam razıyıq. Qarşılıqlı dəstək, bir-birinin daxili məsələlərinə qarışmama, dünya miqyasında hər bir ölkənin bərabər şəkildə təmsil olunması və qarşıdurmaya yox, əməkdaşlığa yönəlmiş siyasət bizim strategiyaya tamamilə uyğundur.

Əlbəttə ki, əməkdaşlığımızın vacib seqmenti bağlantıdır. Sədr Si Cinpinin təşəbbüsü ilə həyata keçirilən "Bir kəmər, bir yol" layihəsi Azərbaycan tərəfindən tamamilə dəstəklənir. Biz bunu təkcə bəyanatlarla deyil, praktiki addımlarla göstəririk. Bu gün Mərkəzi Asiya, Azərbaycan və Çin arasında bağlantı qlobal əməkdaşlığın, təhlükəsizliyin mühüm amilidir. Keçən ay mən Mərkəzi Asiyanın iki ölkəsinə dövlət səfəri etdim. Növbəti ay mən Mərkəzi Asiyanın üçüncü bir ölkəsini ziyarət edəcəyəm və əlbəttə ki, bizim danışıqların mühüm hissəsi bağlantı mövzusudur. Burada Çin yüklərin həcmi nöqteyi-nəzərindən əsas oyunçudur.

Biz sizin birbaşa məsul olduğunuz sahədə əməkdaşlıq və güclü tərəfdaşlıq üçün böyük potensial görürük. Mən şadam ki, həmkarlarınızla danışıqlar aparmaq, ölkə ilə tanış olmaq və Azərbaycanı daha yaxından tanımaq üçün burada bir neçə gün keçirəcəksiniz.

Nəhayət, sonuncu məsələ dostluğun və qarşılıqlı etimadın əlaməti ilə bağlıdır. Bu da hər iki ölkəyə səfərlər üçün viza tələbinin aradan qaldırılmasıdır. İndi bizim vətəndaşlar hər hansı bir viza tələbi olmadan səyahət edə bilərlər. Bu da dostluğun çox mühüm əlamətidir. Sizə ən xoş arzularımı çatdırır, ölkənizə sağ-salamat qayıtmağınızı arzulayıram.

* * *

Sonra **Çin Ali Xalq Prokurorluğunun baş prokuroru Yinq Yonq** çıxış edərək dedi:

- Zati-aliləri, cənab Prezident İlham Əliyev.

Mən baş prokuror Kamran Əliyevin dəvəti ilə Azərbaycana səfərə gələn prokurorlardan ibarət Çin nümayəndə heyətinə rəhbərlik edirəm. Baş prokuror Kamran Əliyev bizim prokurorluq orqanları ilə mübadiləyə və əməkdaşlığa çox böyük önəm verir, dostluğu və əməkdaşlığı gücləndirmək üçün hər iki prokurorluq orqanlarını güclü təşviq edir.

Bu səfərdə mən Azərbaycana gələn nümayəndə heyətinə rəhbərlik edirəm. Bu, iki lider arasında hərtərəfli strateji tərəfdaşlığın təşviqi məqsədilə mühüm ortaq anlaşmanı həyata keçirmək və iki ölkənin prokurorluq orqanları, məhkəmə sistemləri arasında əməkdaşlığı gücləndirmək üçün atılan konkret addımdır.

İki gün əvvəl mən Milli Məclisin Sədri Sahibə Qafarova, baş prokuror Kamran Əliyev və Ali Məhkəmənin sədri İnam Kərimovla görüşdüm. Görüşlərimiz çox məhsuldar oldu. "ŞƏT plyus" formatında keçirilən tədbirdə iştirakınızdan sonra məni və nümayəndə heyətimi qəbul etmək üçün dəyərli vaxtınızı ayırmağınız məni məmnun edir. Mən buna görə Sizə prokurorluq orqanları adından və öz adımdan səmimi minnətdarlığımı ifadə etmək istəyirəm.

Səfərdən əvvəl Sədr Si Cinpinə Azərbaycana səfər çərçivəsində nümayəndə heyətimizin tərəfinizdən qəbul olunacağı barədə məruzə etdim. Sədr Si Cinpin səmimi salamlarını və arzularını Sizə çatdırmağımı məndən xahiş etdi.

Cənab Prezident, Çin və Azərbaycan səmimi dostlar, bərabərhüquqlu tərəfdaşlar və qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq quran ölkələrdir. Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev iki ölkə arasında dostluq münasibətlərinin möhkəm təməlini qoyub. İki ölkə arasında diplomatik münasibətlər qurulduqdan sonra hər iki ölkə qarşılıqlı hörmət, ədalət, bərabərlik və əməkdaşlıq prinsiplərinə, həmçinin qarşılıqlı faydaya əsaslanan münasibətlərə sadiq qalaraq, dərin dostluğun və qarşılıqlı etimadın formalaşmasına nail olub.

Prezident İlham Əliyev Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Sədr Si Cinpinə çatdırmağı xahiş etdi.

# Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi, Vyetnam Sosialist Respublikasının Prezidenti zati-aliləri cənab To Lama

Zati-aliləri!

Vyetnam Sosialist Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı yetirirəm.

İqtisadi inkişafın təmin edilməsi, əhalinin rifahının artırılması və beynəlxalq nüfuzun yüksəldilməsi istiqamətində dost Vyetnam mühüm nailiyyətlər qazanmışdır.

Azərbaycan ilə Vyetnam arasında münasibətlər qarşılıqlı hörmət, etimad və dostluq ənənələrinə əsaslanır. Son illərdə yüksəksəviyyəli təmasların intensivləşməsi, siyasi dialoqun genişlənməsi daha geniş əməkdaşlıq üçün əlverişli şərait formalaşdırmışdır.

Bu gün bir sıra sahələrdə, xüsusilə də iqtisadi-ticari, energetika, sənaye, nəqliyyat, turizm, təhsil və humanitar sahələrdə işbirliyimizin daha da genişləndirilməsi üçün yaxşı imkanlar vardır.

İnanıram ki, birgə səylərimizlə Azərbaycan ilə Vyetnam arasında dostluq və strateji tərəfdaşlıq münasibətləri bundan sonra da uğurla davam edərək xalqlarımızın və ölkələrimizin rifahına xidmət edəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Vyetnam xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 avqust 2026-cı il*

# Azərbaycan Respublikası vətəndaşlarının 2026-cı il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram:**

1. 2008-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1996-2007-ci illərdə doğulmuş, yaşı 30-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2026-cı il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2026-cı il oktyabrın 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 sentyabr 2026-cı il*

# BMT Azərbaycana minatəmizləmə sahəsində dəstək verməyə hazırdır

## Prezident İlham Əliyev BMT-nin Azərbaycanda yeni təyin olunmuş rezident-əlaqələndiricisini qəbul edib

*Əvvəli 1-ci səh.*



Ölkəmizlə BMT arasında əlaqələrə toxunan Prezident İlham Əliyev Azərbaycanda COP29 və Ümumdünya Şəhərsalma Forumu kimi böyükmiqyaslı BMT tədbirlərinin keçirildiyini vurğuladı, bu il də BMT-nin Sivilizasiyalar Alyansı ilə birlikdə Mədəniyyətlərarası Dialoq Forumunun təşkil ediləcəyini dedi.

Azərbaycanın BMT-nin vacib tərəfdaşı olduğunu və "orta güc" dövləti kimi bu qurumun mötəbər tədbirlərinə evsahibliyi etdiyini vurğulayan Dmitro Şlapaçenko bu xüsusda Bakıda COP və Ümumdünya Şəhərsalma Forumunun təşkil olunduğunu xatırladı. O, bu gün Bakıda "Şəhərlərin bərpası üçün humanitar minatəmizləmə: Təhlükəsiz yaşayış məskənləri üçün mükəmməllik standartlarının müəyyənləşdirilməsi" mövzusunda 4-cü Beynəlxalq Minatəmizləmə Konfransının keçirildiyini deyərək, ölkəmizdə BMT-nin İqlim Həftəsi tədbirinin də olacağını qeyd etdi.

Dmitro Şlapaçenko Azərbaycanın BMT-nin müvafiq qurumlarının fəaliyyətinə verdiyi dəstəyi yüksək qiymətləndirdi.

O, Azərbaycanın hazırda həyata keçirdiyi inkişaf proqramına BMT-nin də öz təcrübəsi ilə dəstək verməyə hazır olduğunu bildirdi, bu xüsusda Qarabağda və Şərqi Zəngəzurda postmünaqişə şəraitində aparılan böyükmiqyaslı işlərin vacibliyinə toxundu.

Minalar problemini qeyd edən Dmitro Şlapaçenko BMT-nin bu məsələdə Azərbaycana dəstək verməyə və təcrübəsini bölüşməyə hazır olduğunu dedi.

Dövlətimizin başçısı da işğaldan azad olunmuş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa və quruculuq işlərindən danışdı, ölkəmizin üzləşdiyi mina probleminin miqyasını qeyd etdi. Prezident İlham Əliyev bunun bərpa-quruculuq işlərinə mane olmasına baxmayaraq, Azərbaycanın minatəmizləmə sahəsində də ardıcıl fəaliyyətini davam etdirdiyini vurğuladı.

Dmitro Şlapaçenko tezliklə Qarabağa səfər edəcəyini bildirdi, BMT Günü ilə əlaqədar Qarabağ Universitetində böyük bir tədbirin keçirilməsinin planlaşdırıldığını qeyd etdi.

Görüşdə Cənubi Qafqaz regionunda transsərhəd çayların ekoloji mühitinin yaxşılaşdırılması və bu sahədə monitorinqlərin aparılması, Xəzər dənizinin suyunun azalması kimi ekoloji məsələlər də müzakirə olundu.

# Milli Məclisin Sədri Sahibə Qafarovanın İsveçrə Konfederasiyasına işgüzar səfəri başlayıb

**Sentyabrın 2-də Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti İsveçrə Konfederasiyasına işgüzar səfərə gedib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Cenevrə beynəlxalq hava limanında nümayəndə heyətini Azərbaycanın BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi Rövşən Sadıqbəyli və digər rəsmi şəxslər qarşılayıblar.

***"Azərbaycan"***



# Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 806 (Cild I); 2025, № 4 (I kitab), maddə 379, № 7, maddə 692; 2026, № 6, maddə 518; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 15 iyul tarixli 723 nömrəli fərmanı) ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. "4. Dövlət Proqramının məqsədi və prioritet istiqamətləri" hissəsi üzrə:

1.1.1. 4.1.1-ci yarımbəndin dördüncü abzasında "güzəştli kreditlərin verilməsi, təşviqat işlərinin aparılması və digər maliyyə dəstəyi tədbirləri" sözləri "müvafiq tədbirlər" sözləri ilə əvəz edilsin;

1.1.2. 4.1.2-ci yarımbəndin mətni aşağıdakı redaksiyada verilsin:

"Naxçıvan Muxtar Respublikasının əlverişli coğrafi mövqeyindən istifadə edilərək, regionda istehsal olunan məhsulların xarici və ölkədaxili bazarlara çıxışı sürətləndiriləcəkdir. Bu çərçivədə, yerli məhsulların rəqabətqabiliyyətliliyini artırmaq və daşıma xərclərini optimallaşdırmaq məqsədilə sahibkarlara məqsədli logistik dəstək mexanizmləri tətbiq olunacaqdır. Müntəzəm yükdaşımaların təşkili və nəqliyyat marşrutlarının effektivliyinin yüksəldilməsi ixrac həcminin artmasına, məşğulluğun genişlənməsinə və regionun işgüzar əlaqələrinin möhkəmlənməsinə xidmət edəcəkdir.

Zəngəzur dəhlizi açıldıqdan sonra Naxçıvan Muxtar Respublikasında istehsal olunan məhsulların quru yolu ilə ixracı üçün yeni imkanlar yaranacaq, bu imkanlardan hərtərəfli istifadənin stimullaşdırılması məqsədilə müxtəlif güzəştlərin tətbiqi məsələsinə ayrıca qiymətləndirmə aparılmaqla baxılacaqdır.

Həyata keçiriləcək tədbirlər Naxçıvan Muxtar Respublikasının ərazisində iqtisadi aktivliyin, məşğulluğun və ixracın artmasına, iqtisadiyyatda yerli istehsalın rolunun güclənməsinə kömək edəcəkdir.";

1.1.3. 4.1.4-cü yarımbəndin ikinci abzasında "Bölgə üçün spesifik və orqanik kənd təsərrüfatı məhsulları müəyyənləşdiriləcək, onların brendləşdirilməsi, təbliği, orqanik məhsulların xarici bazarlara ixracının təşviqi diqqətdə saxlanılacaq, kənd" sözləri "Kənd" sözü ilə əvəz edilsin;

1.1.4. 4.1.5-ci yarımbəndin üçüncü abzasından "turizm və rekreasiya zonalarının yaradılması da regionun turizm potensialının gücləndirilməsinə əhəmiyyətli təsir göstərəcək," sözləri çıxarılsın;

1.1.5. 4.1.7-ci yarımbənd üzrə:

1.1.5.1. ikinci abzasda "ictimai nəqliyyat xidmətlərininkeyfiyyətinin" sözləri "əhalinin nəqliyyat infrastrukturuna və nəqliyyat xidmətlərinə əlçatanlığının" sözləri ilə əvəz edilsin;

1.1.5.2.üçüncü abzas ləğv edilsin;

1.1.6. 4.1.8-ci yarımbəndin ikinci abzasında "ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərinin" sözləri "təhsil müəssisələrinin" sözləri ilə əvəz edilsin;

1.1.7. 4.1.10-cu yarımbəndin yeddinci abzası ləğv edilsin;

1.2. "8. Dövlət Proqramının həyata keçirilməsinə dair Tədbirlər Planı" hissəsi üzrə:

1.2.1. 8.1.5-ci, 8.2.1-ci, 8.2.2-ci və8.2.3-cü yarımbəndlər ləğv edilsin;

1.2.2.8.4.2-ci yarımbəndin "Digər icraçılar" sütununa "İN" akronimindən sonra ",AQTA" akronimi əlavə edilsin;

1.2.3. 8.4.3-cü və 8.5.4-cü yarımbəndlər ləğv edilsin;

1.2.4. 8.7.5-ci yarımbənd üzrə:

1.2.4.1. "Əsas icraçı orqan (qurum) fəaliyyət istiqamətlərinə uyğun olaraq" sütununa "AAYDA" akronimindən sonra ",AZCON" akronimi əlavə edilsin;

1.2.4.2."Digər icraçılar" sütunundan ", AZCON" akronimi çıxarılsın;

1.2.4.3. "yekun nəticələr" sütunu aşağıdakı redaksiyada verilsin:

"Naxçıvan Muxtar Respublikasında əhalinin nəqliyyat infrastrukturuna və nəqliyyat xidmətlərinə əlçatanlığının artırılması";

1.2.5. 8.7.6-cı yarımbənd ləğv edilsin;

1.2.6. 8.8.2-ci yarımbənd üzrə:

1.2.6.1."Tədbirin adı" sütununda "Ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərinin" sözləri "Təhsil müəssisələrinin"sözləri ilə əvəz edilsin;

1.2.6.2. "yekun nəticələr" sütununda "Aztəminatlı və xüsusi himayəyə ehtiyacı olan uşaqların təhsil" sözləri "Təhsil" sözü ilə əvəz edilsin;

1.2.7. 8.8.3-cü yarımbəndin "yekun nəticələr" sütunu aşağıdakı redaksiyada verilsin:

"Sosial cəhətdən həssas əhali qruplarının sosial xidmətlərlə əhatə olunmasının genişləndirilməsi";

1.2.8. 8.8.4-cü yarımbəndin "yekun nəticələr" sütunu aşağıdakı redaksiyada verilsin:

"Əhalinin fiziki fəallığının artırılması üçün şəraitin yaxşılaşdırılması";

1.2.9.8.10.13-cü yarımbənd ləğv edilsin;

1.2.10. 8.11.1-ci yarımbəndin "Digər icraçılar" sütununa "İN," akronimindən sonra "ADSEA," akronimi əlavə edilsin;

1.2.11. 8.11.2-ci yarımbənd üzrə:

1.2.11.1. "Tədbirin adı" sütununda "Meşəsalma" sözü"Yaşıllaşdırma işlərinin genişləndirilməsi, meşəsalma" sözləri ilə əvəz edilsin;

1.2.11.2."aralıq nəticələr" sütununda "Meşəsalma" sözü "Yaşıllaşdırma, meşəsalma" sözləri ilə əvəz edilsin;

1.2.11.3. "yekun nəticələr" sütunu aşağıdakı redaksiyada verilsin:

"Yaşıllıq sahələrinin və meşə ilə örtülü ərazilərin artırılması";

1.3. "AKRONİMLƏR VƏ İXTİSARLAR" hissəsindən "AZAL - "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 sentyabr 2026-cı il*

# Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında", "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" 2017-ci il 15 dekabr tarixli 918-VQD nömrəli və "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 11-civə 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Torpaq Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 478 (Cild I); 2024, № 3, maddə 250, № 7, maddə 770, № 12 (II kitab), maddə 1338; 2025, № 4 (I kitab), maddə 315, № 7, maddələr 610, 631, № 8, maddələr 738, 744; Azərbaycan Respublikasının 2026-cı il 12 iyun tarixli 420-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1.4-cü maddənin 1-ci hissəsində, 6-cı maddənin birinci hissəsinin dördüncü və on beşinci abzaslarında, 10-cu maddənin 5-ci hissəsində, 13-1-ci maddənin 8-ci hissəsində və 17-ci maddənin mətnində "dövlət torpaq" sözləri "daşınmaz əmlakın dövlət" sözləri ilə əvəz edilsin;

1.2. 38-ci maddənin birinci hissəsi üzrə:

1.2.1. dördüncü abzasda "dövlət torpaq" sözləri "daşınmaz əmlakın dövlət" sözləri ilə əvəz edilsin;

1.2.2. səkkizinci abzas aşağıdakı redaksiyada verilsin:

"daşınmaz əmlakın dövlət kadastrı sənədlərinin verilməsi;";

1.3. 41-ci maddə üzrə:

1.3.1. adında "Dövlət torpaq" sözləri "Daşınmaz əmlakın dövlət" sözləri ilə əvəz edilsin;

1.3.2.1 - 3-cü hissələr aşağıdakı redaksiyada verilsin:

"1. Daşınmaz əmlakın dövlət kadastrı -"Daşınmaz əmlakın dövlət kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə uyğun olaraq daşınmaz əmlakın kəmiyyət və keyfiyyət göstəriciləri üzrə məlumatlar məcmusudur.

2. "Daşınmaz əmlakın dövlət kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinə uyğun olaraq torpaqların istifadəsinin və mühafizəsinin planlaşdırılmasında, zonalaşdırılmasında, torpaq münasibətlərinin tənzimlənməsində və digər işlərdə daşınmaz əmlakın dövlət kadastrı məlumatlarından istifadə olunur.

3. Daşınmaz əmlakın dövlət kadastrı mülkiyyət növündən asılı olmayaraq Azərbaycan Respublikasının hüdudları daxilində yerləşən bütün daşınmaz əmlaka, o cümlədən torpaqlara münasibətdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi vasitəsilə aparılır.";

1.3.3. 4-cü hissədə "Dövlət torpaq" sözləri "Daşınmaz əmlakın dövlət" sözləri ilə əvəz edilsin;

1.4. 93-cü maddənin 3-cü hissəsinin dördüncü abzasında və 100-cü maddənin 2-ci hissəsinin birinci abzasında "dövlət torpaq" sözləri "daşınmaz əmlakın dövlət" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 493, № 7, maddə 744, № 12 (I kitab), maddə 1281; 2025, № 1, maddə 17, № 3, maddə 216, № 4 (I kitab), maddələr 315, 318, № 6, maddələr 523, 524, 536, № 7, maddələr 610, 626, № 8, maddələr 738, 741, 743, 744, № 11, maddə 1004; 2026, № 1, maddə 2,№ 3, maddə 208; Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 413-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 139-1.1-ci maddə üzrə:

2.1.1. 139-1.1.9.2-ci maddədən "çoxmənzilli binalara," və "müvafiq icra hakimiyyəti orqanının tikilinin inşa edilməsinə icazə barədə qərarı," sözləri çıxarılsın;

2.1.2. 139-1.1.10.1-ci maddədən "tikintiyə icazə," sözləri çıxarılsın;

2.2. 147.6-cı maddədə "gün" sözü "iş günü" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993, № 2, maddə 40; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2025, № 2, maddə100) 8-ci maddəsinin üçüncü hissəsinin birinci abzasında "orqanına" sözü"orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 157 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

4.1. adında "Dövlət torpaq" sözləri "Daşınmaz əmlakın dövlət" sözləri ilə əvəz edilsin;

4.2. preambulada "dövlət torpaq" sözləri "daşınmaz əmlakın dövlət" sözləri ilə əvəz edilsin;

4.3. 1-ci maddənin birinci hissəsi üzrə:

4.3.1. ikinci abzas aşağıdakı redaksiyada verilsin:

"daşınmaz əmlakın dövlət kadastrı (bundan sonra - dövlət kadastrı) -daşınmaz əmlakın kəmiyyət və keyfiyyət göstəriciləri üzrə məlumatlar məcmusu;";

4.3.2. üçüncü və dördüncü abzaslar müvafiq olaraq yeddinci və səkkizinci abzaslar hesab edilsin və aşağıdakı məzmunda üçüncü-altıncı abzaslar əlavə edilsin:

"daşınmaz əmlakın dövlət kadastrı obyektləri (bundan sonra - dövlət kadastr obyektləri)- "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən üzərində hüquqlar qeydiyyata alınmalı olan daşınmaz əmlak, həmçinin Azərbaycan Respublikasının dövlət sərhədləri, ərazi vahidlərinin və bələdiyyələrin sərhədləri, infrastruktur obyektləri, Azərbaycan Respublikasının daxili suları (çaylar, göllər və s.) və Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi, habelə digər təbiət obyektləri;

kadastr xəritəsi-dövlət kadastr obyektlərinin yerləşməsinin qrafik təsvirini və döngə nöqtələrinin koordinatları haqqında məlumatları əks etdirən, elektron formada tərtib edilən xəritə;

dövlət kadastr uçotuna alınma - daşınmaz əmlakın kəmiyyət və keyfiyyət göstəricilərinin dövlət kadastrına daxil edilməsi ilə onun mövcudluğunun dövlət tərəfindən müəyyən edilməsi;

texniki pasport -dövlət kadastr obyektinə dair qrafiki təsvirin və məlumatların rəqəmsal formada əks olunduğu texniki sənəd;";

4.4. 2-ci maddə üzrə:

4.4.1. adından və birinci hissədən birinci halda "torpaq" sözü çıxarılsın;

4.4.2. ikinci hissənin birinci cümləsində "Torpaq kadastrı," sözləri "Dövlət kadastrı, torpaqların" sözləri ilə əvəz edilsin və həmin hissədən ikinci cümlə çıxarılsın;

4.5. 3-cü maddənin adından, birinci və ikinci hissələrindən birinci halda"torpaq" sözü çıxarılsın;

4.6. 4-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 4. Dövlət kadastrı, torpaqların monitorinqi və yerquruluşu işlərinin əsas prinsipləri**

Dövlət kadastrı, torpaqların monitorinqi və yerquruluşu işləri aşağıdakı prinsiplərə əsaslanır:

Azərbaycan Respublikasının bütün ərazisini əhatə etməsi;

məlumatların tamlığı və dəqiqliyi;

qanunla əldə edilməsi məhdudlaşdırılan məlumatlar istisna olmaqla, dövlət kadastr məlumatlarının açıqlığı.";

4.7. II fəslin adından "TORPAQ" sözü çıxarılsın;

4.8. 5 - 7-ci maddələr aşağıdakı redaksiyada verilsin:

**"Maddə 5. Dövlət kadastrının aparılması qaydaları**

5.1. Dövlət kadastrı mülkiyyət növündən asılı olmayaraq Azərbaycan Respublikasının hüdudları daxilində yerləşən bütün daşınmaz əmlaka münasibətdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi (bundan sonra - Sistem) vasitəsilə aparılır.

5.2. Dövlət kadastrına məlumatlar aşağıdakı hallarda daxil edilir:

5.2.1. daşınmaz əmlak üzərində hüquqların ilkin dövlət qeydiyyatının aparılması məqsədilə daşınmaz əmlakın dövlət reyestrinə hüquq sahibləri tərəfindən müraciət edildikdə;

5.2.2. dövlət kadastrını aparan orqana (quruma) bu Qanunun 6.1-ci maddəsində nəzərdə tutulan məlumatların yaranması, dəyişməsi və ləğvi barədə sənəd və ya məlumat daxil olduqda;

5.2.3. dövlət və ya bələdiyyə mülkiyyətində olan daşınmaz əmlakın, həmçinin hüquqi və ya fiziki şəxslərin qanuni istifadəsində olub üzərində hüquqların dövlət qeydiyyatına alınmamış daşınmaz əmlakın dövlət kadastr məlumatlarının toplanılması məqsədilə dövlət sifarişi olduqda.

5.3. Dövlət kadastrının aparılması qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 6. Dövlət kadastrının məlumatları**

6.1. Azərbaycan Respublikasının dövlət sərhədləri, ərazi vahidlərinin, bələdiyyələrin və yaşayış məntəqələrinin sərhədləri, torpaq sahəsinin kateqoriyası, təyinatı, ərazi planlaşdırılması və zonalaşdırılmasına dair məlumatlar, infrastruktur obyektləri və onların mühafizə zonaları barədə məlumatlar, Azərbaycan Respublikasının daxili suları (çaylar, göllər və s.) və Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi və onların mühafizə zonalarına dair məlumatlar, habelə daşınmaz əmlakın dövlət reyestrinin I fəslinin məlumatları dövlət kadastrına daxildir.

6.2. Dövlət kadastrı məlumatlarının tərkibi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən bu Qanunun 5.3-cü maddəsində nəzərdə tutulan qaydalara uyğun olaraq müəyyən edilir.

**Maddə 7. Dövlət kadastr uçotuna alınma**

7.1. Dövlət kadastr uçotuna alınma aşağıdakı ardıcıllıqla həyata keçirilir:

7.1.1. bu Qanunun 5.2-ci maddəsində qeyd olunan hallarla bağlı müraciətin və ya hüquqi aktlarla müəyyən edilmiş tapşırıqların Sistem vasitəsilə qeydiyyata alınması;

7.1.2. çöl ölçmə işlərinin (texniki inventarlaşma) aparılması;

7.1.3. çöl ölçmə işlərinin (texniki inventarlaşma) nəticələri ilə təqdim edilmiş sənədlərdə və dövlət kadastrında olan məlumatların uyğunluğunun yoxlanılması;

7.1.4. çöl ölçmə işləri (texniki inventarlaşma) nəticəsində əldə edilmiş kadastr məlumatları ilə təqdim edilmiş sənədlərdə və dövlət kadastrında olan məlumatlar arasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən bu Qanunun 5.3-cü maddəsində nəzərdə tutulan qaydalarla müəyyən edilmiş uyğunsuzluqların olmadığı müəyyən edildikdə məlumatların dövlət kadastrına daxil edilməsi.

7.2. Bu Qanunun 5.2.1-ci maddəsində qeyd edilən hal istisna olmaqla, dövlət kadastr uçotuna alınma 10 iş günü müddətində aparılır. Bu Qanunun 5.2.1-ci maddəsində qeyd edilən halda "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 9.2-ci maddəsinin tələbləri tətbiq olunur.

7.3. Təqdim edilmiş sənədlərlə, dövlət kadastrında saxlanılan məlumatlarda və çöl ölçmə işləri (texniki inventarlaşma) nəticəsində əldə edilmiş məlumatlar arasında uyğunsuzluqlar və onların yaranma səbəbləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.";

4.9. aşağıdakı məzmunda 7-1-ci maddə əlavə edilsin:

**"Maddə 7-1. Dövlət kadastr uçotuna alınmadan imtina**

7-1.1.Dövlət kadastr uçotuna alınmadan aşağıdakı hallarda imtina edilir:

7-1.1.1.dövlət kadastr uçotuna alınması tələb edilən əşya dövlət kadastr obyekti deyildirsə;

7-1.1.2. müraciət ixtiyarı olmayan şəxs tərəfindən edildikdə;

7-1.1.3. təqdim edilmiş sənədlərdə texniki səhvə yol verildikdə.

7-1.2. Dövlət kadastr uçotuna alınmadan əsaslandırılmış imtina barədə müraciət etmiş şəxsə 5 iş günü müddətində bildiriş göndərilir. Bildirişin forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

7-1.3. Dövlət kadastr uçotuna alınma bu Qanunun 5.2.1-ci maddəsində nəzərdə tutulan müraciətlərə baxılması ilə bağlı olduqda imtina əsasları və imtinanın verilmə qaydası "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsi ilə tənzimlənir.";

4.10. 8-ci maddə ləğv edilsin;

4.11. 9-cu və 10-cu maddələr aşağıdakı redaksiyada verilsin:

**"Maddə 9. Dövlət kadastr sənədləri**

9.1. Dövlət kadastr sənədləri texniki pasport və kadastr xəritəsidir.

9.2. Dövlət kadastr sənədlərinin məzmunu müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

9.3. Dövlət kadastrına daxil edilmiş hər bir dövlət kadastr obyektinin dövlət kadastr sənədi hüquq sahibinin müraciəti əsasında Sistem vasitəsilə Elektron Hökumət İnformasiya Sistemi üzərindən 5 iş günü müddətində verilir.

**Maddə 10. Torpaq tədqiqatı işlərinin yerdə (naturada) aparılma müddətləri**

10.1. Dövlət kadastrının torpaqla bağlı məlumatlarının dövri olaraq yenilənməsini təmin etmək üçün Azərbaycan Respublikasının bütün ərazi vahidləri üzrə torpaq sahələrinin yerdə (naturada) tədqiqatı aparılır vədövlət kadastrında müvafiq dəyişikliklər edilir.

10.2. Torpaq sahələrinin yerdə (naturada) tədqiqatı aşağıdakı müddətlərdə aparılır:

10.2.1. torpaq və geobotaniki tədqiqat - 10 ildəbir dəfə;

10.2.2.aqrokimyəvi tədqiqat - 5 ildə bir dəfə.

10.3. Torpaq mülkiyyətçisinin, icarəçisinin və ya istifadəçisinin sifarişi ilə tədqiqat işləri müvafiq müddətlər gözlənilmədən aparıla bilər.";

4.12. 11-ci maddə üzrə:

4.12.1.adından "torpaq" sözü çıxarılsın;

4.12.2. birinci hissə üzrə:

4.12.2.1. birinci abzasdan "torpaq" sözü çıxarılsın;

4.12.2.2. ikinci abzas ləğv edilsin;

4.12.2.3. üçüncü abzas aşağıdakı redaksiyada verilsin:

"torpaqların istifadəsinin və mühafizəsinin planlaşdırılmasında, zonalaşdırılmasında, torpaqların səmərəli istifadəsinə, münbitliyinin artırılmasına, qorunmasına, digər torpaq mühafizəsi tədbirlərinə dair dövlət proqramlarının hazırlanmasında və yerinə yetirilməsində;";

4.12.2.4. altıncı abzasdan ", torpaq reyestrinin tərtibində və torpaq bazarının formalaşdırılmasında" sözləri çıxarılsın;

4.12.2.5. səkkizinci abzas ləğv edilsin;

4.12.3. ikinci hissə ləğv edilsin;

4.13. 12-ci maddə ləğv edilsin;

4.14. 14-cü maddənin ikinci hissəsində"orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

4.15. 15-ci maddə üzrə:

4.15.1. birinci hissədən "dövlət torpaq kadastrı fondunun tərkib hissəsi kimi" sözləri çıxarılsın;

4.15.2. ikinci hissədə "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

4.16. 19-cu maddə üzrə:

4.16.1. birinci hissədə "orqanlarının" sözü "orqanının müəyyən etdiyi orqanın (qurumun)" sözləri ilə əvəz edilsin;

4.16.2. ikinci və dördüncü hissələrdə "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

4.16.3. üçüncü hissə ləğv edilsin;

4.17. V fəslin adından "TORPAQ" sözü çıxarılsın;

4.18. 20-ci maddə üzrə:

4.18.1. adından "torpaq" sözü çıxarılsın;

4.18.2. birinci hissədən "torpaq" sözü çıxarılsın və həmin hissədə "orqanları" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

4.18.3. ikinci hissədən birinci halda "torpaq" sözü çıxarılsın;

4.19. 21-ci maddə üzrə:

4.19.1. adından "torpaq" sözü çıxarılsın;

4.19.2. birinci hissədən "torpaq" sözü çıxarılsın və həmin hissədə "öz səlahiyyətləri daxilində müvafiq icra hakimiyyəti orqanları həyata keçirirlər" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həyata keçirir" sözləri ilə əvəz edilsin;

4.19.3. ikinci hissədən "torpaq" sözü çıxarılsın və həmin hissədə "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

4.20. 22-ci maddə üzrə:

4.20.1. adından və birinci hissədən"torpaq" sözü çıxarılsın;

4.20.2. ikinci hissədə "həyata keçirilən torpaq-kadastrı" sözləri "aparılan torpaq tədqiqatı" sözləri ilə əvəz edilsin və həmin hissəyə "işləri," sözündən sonra "dövlət kadastr sənədlərinin," sözləri əlavə edilsin;

4.21. VI fəslin adından "TORPAQ" sözü çıxarılsın;

4.22. 23-cü maddənin adından və mətnindən "torpaq" sözü çıxarılsın;

4.23. 24-cü maddə üzrə:

4.23.1. adından "torpaq" sözü çıxarılsın;

4.23.2. mətnindən "torpaq" sözü çıxarılsın və mətnində "Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada" sözləri "qanunda nəzərdə tutulmuş hallarda" sözləri ilə əvəz edilsin;

4.24. 25-ci maddənin mətnindən "torpaq" sözü çıxarılsın.

**Maddə 5.** "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 603 (Cild I); 2025, № 1, maddə 16, № 2, maddə 100, № 6, maddə 536, № 7, maddə 630, № 8, maddələr 738, 744; 2026, № 1, maddə 13; Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 413-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

5.1.1-ci maddə üzrə:

5.1.1.1.0.1-ci maddədən ", qurğular" sözü çıxarılsın;

5.1.2. aşağıdakı məzmunda 1.0.2-1-1.0.2-3-cü maddələr əlavə edilsin:

"1.0.2-1. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi (bundan sonra -Sistem) - daşınmaz əmlakın dövlət reyestri və kadastrı sahələrində xidmətlərin elektron qaydada göstərilməsini təmin edən vahid informasiya sistemidir;

1.0.2-2. daşınmaz əmlak üzərində hüquqların ilkin qeydiyyatı - üzərində hüquqların reyestrdə qeydiyyata alınmadığı, o cümlədən daşınmaz əmlakın birləşməsi, ayrılması və bölünməsi nəticəsində yeni yaranmış əmlaka dair hüquqların ilk dəfə əmələ gəlməsinin dövlət tərəfindən tanınması;

1.0.2-3. daşınmaz əmlak üzərində hüquqların təkrar qeydiyyatı - reyestrdə qeydiyyata alınmış daşınmaz əmlaka dair hüquqların özgəninkiləşdirilməsi və ya yüklü edilməsi nəticəsində yaranan hüquqların dövlət tərəfindən tanınması;";

5.2. 2.1-ci maddə ləğv edilsin;

5.3. 5-ci maddə üzrə:

5.3.1. 5.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"5.1. Dövlət reyestrində qeydiyyata alınmış hüquqların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayış elektron formada hüquq sahibinə, onun tərəfindən vəkil edilmiş şəxsə, hüquq sahibinin əmlakına qanun və ya vəsiyyət əsasında vərəsəlik hüququ olan şəxslərə onların Sistem vasitəsilə təqdim edilən və elektron imza ilə imzalanmış müraciətləri əsasında verilir. Müraciət hüquq sahibinin səlahiyyətli nümayəndəsi və ya vərəsəsi tərəfindən təqdim edildikdə müvafiq olaraq səlahiyyətin verilməsini və vərəsəliyin müəyyən edilməsini təsdiq edən sənədə dair rekvizitlər müraciətə əlavə olunur. Qeydiyyat orqanı həmin rekvizitlər əsasında müvafiq sənədləri Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra - EHİS) vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edir. Belə sənədlərin EHİS vasitəsilə əldə edilməsi mümkün olmadıqda, onların təqdim edilməsi Sistem vasitəsilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur.";

5.3.2. 5.1-1-ci maddənin birinci cümləsində "əsaslandırılmış yazılı" sözləri "dövlət informasiya ehtiyatları və sistemləri arasında inteqrasiya qaydasında və ya əsaslandırılmış" sözləri ilə əvəz edilsin;

5.3.3.5.1-2-ci maddənin birinci cümləsində "Elektron Hökumət İnformasiya Sistemi" sözləri "EHİS" akronimi ilə əvəz edilsin;

5.3.4. 5.1-3-cü maddədə "daşınmaz əmlakın dövlət reyestri" sözləri "Sistem" sözüilə əvəz edilsin;

5.3.5. 5.1-4-cü maddədə "dövlət reyestrindən" sözləri "Sistemdən" sözü ilə əvəz edilsin;

5.3.6. 5.2-ci və 5.2-1-ci maddələr ləğv edilsin;

5.3.7. 5.3-cü maddədən "yazılı və ya" sözləri çıxarılsın və həmin maddədə "verməlidir" sözü "Sistem vasitəsilə təqdim etməlidir" sözləri ilə əvəz edilsin;

5.3.8. 5.4-cü maddənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Hüquq sahibinin Sistem vasitəsilə təqdim edilən sorğusuna əsasən ona məxsus olan daşınmaz əmlak haqqında qeydiyyat orqanının digər şəxslərə verdiyi arayışlar (məlumatlar) barədə bildiriş həmin sorğu verildikdən sonra 1iş günü müddətində qeydiyyat orqanı tərəfindən Sistem vasitəsilə hüquq sahibinə göndərilməlidir.";

5.4. 6.4-cü maddədə "torpaq kadastr" sözləri "daşınmaz əmlakın dövlət kadastrı" sözləri ilə əvəz edilsin;

5.5. 8-ci maddə üzrə:

5.5.1. 8.0.9.2-ci maddədən "çoxmənzilli binalara," və "müvafiq icra hakimiyyəti orqanının tikilinin inşa edilməsinə icazə barədə qərarı," sözləri çıxarılsın;

5.5.2.8.0.10.1-ci maddədən "tikintiyə icazə," sözləri çıxarılsın;

5.6. 9-cu maddə üzrə:

5.6.1. 9.1.1-ci maddənin ikinci cümləsində "Elektron Hökumət İnformasiya Sistemi" sözləri "EHİS" akronimi ilə əvəz edilsin;

5.6.2.9.2-ci maddə üzrə:

5.6.2.1. birinci cümləyə"olmaqla," sözündən sonra "daşınmaz əmlak üzərində hüquqların ilkin qeydiyyatı ilə bağlı" sözləri əlavə edilsin;

5.6.2.2. ikinci və üçüncü cümlələr müvafiq olaraq üçüncü və dördüncü cümlələr hesab edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Daşınmaz əmlak üzərində hüquqların təkrar qeydiyyatı ilə bağlı bu Qanunun 9.1.1-ci maddəsinə uyğun olaraq göndərilən ərizələr 1iş günü müddətində icra olunur.";

5.6.3.9.2-1-ci maddənin birinci və ikinci cümlələrində "dövlət torpaq" sözləri "daşınmaz əmlakın dövlət" sözləri ilə əvəz edilsin;

5.6.4. 9.5-ci maddədə "elektron üsulla" sözləri "Sistem vasitəsilə" sözləri ilə əvəz edilsin;

5.7. 10-cu maddə üzrə:

5.7.1. 10.1-ci maddənin birinci cümləsinə "şəxsin" sözündən sonra "Sistem vasitəsilə" sözləri əlavə edilsin;

5.7.2. 10.2.2-ci və 10.2.3-cü maddələr aşağıdakı redaksiyada verilsin:

"10.2.2. torpaq sahəsinin yerini müəyyən etməyə imkan verən texniki sənəd (daşınmaz əmlakın dövlət kadastr sənədləri, torpaq sahəsinin planı və ölçüsü, yerquruluşu planı və s.);

10.2.3. bina və ya binanın tərkib hissəsinə dair texniki sənəd (texniki pasport, plan-cizgi və s.);";

5.7.3. 10.3-cü maddənin ikinci cümləsi çıxarılsın;

5.7.4. 10.3-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"10.3-1. Hüquqların dövlət qeydiyyatı üçün tələb olunan sənədlər və məlumatlar Sistemə EHİS vasitəsilə göndərilir. Belə sənədlər və məlumatlar Sistemdə mövcud olmadıqda onların əldə edilməsi üçün EHİS vasitəsilə müvafiq dövlət orqanlarına (qurumlarına) elektron sorğu ünvanlanır.";

5.7.5. 10.4-cü maddə ləğv edilsin;

5.8. 11.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"11.1. Hüquqların dövlət qeydiyyatı üçün əsas olan sənədlər və məlumatlar həmin sənədi və ya məlumatı verən aidiyyəti dövlət orqanı (qurumu) tərəfindən rəqəmsallaşdırılaraq Sistemə yerləşdirilməlidir. Müvafiq sənədlər və məlumatlar Sistemdə olmadıqda, onların EHİS vasitəsilə əldə edilməsi üçün ərizəçi tərəfindən qeydiyyat orqanına Sistem vasitəsilə müraciət ünvanlanır. Həmin müraciət əsasında qeydiyyat orqanı tərəfindən müvafiq dövlət orqanlarına (qurumlarına) elektron sorğu ünvanlanır. Sorğuya 7 iş günü müddətində cavab verilməlidir.";

5.9. 12-ci maddə üzrə:

5.9.1. 12.1-ci maddə üzrə:

5.9.1.1.birinci cümlədən "müvafiq icra hakimiyyəti orqanları tərəfindən hazırlanan sənədlər əsasında" sözləri çıxarılsın;

5.9.1.2. üçüncü cümlədə "müvafiq" sözü "təkmil sertifikatlı gücləndirilmiş"sözləri ilə, "Elektron Hökumət İnformasiya Sistemində" sözləri "Sistem vasitəsilə EHİS-də" sözləri ilə əvəz edilsin;

5.9.1.3. dördüncü cümlə çıxarılsın;

5.9.2.12.3-cü maddənin birinci və ikinci cümlələrində"Elektron Hökumət İnformasiya Sistemi" sözləri "EHİS" akronimi ilə əvəz edilsin;

5.10.13-cü maddə üzrə:

5.10.1.13.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"13.2. Dövlət reyestri "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə riayət edilməklə Sistem vasitəsilə aparılır.";

5.10.2.13.3-cü maddə ləğv edilsin;

5.10.3.13.7-ci maddədə "sahəsi onda" sözləri "sahəsində" sözü ilə, "əmlakla" sözü "əmlak yerləşdiyi torpaq sahəsi ilə" sözləri ilə əvəz edilsin;

5.10.4.13.8-ci maddə ləğv edilsin;

5.10.5. 13.9.1- 13.9.3-cü və 13.10-cu maddələr aşağıdakı redaksiyada verilsin:

"13.9.1. I fəsildə üzərində hüquqların qeydiyyata alındığı daşınmaz əmlaklar barədə məlumatlar saxlanılır;

13.9.2. II fəsildə qeydiyyata alınmış mülkiyyət hüquqları və hüquq sahibi (sahibləri) barədə məlumatlar saxlanılır;

13.9.3. III fəsildə digər əşya hüquqları, habelə mülkiyyət və digər əşya hüquqlarının məhdudlaşdırılması barədə məlumatlar saxlanılır.

13.10. Hüquqa, onun məhdudlaşdırılmasına və ləğvinə dair hər bir yazıya (qeydə) hüquqların qeydiyyatı və ya onların məhdudlaşdırılması, yaxud ləğvi üçün qəbul edilmiş ərizənin qeydiyyat orqanına daxilolma nömrəsi əsasında qeydiyyat nömrəsi verilir.";

5.10.6. 13.11-ci maddə ləğv edilsin;

5.10.7. 13.11-1-ci maddə üzrə:

5.10.7.1. birinci cümlə çıxarılsın;

5.10.7.2. ikinci cümlədən "elektron formada aparılan" sözləri çıxarılsın;

5.10.8. 13.11-2-ci maddədə "Elektron formada aparılan dövlət" sözləri "Dövlət" sözü ilə əvəz edilsin;

5.10.9. aşağıdakı məzmunda 13.13-cü maddə əlavə edilsin:

"13.13. Dövlət reyestrinin aparılması qaydaları, o cümlədən reyestrdə saxlanılan məlumatların tərkibi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.";

5.11. 15.2-ci maddədə "5 gün müddətində"sözləri "hüquqların qeydiyyatı üçün təqdim edilən ərizənin icrası üçün nəzərdə tutulmuş müddət ərzində" sözləri ilə əvəz edilsin;

5.12. 16-cı maddə üzrə:

5.12.1. 16.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"16.1. Hüquqların qeydiyyatı üçün əsas olan sənədlərdəki məlumatlar dövlət reyestrinə daxil edildiyi zaman texniki səhvə yol verildiyi hallarda, həmin daşınmaz əmlak özgəninkiləşdirilmədiyi və ya ona dair hüquqlar üçüncü şəxsin xeyrinə yüklü edilmədiyi hallarda, bu səhv aşkarlandığı və ya bu barədə maraqlı şəxslərdən ərizə daxil olduğu gün həmin səhvin məzmunu barəsində daşınmaz əmlakın dövlət reyestrində qeyd aparılır. Bundan sonra 3 iş günü müddətində qeydiyyat orqanı tərəfindən həmin səhv aradan qaldırılır və hüquq sahibinə səhvin aradan qaldırılması haqqında 2 iş günü müddətində elektron bildiriş göndərilir.

Daşınmaz əmlak özgəninkiləşdirildiyi və ya üçüncü şəxsin xeyrinə yüklü edildiyi təqdirdə, qeydiyyat orqanı bu səhvi aşkarladığı və ya bu barədə maraqlı şəxslərdən ərizə daxil olduğu gündən 3 iş günü müddətində hüquq sahibi və (və ya) üçüncü şəxsə səhvin aradan qaldırılmasına razılıq verilməsi barədə elektron bildiriş göndərir. Belə razılıq verildikdə 3 iş günü müddətində qeydiyyat orqanı tərəfindən texniki səhv aradan qaldırılır və hüquq sahibinə səhvlərin aradan qaldırılması haqqında 2 iş günü müddətində elektron bildiriş göndərilir.

Hüquq sahibi və (və ya) üçüncü şəxs elektron bildirişi aldıqdan sonra 15 iş günü müddətində Sistem vasitəsilə münasibət bildirmədikdə və ya etiraz etdikdə, səhvin aradan qaldırılması qeydiyyat orqanının müraciəti ilə məhkəmənin qərarı əsasında aparılır.";

5.12.2. 16.1-1-ci maddəyə "və" sözündən sonra "elektron" sözü əlavə edilsin;

5.12.3. 16.2-ci maddə ləğv edilsin;

5.13. 17-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 918-VQD nömrəli Qanunu qüvvəyə minənədək qabaqcadan qeydiyyatı aparılmış tikintisi başa çatmamış daşınmaz əmlaka münasibətdə yalnız daşınmaz əmlak üzərində hüquqların təkrar qeydiyyatı aparılır.";

5.14. aşağıdakı məzmunda 17-1-ci maddə əlavə edilsin:

**"Maddə 17-1. Təminat qeydinin aparılması**

17-1.1. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 144-1-ci və 147-ci maddələrinə uyğun olaraq reyestrdə təminat qeydi 3iş günü müddətində aparılır. Təminat qeydi torpaq sahəsi (üzərindəki tikilmiş və ya tikintisi başa çatdırılmamış tikinti obyektləri də daxil olmaqla) ilə bağlı hər hansı hüququn əldə edilməsinə yönəlmiş tələbləri təmin etmək məqsədilə torpaq sahəsinin mülkiyyətçisi ilə həmin torpaq sahəsinə hüquq əldə etmək istəyən şəxs arasında notariat qaydasında təsdiq edilmiş müqavilə əsasında aparılır.

17-1.2. Tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsində tərkib hissələrin bağlı olduğu paylar barəsində yalnız bir təminat qeydi aparıla bilər. Bölünmə planı üzrə payına uyğun xeyrinə təminat qeydi aparılmış şəxs müvafiq hüquq və öhdəliklərini notariat qaydasında təsdiq edilmiş müqavilə əsasında üçüncü şəxsə ötürə bilər.";

5.15.18-ci maddə üzrə:

5.15.1. 18.1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Müvafiq qeydiyyatın ləğvini nəzərdə tutan qanuni qüvvəyə minmiş məhkəmə aktı qeydiyyat orqanına daxil olduqda qeydiyyatın ləğvi 10 iş günü müddətində aparılır.";

5.15.2. 18.2-ci maddənin birinci cümləsinə "qeydiyyatını" sözündən sonra "ərizənin təqdim edildiyi gündən 10 iş günü müddətində" sözləri əlavə edilsin;

5.16. 19.3-cü maddənin birinci cümləsindən "qurğunun," sözü çıxarılsın;

5.17. 20-ci maddə üzrə:

5.17.1.20.2-ci maddə ləğv edilsin;

5.17.2. 20.3-cü maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Ərizəçilərin təqdim etdikləri ərizə onların istəyi əsasında icra müddəti sürətləndirilməklə qəbul oluna bilər və bu halda həmin ərizələr ən geci 2iş günü müddətində icra olunur.";

5.18.21.2-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Belə qeyd daşınmaz əmlak üzərində hüquqların məhdudlaşdırılması üçün əsas deyildir.";

5.19. aşağıdakı məzmunda 23.4-cü maddə əlavə edilsin:

"23.4. Bu Qanunun 11.1-ci maddəsində nəzərdə tutulan sorğulara vaxtında cavab verməyən vəzifəli şəxslər qanunda müəyyən edilmiş hallarda məsuliyyət daşıyırlar.".

**Maddə 6.** "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 918-VQD nömrəli Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 142) 4-cü maddəsi ləğv edilsin.

**Maddə 7.** "Aqrar sığorta haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 8, maddə 1361 (Cild I) 13.4.3-cü maddəsində "dövlət torpaq" sözləri "daşınmaz əmlakın dövlət" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2026-cı il*

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202 (Cild I); 2024, № 1, maddə 18, № 2, maddə 135, № 4, maddə 362, № 5 (I kitab), maddələr 487, 489, 492, 503, № 7, maddələr 750, 768, 771, 772, № 12 (I kitab), maddə 1280, (II kitab), maddələr 1330, 1350; 2025, № 1, maddələr 1, 15, № 2, maddə 99, № 3, maddə 217, № 4 (I kitab), maddələr 305, 311, № 5, maddələr 434, 440, № 6, maddə 529, № 7, maddələr 607, 619, 626, № 8, maddələr 736, 741; 2026, № 1, maddələr 18, 19, № 3, maddələr 202, 212; Azərbaycan Respublikasının 2026-cı il 21 aprel tarixli 388-VIIQD nömrəli və 12 iyun tarixli 423-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 37-1-ci maddə əlavə edilsin:

**"Maddə 37-1. İnzibati xəta törətmiş psixiatriya yardımına ehtiyacı olan şəxslərin psixiatriya müayinəsi**

37-1.1. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsə psixiatriya yardımının gecikdirilməsi onun özünün, yaxud başqa şəxslərin həyat və sağlamlığına təhlükə yaradarsa, inzibati xəta haqqında iş üzrə icraat aparan prokuror və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) səlahiyyətli vəzifəli şəxsi barəsində icraat aparılan şəxsin özünün və ya qanuni nümayəndəsinin razılığı olmadan psixiatriya müayinəsinin aparılması ilə bağlı qərar qəbul edərək psixiatriya müəssisəsinə müraciət edir.

37-1.2. Şəxsin barəsində psixiatriya müayinəsinin həyata keçirilməsi və onun psixiatriya stasionarına qeyri-könüllü yerləşdirilməsi "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə uyğun olaraq tənzimlənir.";

1.2. 38.1-ci maddənin ikinci cümləsinə ikinci halda "təhlükəsizliyinin" sözündən sonra "və informasiya infrastrukturunun kibertəhlükəsizliyinin" sözləri əlavə edilsin;

1.3. 102.1-ci maddəyə "371-1-ci," sözlərindən sonra "371-2-ci," sözləri əlavə edilsin;

1.4. 287-ci maddə üzrə:

1.4.1. 287.0.1-ci və 287.0.2-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"287.0.1. toxumçuluq sahəsində normativ hüquqi aktların tələblərinə uyğun gəlməyən toxumların istehsalına, emalına, tədarükünə, saxlanmasına, daşınmasına, ticarət dövriyyəsinə, o cümlədən idxalına və ixracına;

287.0.2. toxum əməliyyatçılarının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemində qeydiyyata alınmadan toxumçuluq sahəsində fəaliyyət göstərilməsinə;";

1.4.2. 287.0.3-cü maddəyə "olunmasına" sözündən sonra ", habelə toxum qablarının (konteynerlər, bağlamalar və s.) üzərində, etiketlərdə və ya müşayiətedici sənədlərdə bitki sortunun adı, mənşəyi və toxumun keyfiyyəti barədə yanlış məlumat göstərilməsinə" sözləri əlavə edilsin;

1.4.3. 287.0.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"287.0.5. toxum əməliyyatçıları tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə bilə-bilə yanlış və ya təhrif olunmuş məlumatların daxil edilməsinə görə -";

1.5. aşağıdakı məzmunda 371-2-ci maddə əlavə edilsin:

**"Maddə 371-2. Kibertəhlükəsizliyin təmini sahəsində normativ hüquqi aktların tələblərinin pozulması**

371-2.1. Kompüter insidentlərinə qarşı mübarizə mərkəzləri, təhlükəsizlik əməliyyatları mərkəzləri, həmçinin informasiya infrastrukturunun subyektləri, o cümlədən internet informasiya ehtiyatlarının sahibləri, internet provayderlər və host provayderlər tərəfindən informasiya infrastrukturunun kibertəhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlərin görülməməsinə görə, yəni:

371-2.1.1. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya infrastrukturunun kibertəhlükəsizliyinin təmin edilməsi (kibertəhdidlər, kiberhücumlar və kiberinsidentlərin qarşısının alınması və nəticələrinin aradan qaldırılması), habelə rəqəmsal tədqiqatın aparılması və nəticəsi barədə məlumatın təqdim edilməsi ilə əlaqədar göstərişlərinin yerinə yetirilməməsinə;

371-2.1.2. informasiya infrastrukturuna yönəlmiş kibertəhdidlər, kiberhücumlar və kiberinsidentlər barədə məlumatların, habelə bu Məcəllənin 371-2.1.4-cü maddəsində qeyd edilən fəaliyyətlərin həyata keçirilməsi nəticəsində əldə edilən məlumatların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) dərhal təqdim edilməməsinə;

371-2.1.3. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya infrastrukturunun kibertəhlükəsizlik vəziyyətinin öyrənilməsi, proaktiv kibertəhlükəsizlik tədqiqatının aparılması məqsədilə göndərdiyi sorğuların 24 saat, rəqəmsal tədqiqatın aparılması ilə bağlı göndərdiyi sorğuların isə 5 iş günü ərzində cavablandırılmamasına;

371-2.1.4. kiberinsidentlərin və kiberhücumların real vaxt rejimində fasiləsiz monitorinqinin və onlara qarşı ilkin texniki cavab tədbirlərinin həyata keçirilməməsinə;

371-2.1.5. ictimai əhəmiyyətli funksiyaları yerinə yetirən informasiya infrastrukturunun kibertəhlükəsizliyi üzrə ümumi və xüsusi tələblərin informasiya infrastrukturunun subyektləri, o cümlədən internet provayderlər, host provayderlər və internet informasiya ehtiyatının sahibləri tərəfindən pozulmasına;

371-2.1.6. rəqəmsal tədqiqatın və proaktiv kibertəhlükəsizlik tədqiqatına şəraitin yaradılmamasına, həmçinin rəqəmsal tədqiqat zamanı əldə olunan məlumatların bütövlüyünün qorunmamasına, onların dəyişdirilməsinə, silinməsinə və ya saxtalaşdırılmasına yol verilməsinə görə -

vəzifəli şəxslər beş yüz manatdan min manatadək məbləğdə, hüquqi şəxslər min manatdan iki min manatadək məbləğdə cərimə edilir.

371-2.2. "Kompüter insidentlərinə qarşı mübarizə mərkəzlərinin və təhlükəsizlik əməliyyatları mərkəzlərinin reyestri"nə daxil edilmədən kompüter insidentlərinə qarşı mübarizə mərkəzi və təhlükəsizlik əməliyyatları mərkəzi kimi fəaliyyət göstərilməsinə görə -

vəzifəli şəxslər min manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə cərimə edilir.

**Qeyd:** Bu Məcəllənin 371-2-ci maddəsinin qüvvəsi kritik informasiya infrastrukturuna, dövlət orqanlarına (qurumlarına), o cümlədən Azərbaycan Respublikasının Mərkəzi Bankına, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə, maliyyə bazarlarında fəaliyyətinə nəzarət edilən subyektlərə (bank, sığortaçı, təkrar sığortaçı, qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslər, səhmdar investisiya fondu və investisiya fondunun idarəçisi, ödəniş xidmət təchizatçıları və s.) məxsus, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin informasiya infrastrukturuna, eləcə də müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) və Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən yaradılmış kompüter insidentlərinə qarşı mübarizə mərkəzlərinə və təhlükəsizlik əməliyyatları mərkəzlərinə şamil edilmir.";

1.6. 401-ci maddənin "Qeyd" hissəsinin 3-cü bəndində "244-1.1-ci" sözləri "244-1-ci" sözləri ilə əvəz edilsin;

1.7. 402-ci maddənin dispozisiyasına "yəni" sözündən sonra "qanunsuz olaraq" sözləri əlavə edilsin və həmin maddənin dispozisiyasında "müəssisə və digər hüquqi şəxsin yaradılmasına" sözləri "hüquqi şəxsin yaradılmasına, hüquqi şəxs yaratmadan fiziki şəxs kimi vergi uçotuna alınmasına, habelə qeyd edilən məqsəd və niyyətlə hüquqi şəxsin və ya vergi uçotuna alınmış fiziki şəxsin fəaliyyətinin faktiki idarə edilməsinə" sözləri ilə əvəz edilsin;

1.8. 453-cü maddənin dispozisiyasına "qaydaları" sözündən sonra ", həmçinin öz müəssisəsinin (fərdi sahibkarın) adı, mənsubiyyəti və iş rejimi" sözləri, "istehlakçıya" sözündən sonra "zəruri və düzgün" sözləri əlavə edilsin;

1.9. 483-cü maddə üzrə:

1.9.1. dispozisiyadan "az miqdarda" sözləri çıxarılsın;

1.9.2. sanksiya və "Qeyd" hissəsi aşağıdakı redaksiyada verilsin:

"vəzifəli şəxslər inzibati xətanın bilavasitə obyekti olmuş valyuta vəsaiti məbləğinin on faizindən iyirmi faizinədək məbləğdə, hüquqi şəxslər inzibati xətanın bilavasitə obyekti olmuş valyuta vəsaiti məbləğinin iyirmi faizindən otuz faizinədək məbləğdə cərimə edilir.

**Qeyd:** Bu Məcəllənin 483-cü maddəsində nəzərdə tutulmuş inzibati xəta haqqında iş üzrə icraat zamanı barəsində icraat aparılan şəxs inzibati xəta haqqında iş üzrə məhkəmə və ya digər səlahiyyətli orqan (vəzifəli şəxs) qərar qəbul edənədək xarici iqtisadi fəaliyyətin həyata keçirilməsi nəticəsində əldə edilmiş və Azərbaycan Respublikasının müvəkkil olunmuş banklarının hesablarına məcburi qaydada köçürülməli olan xarici valyuta vəsaitlərini xaricdən qaytardıqda inzibati məsuliyyətdən azad edilir.";

1.10. 525-ci maddə üzrə:

1.10.1. mətni 525.1-ci maddə hesab edilsin;

1.10.2. aşağıdakı məzmunda 525.2-ci maddə əlavə edilsin:

"525.2. Bu Məcəllənin 525.1-ci maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə -

oyun ləvazimatı, habelə qumara qoyulmuş pul vəsaitləri və ya digər əmlak, qazanılmış uduş, mükafat və ya digər gəlir müsadirə edilməklə beş min manat məbləğində cərimə edilir və ya işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla on beş günədək müddətə inzibati həbs tətbiq olunur.";

1.11. 547.3-cü maddə üzrə:

1.11.1. birinci abzasa "tədbirləri" sözündən sonra ", həmçinin "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq büdcələrin layihələrinə və icrasına dair rəylərin hazırlanması" sözləri əlavə edilsin;

1.11.2. 547.3.3-cü maddədə "və bank" sözləri ", bank və sığorta" sözləri ilə əvəz edilsin;

1.11.3. 547.3.4-cü maddəyə "büdcəsinin" sözündən sonra ", Naxçıvan Muxtar Respublikası büdcəsinin" sözləri əlavə edilsin;

1.12. 558-ci maddə üzrə:

1.12.1. 558.1-ci maddənin sanksiyasında "şəxslər" sözü "şəxslərə" sözü ilə əvəz edilsin;

1.12.2. aşağıdakı məzmunda 558.1-1-ci maddə əlavə edilsin:

"558.1-1. Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün əsas olan sənədlərin və məlumatların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemində yerləşdirilməsi ilə bağlı müvafiq dövlət orqanlarına (qurumlarına) ünvanlanan sorğulara vaxtında cavab verilməməsinə görə -

vəzifəli şəxslərə xəbərdarlıq edilir və ya iki yüz əlli manatdan dörd yüz manatadək məbləğdə cərimə edilir.".

**Maddə 2. Bu Qanunun qüvvəyə minməsi**

2.1. Bu Qanunun 2.2-ci və 2.3-cü maddələrində nəzərdə tutulanlar istisna olmaqla, bu Qanun dərc edildiyi gündən qüvvəyə minir;

2.2. Bu Qanunun 1.2-ci, 1.3-cü və 1.5-ci maddələri 2027-ci il iyulun 1-dən qüvvəyə minir;

2.3. Bu Qanunun 1.9-cu maddəsi 2027-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2026-cı il*

# "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında", "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" 2017-ci il 15 dekabr tarixli 918-VQD nömrəli və "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 461-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi və Fərmanının ləğv edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında", "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" 2017-ci il 15 dekabr tarixli 918-VQD nömrəli və "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 461-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 41-ci maddəsinin 3-cü hissəsində hər iki halda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 41-ci maddəsinin 3-cü hissəsində birinci halda "orqan (qurum)" dedikdə Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 41-ci maddəsinin 3-cü hissəsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin "Daşınmaz Əmlakın Elektron Reyestri və Kadastrı" informasiya sistemi nəzərdə tutulur;

1.4. "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin üçüncü hissəsinin birinci abzasında hər iki halda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.5. həmin Qanunun 8-ci maddəsinin üçüncü hissəsinin birinci abzasında ikinci halda "orqan (qurum)" dedikdə Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.6. həmin Qanunun 8-ci maddəsinin üçüncü hissəsinin birinci abzasında "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin "Daşınmaz Əmlakın Elektron Reyestri və Kadastrı" informasiya sistemi nəzərdə tutulur;

1.7. "Daşınmaz əmlakın dövlət kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci (hər iki halda), 5.3-cü, 6.2-ci, 7.1.4-cü, 7.3-cü maddələrində, 7-1.2-ci maddəsinin ikinci cümləsində, 9.2-ci maddəsində, 14-cü və 15-ci maddələrinin ikinci hissələrində, 19-cu maddəsinin birinci-üçüncü hissələrində, 20-ci maddəsinin birinci hissəsində, 21-ci maddəsinin birinci və ikinci hissələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.8. həmin Qanunun 5.3-cü, 6.2-ci maddələrində,7-1.2-ci maddəsinin ikinci cümləsində,9.2-ci maddəsində və 21-ci maddəsinin ikinci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.9. həmin Qanunun 14-cü maddəsinin ikinci hissəsində və 19-cu maddəsinin üçüncü hissəsində"orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.10. həmin Qanunun 20-ci və 21-ci maddələrinin birinci hissələrində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti və Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi fəaliyyət istiqamətlərinə uyğun olaraq həyata keçirirlər;

1.11. həmin Qanunun 5.1-ci (birinci halda), 7.1.4-cü, 7.3-cü maddələrində, 15-ci maddəsinin ikinci hissəsində, 19-cu maddəsinin birinci və ikinci hissələrində"orqan (qurum)" dedikdə Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.12. həmin Qanunun 5.1-ci maddəsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin "Daşınmaz Əmlakın Elektron Reyestri və Kadastrı" informasiya sistemi nəzərdə tutulur;

1.13. "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun1.0.2-1-ci və 13.13-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.14. həmin Qanunun 13.13-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.15.həmin Qanunun 5.1-ci maddəsinin üçüncü cümləsində, 5.4-cü maddəsinin birinci cümləsində (hər iki halda), 11.1-ci maddəsinin ikinci və üçüncü cümlələrində, 13.10-cu maddəsində, 16.1-ci maddəsinin birinci hissəsinin ikinci cümləsində, ikinci hissəsinin birinci və ikinci cümlələrində, üçüncü hissəsində və 18.1-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş qeydiyyat orqanının səlahiyyətlərini Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi həyata keçirir;

1.16. həmin Qanunun 1.0.2-1-ci maddəsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin "Daşınmaz Əmlakın Elektron Reyestri və Kadastrı" informasiya sistemi nəzərdə tutulur;

1.17. "Daşınmaz Əmlakın Elektron Reyestri və Kadastrı" informasiya sistemi fəaliyyətə başlayanadək bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilən "Daşınmaz əmlakın dövlət kadastrının aparılması Qaydaları"nın 4-cü hissəsində və bu Fərmanın 3-cü hissəsi ilə təsdiq edilən "Daşınmaz əmlakın dövlət reyestrinin aparılması qaydaları, o cümlədən reyestrdə saxlanılan məlumatların tərkibi"nin 9-cu hissəsində nəzərdə tutulmuş ərizələr "ASAN xidmət" mərkəzlərində, həmin mərkəzlərin olmadığı inzibati ərazi vahidlərində isə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində "Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri" publik hüquqi şəxsinin ərazi idarələrində qəbul edilir.

2. "Daşınmaz əmlakın dövlət kadastrının aparılması Qaydaları" təsdiq edilsin (əlavə olunur).

3. "Daşınmaz əmlakın dövlət reyestrinin aparılması qaydaları, o cümlədən reyestrdə saxlanılan məlumatların tərkibi" təsdiq edilsin (əlavə olunur).

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. "Daşınmaz əmlakın dövlət kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" Azərbaycan Respublikası Qanununun 9.2-ci maddəsinə uyğun olaraq, daşınmaz əmlakın dövlət kadastr sənədlərinin məzmununa dair təkliflərini hazırlayıb altı ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında", "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" 2017-ci il 15 dekabr tarixli 918-VQD nömrəli və "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 461-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

5. "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 12 mart tarixli 113 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 165 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

5.1. adında və preambulada "Dövlət torpaq" sözləri "Daşınmaz əmlakın dövlət" sözləri ilə əvəz edilsin;

5.2. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Müəyyən edilsin ki:

2.1. "Daşınmaz əmlakın dövlət kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci (hər iki halda), 5.3-cü, 6.2-ci, 7.1.4-cü, 7.3-cü maddələrində, 7-1.2-ci maddəsinin ikinci cümləsində, 9.2-ci maddəsində, 14-cü və 15-ci maddələrinin ikinci hissələrində, 19-cu maddəsinin birinci - üçüncü hissələrində, 20-ci maddəsinin birinci hissəsində, 21-ci maddəsinin birinci və ikinci hissələrində, 22-ci maddəsinin ikinci hissəsində (hər iki halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 5.3-cü, 6.2-ci maddələrində, 7-1.2-ci maddəsinin ikinci cümləsində, 9.2-ci maddəsində və 21-ci maddəsinin ikinci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

2.3. həmin Qanunun 14-cü maddəsinin ikinci hissəsində və 19-cu maddəsinin üçüncü hissəsində"orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

2.4. həmin Qanunun 20-ci və 21-ci maddələrinin birinci hissələrində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti və Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi fəaliyyət istiqamətlərinə uyğun olaraq həyata keçirirlər;

2.5. həmin Qanunun 5.1-ci (birinci halda), 7.1.4-cü, 7.3-cü maddələrində, 15-ci maddəsinin ikinci hissəsində, 19-cu maddəsinin birinci və ikinci hissələrində və 22-ci maddəsinin ikinci hissəsində (birinci halda) "orqan (qurum)" dedikdə Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

2.6. həmin Qanunun 22-ci maddəsinin ikinci hissəsində ikinci halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası nəzərdə tutulur;

2.7. həmin Qanunun 5.1-ci maddəsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin "Daşınmaz Əmlakın Elektron Reyestri və Kadastrı" informasiya sistemi nəzərdə tutulur.".

6. "Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli 176 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 486 (Cild I); 2024, № 7, maddə 823; 2025, № 8, maddə 750; 2026, № 4, maddə 304; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 17 avqust tarixli 771 nömrəli Fərmanı) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

6.1. 2.1-ci bəndə "və 5-ci hissəsində," sözlərindən sonra "41-ci maddəsinin 3-cü hissəsində (hər iki halda)," sözləri əlavə edilsin;

6.2. aşağıdakı məzmunda 2.5-3-cü bənd əlavə edilsin:

"2.5-3. həmin Məcəllənin 41-ci maddəsinin 3-cü hissəsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin "Daşınmaz Əmlakın Elektron Reyestri və Kadastrı" informasiya sistemi nəzərdə tutulur;";

6.3.2.10-cu bəndə "Məcəllənin" sözündən sonra "41-ci maddəsinin 3-cü hissəsində (birinci halda) və" sözləri əlavə edilsin.

7. "Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 609 (Cild I); 2024, № 7, maddə 790; 2025, № 6, maddə 542, № 8, maddə 746, № 11, maddə 1035; 2026, № 1, maddə 24; № 6, maddə 516; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 17 avqust tarixli 771 nömrəli Fərmanı) 3.9-cu bəndindən "(hər iki halda)" sözləri çıxarılsın.

8. "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 avqust tarixli 113 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 621 (Cild I) 4.2-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

8.1. 4.2.1-ci yarımbənddən ", qurğular" sözü çıxarılsın və həmin yarımbənddə "12.1-ci və 23.2-ci maddələrində" sözləri "23.2-ci maddəsində" sözləri ilə, "5.2-ci, 5.3-cü, 5.4-cü, 9.2-ci, 9.5-ci, 10.2-ci, 12.1-ci, 14.1-ci, 14.4-cü, 16.1-ci, 18.2-ci, 20.3-cü, 22.2-ci və 23.2-ci maddələrində" sözləri "5.1-ci maddəsinin üçüncü cümləsində, 5.3-cü maddəsində, 5.4-cü maddəsinin birinci cümləsində (hər iki halda), 9.2-ci maddəsinin birinci və üçüncü cümlələrində, 9.2-1-ci maddəsinin birinci cümləsində, 9.5-ci, 10.2-ci maddələrində, 11.1-ci maddəsinin ikinci və üçüncü cümlələrində, 12.1-ci maddəsinin birinci və üçüncü cümlələrində, 13.10-cu, 13.11-1-ci, 14.1-ci, 14.4-cü maddələrində, 16.1-ci maddəsinin birinci hissəsinin ikinci cümləsində, ikinci hissəsinin birinci və ikinci cümlələrində, üçüncü hissəsində, 18.1-ci maddəsinin ikinci cümləsində, 18.2-ci, 20.3-cü və 22.2-ci maddələrinin birinci cümlələrində, 23.1-ci maddəsində" sözləri ilə əvəz edilsin;

8.2. 4.2.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"4.2.3. 1.0.2-1-ci maddəsində, 4.3-cü maddəsinin birinci cümləsində (ikinci halda), 5.6-cı maddəsinin ikinci cümləsində, 6.4-cü maddəsində, 7.2-ci maddəsində, 8.0.10-1-ci maddəsində, 9.3-cü maddəsinin ikinci cümləsində, 10.1-ci maddəsinin üçüncü cümləsində, 12.2-ci, 13.13-cü maddələrində, 14.2-ci və 14.3-cü maddələrinin dördüncü cümlələrində, 15.2-ci maddəsinin ikinci cümləsində, 16.1-1-ci maddəsində, 18.2-ci maddəsinin ikinci cümləsində, 19.1-ci maddəsinin dördüncü cümləsində və 20.6-cı maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

8.3. 4.2.3-1-ci yarımbənddə "8.0.10-1-ci maddəsində" sözləri "8.0.10-1-ci və 13.13-cü maddələrində" sözləri ilə əvəz edilsin;

8.4. 4.2.4-cü və 4.2.5-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"4.2.4.5.1-1-ci və 5.4-cü maddələrinin ikinci cümlələrində və 5.7-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

4.2.5. 8.0.1-ci, 15.1.4-cü maddələrində nəzərdə tutulmuş icra hakimiyyəti orqanlarının və 19.1-ci maddəsinin üçüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının müvafiq mərkəzi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;";

8.5. 4.2.8-ci yarımbənddən "maddəsində (hər iki halda)" sözləri çıxarılsın;

8.6.4.2.9-cu yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 4.2.10-cu yarımbənd əlavə edilsin:

"4.2.10. 1.0.2-1-ci maddəsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin "Daşınmaz Əmlakın Elektron Reyestri və Kadastrı" informasiya sistemi nəzərdə tutulur.".

9. "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 2 avqust tarixli 439 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 665 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

9.1.2.1-ci bənd 2.1-1-ci bənd hesab olunsun və aşağıdakı məzmunda 2.1-ci bənd əlavə edilsin:

"2.1. "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin üçüncü hissəsinin birinci abzasında (hər iki halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

9.2. 2.1-1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.1-1. həmin Qanunun 4-cü maddəsində və 9-cu maddəsinin birinci hissəsində, ikinci hissəsinin birinci cümləsində və üçüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi həyata keçirir;";

9.3. aşağıdakı məzmunda 2.1-2-ci və 2.1-3-cü bəndlər əlavə edilsin:

"2.1-2. həmin Qanunun 8-ci maddəsinin üçüncü hissəsinin birinci abzasında ikinci halda "orqan (qurum)" dedikdə Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

2.1-3.həmin Qanunun 8-ci maddəsinin üçüncü hissəsinin birinci abzasında "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin "Daşınmaz Əmlakın Elektron Reyestri və Kadastrı" informasiya sistemi nəzərdə tutulur;".

10. "Azərbaycan Respublikasında daşınmaz əmlakın vahid dövlət kadastrının tərtib edilməsi və aparılması Qaydaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 27 iyul tarixli 308 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 627 (Cild I)aşağıdakı dəyişikliklər edilsin:

10.1. 1-ci hissə ləğv edilsin;

10.2. 2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.1. bütün ölkə ərazisində mülkiyyət növündən asılı olmayaraq daşınmaz əmlaka dair kadastr məlumatlarının çöl ölçmə işləri (texniki inventarlaşma) aparılmaqla toplanılmasını və daşınmaz əmlakın dövlət kadastrına daxil edilməsini təmin etsin və görülmüş işlər barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə hesabat versin;";

10.3. 2.2-ci bənd ləğv edilsin;

10.4. 3.1-ci bənddə "əmlakın texniki inventarlaşdırılması işlərinin" sözləri"əmlakla bağlı çöl ölçmə işlərinin (texniki inventarlaşmanın)" sözləri ilə əvəz edilsin;

10.5. 3.2-ci bənd ləğv edilsin.

11. "Daşınmaz əmlakın dövlət reyestrinin aparılması Qaydaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 14 oktyabr tarixli 135 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 10, maddə 791 (Cild I) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 sentyabr 2026-cı il*

# "Şəhərlərin bərpası üçün humanitar minatəmizləmə: Təhlükəsiz yaşayış məskənləri üçün mükəmməllik standartlarının müəyyənləşdirilməsi" mövzusunda 4-cü Beynəlxalq Minatəmizləmə Konfransının iştirakçılarına

Hörmətli Konfrans iştirakçıları!

Sizi "Şəhərlərin bərpası üçün humanitar minatəmizləmə: Təhlükəsiz yaşayış məskənləri üçün mükəmməllik standartlarının müəyyənləşdirilməsi" mövzusunda 4-cü Beynəlxalq Minatəmizləmə Konfransının açılışı münasibətilə salamlayıram.

Artıq bir neçə ildir ki, Azərbaycanın Birləşmiş Millətlər Təşkilatı ilə sıx əməkdaşlıq çərçivəsində evsahibliyi etdiyi Beynəlxalq Minatəmizləmə konfransları dövrümüzün ən ciddi humanitar, təhlükəsizlik və inkişafla bağlı çağırışların həlli üçün mühüm platforma rolunu oynayır.

Təəssüflər olsun ki, minalar və partlamamış hərbi sursatlar dünyanın bir çox ölkələrində insan həyatını və təhlükəsizliyini təhdid etməyə davam edir. Münaqişələr bitdikdən uzun müddət sonra partlayıcı sursatlar insanların həyatlarını itirməsinə, mülki şəxslərin yaralanmasına, infrastrukturun zədələnməsinə və yenidənqurma layihələrinin ləngiməsinə səbəb olmaqda davam edir. Bu baxımdan, humanitar minatəmizləmə təhlükəsiz yaşayış məskənləri üçün vacib bir öhdəlikdir.

Münaqişədən sonra ərazilərdə şəhərlərin bərpası binaların, yolların və ictimai infrastrukturun yenidən qurulması ilə yanaşı, təhlükəsizliyin və inamın bərqərar olmasını tələb edir. Torpaqlar minalardan və müharibənin partlayıcı qalıqlarından təmizlənməyincə heç bir şəhər, kənd və ya qəsəbə tam şəkildə yenidən qurula, heç bir məktəb və ya xəstəxana təhlükəsiz fəaliyyət göstərə, heç bir ailə öz yurduna ləyaqətlə geri qayıda və heç bir iqtisadi fəaliyyət davamlı inkişaf edə bilməz. Buna görə də humanitar minatəmizləmə şəhərlərin bərpasının və təhlükəsiz yaşayış məskənlərinin yaradılmasının təməlində dayanır.

Azərbaycan bu çağırışın ən ağır təzahürü ilə üzləşib. Ermənistan tərəfindən ərazilərinin təxminən 30 il işğalı nəticəsində Azərbaycan dünyanın mina ilə ən çox çirklənmiş ölkələrindən birinə çevrilib. İlkin hesablamalara görə, Azərbaycan ərazisinin 13 faizindən çoxu mina və partlamamış sursatların təsirinə məruz qalıb. Qarabağın və Şərqi Zəngəzurun azad edilmiş əraziləri mina və partlamamış sursatlarla artıq dərəcədə çirklənmiş vəziyyətdə qalır ki, bu da yenidənqurma, iqtisadi fəaliyyət, təhlükəsiz hərəkət və keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıtması üçün ciddi maneələr yaradır.

Vətən müharibəsinin bitdiyi 2020-ci ildən indiyədək mülki şəxslər, hərbçilər, minaaxtaranlar, jurnalistlər və yenidənqurma işlərində iştirak edən şəxslər də daxil olmaqla, 437 Azərbaycan vətəndaşı mina və partlayıcı sursat hadisələrinin qurbanı olub, nəticədə 73 nəfər həyatını itirib, 364 nəfər ağır yaralanıb. Ümumilikdə, Ermənistanın Azərbaycana qarşı təcavüzü başlayandan bəri 3 min 500-dən çox vətəndaşımız minalardan zərər çəkib. Onların arasında uşaqlar, qadınlar və digər mülki şəxslər də var ki, bu gizli təhlükə onların həyatına faciəvi təsir edib.

Ermənistan tərəfindən təqdim edilən minalanmış sahələrin xəritələrinin əsasən qeyri-dəqiq və natamam olması bu çağırışın miqyasını daha da artırır. Minalar və mina tələləri yalnız keçmiş hərbi mövqelərdə deyil, həm də yollar boyunca, yaşayış sahələrinin yaxınlığında, qəbiristanlıqlarda, kənd təsərrüfatı torpaqlarında, meşələrdə, çay sahillərində və digər mülki ərazilərdə aşkar edilib. Buna baxmayaraq, Azərbaycan bu çağırışların öhdəsindən gəlməyə və vətəndaşlarının öz doğma yurdlarına təhlükəsiz, ləyaqətli və davamlı qayıdışını təmin etməyə qətiyyətlə sadiqdir.

Humanitar minatəmizləmə Azərbaycanın azad edilmiş ərazilərində yenidənqurma və bərpa proqramının ayrılmaz və əhəmiyyətli hissəsidir. Şəhərlərin və kəndlərin yenidən qurulması, infrastrukturun bərpası, nəqliyyat və enerji şəbəkələrinin inkişafı, kənd təsərrüfatının dirçəldilməsi və yeni yaşayış məntəqələrinin yaradılması minatəmizləmə fəaliyyətləri ilə sıx və dəqiqliklə əlaqələndirilərək həyata keçirilir.

Azad edilmiş ərazilərdə genişmiqyaslı minatəmizləmə əməliyyatları yerinə yetirilir. Bu günədək 298 min hektardan çox ərazi təmizlənib, 260 min 147 mina və partlamamış hərbi sursat aşkar edilərək zərərsizləşdirilib. Azərbaycan minatəmizləmənin sürətini, təhlükəsizliyini və səmərəliliyini artırmaq üçün qabaqcıl texnologiyalar, innovativ yanaşmaları və müasir idarəetmə sistemləri tətbiq edir.

Azərbaycanda minatəmizləmə fəaliyyəti daha geniş milli prioritetlərlə birbaşa bağlıdır. Bu fəaliyyət yenidənqurmanı, təhlükəsiz qayıdışı, kənd təsərrüfatının dirçəldilməsini, infrastrukturun inkişafını, ətraf mühitin qorunmasını, sosial reinteqrasiyanı və iqtisadi bərpanı dəstəkləyir. Bu, həmçinin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in, xüsusilə də azad edilmiş ərazilərə Böyük Qayıdışla bağlı prioritetin həyata keçirilməsinə töhfə verir.

İşğal zamanı dağıdılmış şəhərlər və kəndlər Böyük Qayıdış Proqramı çərçivəsində yenidən qurulur, müasir infrastruktur, yollar, tunellər, hava limanları, enerji obyektləri, məktəblər, xəstəxanalar, mədəniyyət abidələri və yaşayış məntəqələri bərpa olunur. Bu siyasətin praktik nəticələri artıq göz qabağındadır. Bu günədək təxminən 40 min keçmiş məcburi köçkün azad edilmiş ərazilərdə evlərinə qayıdıb. Ümumilikdə, hazırda Qarabağda və Şərqi Zəngəzurda yaşayan insanların sayı 90 mini keçib.

Azərbaycan minatəmizləmə, şəhərsalma, infrastrukturun inkişafı, ətraf mühitin bərpası, rəqəmsal həllər, sosial xidmətlər, dövlət idarəçiliyi və keçmiş məcburi köçkünlərin geri qayıtmasını vahid əlaqələndirilmiş çərçivədə birləşdirən münaqişədən sonrakı yenidənqurma, bərpa və idarəetmənin qabaqcıl modellərini işləyib hazırlayır və tətbiq edir. İşğal zamanı dağıdılmış və əhalisi boşalmış ərazilər qısa müddət ərzində yaşayış, iş, təhsil və imkanlar təqdim edən yerlərə çevrilir.

Bir çox çağırışlar qalsa da, indiyədək əldə edilən nəticələr Azərbaycanın inteqrasiya olunmuş yanaşmasının səmərəliyini nümayiş etdirir. Biz bu təcrübəni münaqişənin bənzər fəsadları ilə üzləşən ölkələr və regionlarla bölüşməyə hazırıq. Çünki inanırıq ki, minatəmizləmə, yenidənqurma və geri qayıdış üzrə Azərbaycan modeli dünyada bir çox tərəfdaşlar üçün praktik maraq kəsb edə bilər.

Azərbaycan həmçinin beynəlxalq səviyyədə minatəmizləmə fəaliyyətinin təşviqi istiqamətində mühüm təşəbbüslər irəli sürüb. Təhlükəsiz və dayanıqlı məskunlaşmanın və minatəmizləmənin əhəmiyyəti Azərbaycanın Bakıda uğurla evsahibliyi etdiyi Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası zamanı qlobal müzakirələrin mərkəzində olub.

Bununla yanaşı, ölkəmiz humanitar minatəmizləməni 18-ci Milli Dayanıqlı İnkişaf Məqsədi elan edib və bu məsələnin qlobal prioritet kimi tanınması üçün fəaliyyətini davam edir.

Mina problemi daha güclü beynəlxalq həmrəylik tələb edir. Azərbaycan həm humanitar minatəmizləmənin, həm də azad edilmiş ərazilərdə ümumi yenidənqurma və bərpa prosesinin əsas yükünü öz milli resursları hesabına həyata keçirir. Ancaq çirklənmənin miqyası, yenidənqurmanın təxirəsalınmazlığı və təhlükəsiz qayıdışın humanitar əhəmiyyəti beynəlxalq ictimaiyyətdən daha geniş və daha praktik dəstək tələb edir. Proqnozlaşdırılabilən maliyyələşmə, müasir avadanlıq, texniki bilik, təlim, texnologiyaların transferi və uzunmüddətli tərəfdaşlıqlar minatəmizləməni sürətləndirmək və minaların yaratdığı çətinliklərin azaldılması baxımından vacibdir.

Əminəm ki, bu Konfrans açıq dialoq, təcrübə mübadiləsi və praktiki əməkdaşlığın inkişafı üçün dəyərli platforma rolunu oynayacaq. Bakıda aparılan müzakirələr beynəlxalq minatəmizləmə standartlarının gücləndirilməsinə, innovasiyanın təşviqinə, təhlükəsiz şəhərlərin bərpasının dəstəklənməsi, təhlükəsiz, dayanıqlı və davamlı icmaların qurulması kimi ümumi məqsədimizə nail olunmasına töhfə verəcək.

Bütün iştirakçılara ən xoş arzularımı çatdırır və Konfransın işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

# Bakıda IV Beynəlxalq Minatəmizləmə Konfransı

**Sentyabrın 2-də Bakıda Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) və Birləşmiş Millətlər Təşkilatının (BMT) Azərbaycandakı nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Şəhərlərin bərpası üçün humanitar minatəmizləmə: Təhlükəsiz yaşayış məskənləri üçün mükəmməllik standartlarının müəyyənləşdirilməsi" mövzusunda IV Beynəlxalq Minatəmizləmə Konfransı işə başlayıb.**





AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin konfrans iştirakçılarına ünvanladığı müraciət Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev tərəfindən səsləndirilib.

Açılış nitqi ilə çıxış edən ANAMA-nın İdarə Heyətinin sədri Vüqar Süleymanov qeyd edib ki, Vətən müharibəsi başa çatandan sonra agentlik və humanitar minatəmizləmə fəaliyyətinə cəlb olunmuş digər qurumlar tərəfindən 298 min hektardan çox ərazi təmizlənib, 260 mindən çox mina və digər partlayıcı sursat zərərsizləşdirilib.

O vurğulayıb ki, bu rəqəmlər yenidən istifadəyə verilən yolları, qurulan kəndləri, bərpa edilən elektrik xətlərini, istifadəyə qaytarılan kənd təsərrüfatı sahələrini və insanların doğma torpaqlarına qayıtması istiqamətində yaradılan imkanları ifadə edir: "2020-ci ilin noyabr ayından etibarən minatəmizləmə əməliyyatları işğaldan azad edilmiş ərazilərin yenidən qurulması və şəhərlərin bərpası prosesi ilə birbaşa əlaqələndirilib. Bu müddət ərzində yaşayış infrastrukturu üçün xüsusi olaraq 103 min hektardan çox ərazi təmizlənərək geri qayıdan sakinlər üçün yeni yaşayış məntəqələrinin, komplekslərinin, məktəblərin, xəstəxanaların, ictimai obyektlərin və zəruri xidmətlərin yaradılmasına imkan verib. Bundan əlavə, yolların, enerji infrastrukturunun, kənd təsərrüfatının və digər prioritet layihələrin həyata keçirilməsi üçün də əhəmiyyətli olan ərazilər təmizlənib".

BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisinin adından çıxış edən Nasar Hayat dünyada təxminən 57 ölkənin mina və müharibənin partlamamış sursat qalıqları ilə çirklənmiş vəziyyətdə olduğuna diqqət çəkib. Onun sözlərinə görə, bu, bütöv icmaların təhlükəsizliyinə, sağlamlığına, rifahına, yaşayış vasitələrinə və sülh perspektivlərinə təhlükə yaradır. Cəmiyyətin ən həssas üzvləri olan qadınlar və uşaqlar isə tez-tez bundan böyük zərər görürlər.

Nasar Hayat qeyd edib ki, Azərbaycan dünyanın minalarla ən çox çirklənmiş ölkələrindən biridir. Faciələrdən və mina partlayışlarından sağ çıxan insanlar isə mina təhlükəsinin aradan qaldırılması istiqamətində fəaliyyətin nə üçün təxirəsalınmaz olduğunu bir daha xatırladırlar. "Çağırışın miqyasına baxmayaraq, Azərbaycan bu istiqamətdə diqqətəlayiq tərəqqi əldə edib. 2026-2030-cu illər üçün BMT və Azərbaycan Hökuməti arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi əsasında biz ANAMA-nı dəstəkləməyə sadiqik. Hələ çox iş görülməlidir, daha böyük tərəfdaşlıq və beynəlxalq həmrəylik lazımdır", - deyə Nasar Hayat bildirib.

Bildirək ki, konfrans çərçivəsində ANAMA ilə ASEAN Regional Minatəmizləmə Mərkəzi (ARMAC) arasında Anlaşma Memorandumu imzalanıb. Humanitar minatəmizləmə sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu ANAMA-nın İdarə Heyətinin sədri Vüqar Süleymanov və ARMAC-ın icraçı direktoru Rotna But tərəfindən imzalanıb.

Sənəd iki qurum arasında humanitar minatəmizləmə sahəsində əməkdaşlığın inkişaf etdirilməsi, təcrübə və bilik mübadiləsinin genişləndirilməsi, qabaqcıl yanaşmaların paylaşılması və qarşılıqlı maraq doğuran istiqamətlər üzrə birgə fəaliyyətin təşviqini nəzərdə tutur.

Onu da qeyd edək ki, panel müzakirələrlə davam edən konfrans Azərbaycanın mina probleminin dünyaya çatdırılması, humanitar minatəmizləmə sahəsində beynəlxalq tərəfdaşlığın gücləndirilməsi, mina təhlükəsinin aradan qaldırılmasının təhlükəsiz və dayanıqlı bərpa prosesində rolu, innovativ yanaşma və qabaqcıl təcrübə mübadiləsi, həmçinin mina təhlükəsinin aradan qaldırılması istiqamətində beynəlxalq səylərin səfərbər edilməsi yolları ətrafında müzakirələrin aparılması məqsədi daşıyır.

Bakının evsahibliyi etdiyi IV Beynəlxalq Minatəmizləmə Konfransında ümumilikdə 60 ölkədən 400-dən çox nümayəndə iştirak edir. İştirakçılar arasında bir sıra ölkələrin yüksəkvəzifəli şəxsləri, nüfuzlu beynəlxalq təşkilatların, o cümlədən BMT-nin nümayəndələri və müxtəlif ölkələrin minatəmizləmə mərkəzlərinin rəsmiləri, habelə Azərbaycanda akkreditə olunmuş diplomatik nümayəndəliklərin vəzifəli şəxsləri təmsil olunurlar.

Konfrans sentyabrın 3-də başa çatacaq.

# Qarabağ Dirçəliş Fondunun sifarişi ilə çəkilmiş "Ölümcül Miras" sənədli filminin təqdimatı olub

**ANAMA və BMT-nin birgə təşkilatçılığı ilə "Şəhərlərin bərpası üçün humanitar minatəmizləmə: Təhlükəsiz yaşayış məskənləri üçün mükəmməllik standartlarının müəyyənləşdirilməsi" mövzusunda Bakıda keçirilən beynəlxalq konfrans çərçivəsində Qarabağ Dirçəliş Fondunun (QDF) sifarişi ilə "Beach House Pictures" şirkəti tərəfindən çəkilən "Ölümcül Miras" ("Deadly Legacy") sənədli filminin qapalı təqdimat mərasimi olub.**




AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev, Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev, ANAMA-nın İdarə Heyətinin sədri Vüqar Süleymanov, Milli Məclisin deputatları, beynəlxalq təşkilatların nümayəndələri, QDF-in donor və tərəfdaşları, ictimaiyyət və media nümayəndələri iştirak ediblər.

Film Azərbaycan Prezidenti İlham Əliyevin dünyada mina terroruna son qoyulması və humanitar minatəmizləmə təşəbbüsünün BMT-nin 18-ci Dayanıqlı İnkişaf Məqsədinə daxil edilməsi üzrə beynəlxalq səylərini, işğaldan azad edilmiş ərazilərdəki mina probleminin miqyasını və təhlükənin fəsadlarını faktlarla işıqlandırır. Çəkilişləri Azərbaycanla yanaşı, Bosniya və Herseqovina, Kolumbiya və Laosda aparılan ekran əsəri yerli və beynəlxalq ekspertlərin, rəsmi şəxslərin müsahibələri, eləcə də mina terrorundan zərər çəkmiş şəxslərin hekayələri əsasında hazırlanıb.

Tədbirin rəsmi hissəsində çıxış edən Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev, "Saksesful Strateciz" Qapalı Səhmdar Cəmiyyətinin icraçı direktoru, filmin baş prodüseri Faiq Bağırov və rejissoru Alison Jayne Vilson film və onun əsas mövzusu olan mina problemi ilə bağlı fikirlərini bölüşüblər.

Bildirilib ki, "Ölümcül Miras" filmi mina probleminin yalnız texniki və humanitar aspektlərini deyil, həm də onun qlobal miqyasda yaratdığı uzunmüddətli fəsadları diqqətə çatdırır. Filmdə münaqişələr başa çatdıqdan onilliklər sonra belə, minalarla çirklənmiş ərazilərin təhlükəsizliyinin təmin edilməsinin ölkələr və icmalar qarşısında mühüm çağırış olaraq qaldığı vurğulanır. Qeyd olunub ki, sənədli film vasitəsilə mina təhlükəsinin qurbanlarının həyat hekayələrinin beynəlxalq ictimaiyyətə çatdırılması, problemin miqyası barədə məlumatlılığın artırılması və humanitar minatəmizləmənin qlobal gündəmdə daha geniş yer almasına töhfə verilməsi qarşıya məqsəd qoyulub.




Çıxışlarda həmçinin Azərbaycanın mina probleminin aradan qaldırılması istiqamətində həyata keçirdiyi genişmiqyaslı fəaliyyət, beynəlxalq əməkdaşlığın əhəmiyyəti və bu sahədə qabaqcıl təcrübələrin bölüşdürülməsinin vacibliyi diqqətə çatdırılıb.

Təqdimat çərçivəsində qonaqlara Qarabağ Dirçəliş Fondunun sifarişi ilə ərsəyə gətirilmiş "Qarabağın dirçəlişi: Azərbaycan intibahının hekayəsi" kitabı hədiyyə olunub.

Xatırladaq ki, bir müddət əvvəl çap olunmuş bu kitab Azərbaycan həqiqətləri ilə yaxından tanış olan tanınmış britaniyalı yazıçı Qrem Vilson tərəfindən qələmə alınıb. Münaqişə dövründən bugünkü bərpa prosesinə qədər olan dövrü əhatə edən 500 səhifəlik bu nəşr analitik yanaşması, zəngin fotoşəkilləri və interaktiv rəqəmsal materialları ilə Qarabağın dirçəliş hekayəsini canlandıran dəyərli bir salnamədir.

# "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 462-VIIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 462-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 37-1.1-ci, 287.0.2-ci, 287.0.5-ci, 371-2.1.1-371-2.1.3-cü maddələrində, 371-2-ci maddəsinin "Qeyd" hissəsində və 558.1-1-ci maddəsinin dispozisiyasında nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 37-1.1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 287.0.2-ci və 287.0.5-ci maddələrində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin"Elektron kənd təsərrüfatı" informasiya sisteminin "toxum" altsistemi nəzərdə tutulur;

1.4. həmin Məcəllənin 371-2.1.1-371-2.1.3-cü maddələrində "orqan (qurum)" dedikdə Milli Kibertəhlükəsizlik Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Məcəllənin 371-2-ci maddəsinin "Qeyd" hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti nəzərdə tutulur;

1.6. həmin Məcəllənin 558.1-1-ci maddəsinin dispozisiyasında"orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin "Daşınmaz Əmlakın Elektron Reyestri və Kadastrı" informasiya sistemi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 462-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157, № 7, maddələr 806, 812, 814, 815, № 8, maddələr 937, 948, № 12 (I kitab), maddə 1294, (II kitab), maddələr 1359, 1378, 1384; 2025, № 2, maddə 127, № 3, maddə 231, № 4 (I kitab), maddələr 325, 338, № 5, maddə 463, № 6, maddələr 541, 561, № 7, maddə 649, № 8, maddələr 746, 754, № 9, maddə 820, № 11, maddə 1018; 2026, № 1, maddələr 36, 41, № 2, maddələr 117, 123, № 3, maddələr 221, 223, 226, № 4, maddə 306, № 5 (I kitab), maddə 406; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 7 iyul tarixli 715 nömrəli, 15 iyul tarixli 722 nömrəli və5 avqust tarixli 752 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4-cü hissə üzrə:

3.1.1. 4.1-ci bəndə "Məcəlləsinin" sözündən sonra "37-1.1," rəqəmləri, "275.2," rəqəmlərindən sonra "287.0.2, 287.0.5," rəqəmləri, "363.2," rəqəmlərindən sonra "371-2.1.1-371-2.1.3-cü maddələrində, 371-2-ci maddəsinin "Qeyd" hissəsində," sözləri və"mətnində," sözündən sonra "558.1-1," rəqəmləri əlavə edilsin;

3.1.2. 4.26-1-ci bənddə "maddəsinin dispozisiyasında" sözləri "maddəsində" sözü ilə əvəz edilsin;

3.1.3. 4.26-2-ci bənd 4.26-3-cü bənd hesab olunsun və aşağıdakı məzmunda 4.26-2-ci,4.29-2-ci, 4.29-3-cü və 4.45-1-cibəndlər əlavə edilsin:

"4.26-2. həmin Məcəllənin 287.0.2-ci və 287.0.5-ci maddələrində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin "Elektron kənd təsərrüfatı" informasiya sisteminin "toxum" altsistemi nəzərdə tutulur;";

"4.29-2. həmin Məcəllənin 371-2.1.1-371-2.1.3-cü maddələrində "orqan (qurum)" dedikdə Milli Kibertəhlükəsizlik Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

4.29-3. həmin Məcəllənin 371-2-ci maddəsinin "Qeyd" hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti nəzərdə tutulur;";

"4.45-1. həmin Məcəllənin 558.1-1-ci maddəsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin "Daşınmaz Əmlakın Elektron Reyestri və Kadastrı" informasiya sistemi nəzərdə tutulur;";

3.1.4. 4.53-cü bənddə "97.1-ci maddəsində" sözləri "37-1.1-ci və 97.1-ci maddələrində" sözləri ilə əvəz edilsin;

3.2. aşağıdakı məzmunda 5.35-1-ci bənd əlavə edilsin:

"5.35-1. həmin Məcəllənin 371-2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Milli Kibertəhlükəsizlik Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi baxır;".

4.Bu Fərmanın 1.4-cü, 1.5-ci, 3.2-ci bəndləri və Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 371-2-ci maddəsinə münasibətdə1.1-ci bəndi, 3.1.1-ci, 3.1.3-cü yarımbəndləri 2027-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 sentyabr 2026-cı il*

---

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 2 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

# Daşınmaz əmlakın dövlət kadastrının aparılması Qaydaları

**1. Ümumi müddəalar**

1.1. Bu Qaydalar "Daşınmaz əmlakın dövlət kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 5.3-cü maddəsinə uyğun olaraq hazırlanmışdır və Azərbaycan Respublikasında daşınmaz əmlakın dövlət kadastrının (bundan sonra – dövlət kadastrı) aparılması qaydalarını müəyyən edir, bu sahədə yaranan münasibətləri tənzimləyir.

1.2. Daşınmaz əmlakın kadastr uçotuna alınması daşınmaz əmlakın kəmiyyət və keyfiyyət göstəricilərinin dövlət kadastrına daxil edilməsi ilə onun mövcudluğunun dövlət tərəfindən müəyyən edilməsidir.

1.3. Dövlət kadastrı Azərbaycan Respublikasının mülkiyyətidir.

1.4. Dövlət kadastrı Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti (bundan sonra – kadastrı aparan qurum) tərəfindən "Daşınmaz Əmlakın Elektron Reyestri və Kadastrı" informasiya sistemi (bundan sonra – DERKİS) vasitəsilə aparılır.

1.5. Daşınmaz əmlaka dair sahəvi kadastrlarda saxlanılan məlumatlar Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə dövlət kadastrına inteqrasiya edilir.

1.6. Dövlət kadastrı Qanunun 4-cü maddəsində təsbit edilmiş prinsiplər əsasında tərtib edilir və aparılır.

1.7. Bu Qaydalarda istifadə olunan anlayışlar Qanunda və digər normativ hüquqi aktlarda nəzərdə tutulan mənaları ifadə edir.

**2. Dövlət kadastrının aparılması**

2.1. Daşınmaz əmlakın kəmiyyət və keyfiyyət göstəriciləri üzrə məlumatlar dövlət kadastrında qrafik təsvirlər və mətn məlumatları şəklində saxlanılır.

2.2. Dövlət kadastrına daxil edilmiş və ayrıca ərizə nömrəsinə malik olan hər bir məlumat (qeyd) kadastrı aparan qurumun müvafiq vəzifəli şəxsi tərəfindən təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə DERKİS-də imzalanır.

2.3. Texniki pasportda qrafik və rəqəmsal formada kadastr obyektlərinin sərhədləri, uçota alınmış göstəriciləri və ərazinin infrastrukturu əks etdirilir.

**3. Daşınmaz əmlak obyektlərinin dövlət kadastr uçotuna alınması**

3.1. Dövlət kadastr uçotuna alınma aşağıdakı ardıcıllıqla həyata keçirilir:

3.1.1. Qanunun 5.2-ci maddəsində qeyd olunan hallarla bağlı ərizənin və ya hüquqi aktlarla müəyyən edilmiş tapşırıqların DERKİS vasitəsilə qeydiyyata alınması;

3.1.2. çöl ölçmə işlərinin (texniki inventarlaşma) aparılması;

3.1.3. çöl ölçmə işlərinin (texniki inventarlaşma) nəticələri ilə təqdim edilmiş sənədlərdə və dövlət kadastrında olan məlumatlar arasında uyğunsuzluq olub-olmamasının yoxlanılması;

3.1.4. uyğunsuzluq aşkar edilmədiyi təqdirdə məlumatların dövlət kadastrına daxil edilməsi.

**4. Dövlət kadastr uçotuna alınma barədə ərizənin qeydiyyata alınması**

4.1. Dövlət kadastr uçotuna alınma barədə ərizə aşağıdakı qaydada qeydiyyata alınır:

4.1.1. daşınmaz əmlakın dövlət reyestrində hüquqların dövlət qeydiyyatı məqsədilə hüquq sahibləri tərəfindən ərizə verildiyi hallarda dövlət kadastrında uçota alınma üçün ayrıca ərizə verilmir. Həmin ərizə əsasında hüquqların dövlət qeydiyyatı aparıldığı təqdirdə, dövlət kadastrında avtomatik olaraq real vaxt rejimində müvafiq dəyişiklik edilir;

4.1.2. Qanunun 5.2-ci maddəsində qeyd edilən halların yaranması, həmin halların dəyişməsi və aradan qalxması ilə bağlı hüquqi aktlarda müəyyən olunmuş tapşırıqlar, dövlət orqanlarının (qurumlarının) və ya bələdiyyə orqanlarının müraciəti DERKİS-in operatoru tərəfindən 3 (üç) iş günü müddətində DERKİS-ə daxil edilir və ona müvafiq ərizə nömrəsi verilir;

4.1.3. dövlət sifarişi əsasında görülmüş işlər nəticəsində müəyyən edilmiş hər bir dövlət kadastr obyektinin dövlət kadastrında uçota alınmasının təmin edilməsi məqsədilə hər bir obyekt üçün DERKİS-in operatoru tərəfindən DERKİS-də yeni ərizə nömrəsi yaradılır.

4.2. Ərizənin qəbul edildiyi barədə ərizəçiyə bu Qaydaların 1 nömrəli Əlavəsinə uyğun olaraq elektron bildiriş göndərilir.

**5. Çöl ölçmə işlərinin (texniki inventarlaşma) aparılması**

5.1. Çöl ölçmə işləri (texniki inventarlaşma) dövlət kadastr obyektinə yerində baxış keçirilməklə aparılır. Yerində baxış bu Qaydaların 4-cü hissəsində nəzərdə tutulmuş ərizənin qeydiyyata alındığı tarixdən başlayaraq 5 (beş) iş günü müddətində kadastrı aparan qurumun mühəndisləri tərəfindən həyata keçirilir.

5.2. Çöl ölçmə işləri (texniki inventarlaşma) Qanunun 7.1.1-ci maddəsində nəzərdə tutulmuş tapşırıqlar və ya 5.2.3-cü maddəsində nəzərdə tutulmuş dövlət sifarişi istisna olmaqla, digər hallarda ərizə ilə müraciət etmiş şəxsin və ya onun səlahiyyətli nümayəndəsinin iştirakı ilə aparılır. Ərizənin qəbul edildiyi barədə elektron bildirişdə çöl ölçmə işlərinin (texniki inventarlaşma) aparılacağı tarix qeyd edilir. Həmin tarixdə çöl ölçmə işlərinə (texniki inventarlaşma) ərizəçi tərəfindən şərait yaradılmadıqda, ərizəçinin və ya onun səlahiyyətli nümayəndəsinin dövlət kadastr obyektinə göstərilən tarixdə gəlməməsi, həmçinin ölçmə aparacaq mühəndislərin obyektə daxil olmasına imkan yaradılmaması hallarında akt tərtib edilir.

5.3. Ərizəçi nəzərdə tutulmuş tarixdə çöl ölçmə işlərinə (texniki inventarlaşma) şərait yaratmadığı təqdirdə, öz ərizəsindən imtina etmiş hesab olunur.

5.4. Çöl ölçmə işlərinin (texniki inventarlaşma) nəticəsi olaraq dövlət kadastrında bu Qaydaların 8-ci hissəsində nəzərdə tutulmuş məlumatlar toplanılır.

5.5. Çöl ölçmə işlərinin (texniki inventarlaşma) nəticəsini özündə əks etdirən müayinə aktının bir nüsxəsi ərizəçiyə təqdim edilir.

**6. Çöl ölçmə işlərinin (texniki inventarlaşma) nəticələri ilə təqdim edilmiş sənədlərdə və dövlət kadastrında olan məlumatlar arasında uyğunsuzluq olub-olmamasının yoxlanılması**

6.1. Bu Qaydaların 5.5-ci bəndində nəzərdə tutulan müayinə aktı ilə müəyyən edilmiş göstəricilərlə təqdim edilən sənədlərdə və dövlət kadastrında saxlanılan məlumatlar müqayisə olunaraq uyğunsuzluğun olub-olmaması yoxlanılır.

6.2. Aşkar edilmiş uyğunsuzluğun səbəbləri araşdırılaraq aşağıdakılardan birinə aid olduğu müəyyən edilir:

6.2.1. çöl ölçmə işlərində (texniki inventarlaşma) texniki xəta baş verməsi;

6.2.2. dövlət kadastrında saxlanılan məlumatlarda texniki səhvin olması;

6.2.3. təqdim edilmiş sənədlərdə texniki səhvə yol verilməsi;

6.2.4. uyğunsuzluğun özbaşına tikinti aparılması və ya torpaq sahələrinin zəbt edilməsi nəticəsində yaranması;

6.2.5. uyğunsuzluğun təbiət hadisələri və ya texnogen fəaliyyət nəticəsində yaranması.

6.3. Bu Qaydaların 6.2.1-ci və 6.2.2-ci yarımbəndlərində qeyd edilən uyğunsuzluqlar aşkar olunduğu təqdirdə, həmin uyğunsuzluqlar kadastrı aparan qurum tərəfindən 5 (beş) iş günü müddətində aradan qaldırılır və uçota alınma ilə bağlı ərizənin icrası davam etdirilir.

6.4. Bu Qaydaların 6.2.3-cü yarımbəndində qeyd edilən uyğunsuzluğun aradan qaldırılması məqsədilə müvafiq sənədi verən orqana (quruma) aşkar edilmiş texniki səhvin mahiyyəti göstərilməklə aradan qaldırılması ilə bağlı ərizənin icra müddəti ərzində forması bu Qaydaların 2 nömrəli Əlavəsi ilə müəyyən edilmiş bildiriş göndərilir və uçota alınma ilə bağlı ərizənin icrasından imtina edilir.

6.5. Bu Qaydaların 6.2.4-cü yarımbəndində qeyd olunan halda dövlət kadastr uçotu təqdim edilmiş sənədlər əsasında aparılır. Özbaşına tikintiyə və torpaq sahəsinin zəbt olunmasına dair dövlət kadastrında müvafiq qeydlər yazılır, aidiyyəti dövlət orqanlarına (qurumlarına) özbaşına tikinti və zəbt halının aradan qaldırılması ilə bağlı 5 (beş) iş günü müddətində yazılı məlumat verilir.

6.6. Bu Qaydaların 6.2.5-ci yarımbəndində qeyd edilən uyğunsuzluğun mahiyyəti nəzərə alınmaqla, yeni yaranmış vəziyyətə uyğun olaraq dövlət kadastrında dəyişiklik aparılır.

**7. Dövlət kadastr uçotuna alınmadan imtina edilməsi**

7.1. Qanunun 7-1-ci maddəsində qeyd olunan hallarda dövlət kadastr uçotuna alınmadan imtina edilir.

7.2. Dövlət kadastr uçotuna alınmadan imtina edilməsi barədə bildiriş bu Qaydaların 3 nömrəli Əlavəsinə uyğun formada tərtib edilir.

**8. Uyğunsuzluq aşkar edilmədiyi təqdirdə, məlumatların dövlət kadastrına daxil edilməsi**

8.1. Çöl ölçmə işlərinin (texniki inventarlaşma) nəticəsi ilə təqdim edilmiş sənədlərdə və dövlət kadastrında olan məlumatlar arasında uyğunsuzluq olmadığı müəyyən edildikdə dövlət kadastr uçotuna alınmanın həyata keçirilməsi məqsədilə aşağıda göstərilən məlumatlar dövlət kadastrına mətn formasında daxil edilir və bu məlumatlar əsasında qrafiki təsvirlər yaradılaraq kadastr xəritələrinə işlənilir:

8.1.1.Qanunun 5.2.1-ci və 5.2.3-cü maddələrində qeyd olunmuş hallarda daşınmaz əmlakın dövlət reyestrinin I fəslinin məlumatları;

8.1.2.Qanunun 5.2.2-ci maddəsində qeyd olunmuş hallarda:

8.1.2.1. dövlət sərhəd xətti boyunca əsas istinad döngə nöqtələri və onlar arasında müəyyənləşdirilmiş digər nöqtələr arasındakı məsafələr və onların koordinatları;

8.1.2.2. bələdiyyənin adı, ərazi vahidinin adı və növü, sahəsi, ərazi vahidinin və ya bələdiyyənin sərhəd xətti boyunca əsas istinad döngə nöqtələri və onlar arasında müəyyənləşdirilmiş digər nöqtələr arasındakı məsafələr və onların koordinatları;

8.1.2.3. hər bir ərazi vahidində mövcud olan torpaqların Azərbaycan Respublikasının Torpaq Məcəlləsinə uyğun olaraq müəyyən edilmiş kateqoriyaları, məqsədli təyinatı, sərhədlərinin döngə nöqtələrinin koordinatları və aralarındakı məsafələr;

8.1.2.4. ərazi planlaşdırılması və zonalaşdırılması ilə bağlı normativ hüquqi aktlara uyğun olaraq müəyyən edilmiş hər növ zona və alt zonanın sərhəd xətti boyunca döngə nöqtələrinin koordinatları və aralarındakı məsafələr, zonaların adı, növü və digər atributiv məlumatlar;

8.1.2.5. infrastruktur obyektlərinin (avtomobil yolu, dəmir yolu, yüksəkgərginlikli elektrik şəbəkələri, neft və qaz kəmərləri və s.) adı, növü, onların və mühafizə zonalarının yerləşdiyi torpaq sahələrinin döngə nöqtələrinin koordinatları və aralarındakı məsafələr, ümumi sahəsi;

8.1.2.6. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi, çaylar, göllər və digər suların adı, növü, onların və mühafizə zonalarının Azərbaycan Respublikasının ərazisində yerləşən torpaq sahələrinin döngə nöqtələrinin koordinatları və aralarındakı məsafələr, ümumi sahəsi.

**9. Texniki pasportun tərtib edilməsi**

Daşınmaz əmlakın kadastr uçotuna alınmasının nəticəsi olaraq texniki pasport tərtib edilir.

**10. Dövlət kadastrından məlumatların təqdim olunması**

Qanunla əldə edilməsi məhdudlaşdırılan məlumatlar istisna olmaqla dövlət kadastr məlumatları hamı üçün açıqdır.

**11. Ödənişlər**

Qanunun 22-ci maddəsinə uyğun olaraq dövlət kadastrı işləri, texniki kadastr və yerquruluşu sənədlərinin (kadastr xəritələri və plan-xəritə materialları) tərtibi, bu işlərə dair məlumatların və sənədlərin (arxiv arayışları, texniki sənədlərin təsdiq edilmiş surəti) verilməsi ilə bağlı göstərilən xidmətlər ödənişli əsaslarla həyata keçirilir.

---

### "Daşınmaz əmlakın dövlət kadastrının aparılması Qaydaları"na 1 nömrəli Əlavə

| Daşınmaz əmlakın dövlət kadastr uçotuna alınması ilə bağlı ərizənin qəbul edildiyinə dair BİLDİRİŞ | |
|---|---|
| Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti ______________ | |
| Ərizəçinin soyadı, adı və atasının adı (hüquqi şəxsin adı) | |
| Ərizənin qeydiyyat nömrəsi | |
| Ərizənin qeydiyyat və son icra tarixləri | |
| Ərizəyə əlavə olunan sənədlər | |
| Çöl ölçmə (texniki inventarlaşma) işlərinin aparılacağı tarix (ərizənin icra edilməsi üçün qeyd olunan tarixdə 09.00–18.00 arasında daşınmaz əmlaka baxış keçirilməsinə şərait yaradılmalıdır) | |

**Bu bildiriş "Daşınmaz Əmlakın Elektron Reyestri və Kadastrı" informasiya sistemində avtomatik olaraq yaradılmışdır.**

### "Daşınmaz əmlakın dövlət kadastrının aparılması Qaydaları"na 2 nömrəli Əlavə

______ ____________ 20____ il № __________

(Sorğunun ünvanlandığı qurumun adı)

Daşınmaz əmlakın dövlət kadastr uçotuna alınması barədə təqdim edilmiş ərizəyə əlavə edilən sənəddə yol verilmiş texniki səhvin aradan qaldırılması ilə bağlı

BİLDİRİŞ

______________________________ ünvanında yaşayan (yerləşən)

(soyadı, adı və atasının adı (hüquqi şəxsin adı)

______________________________

(daşınmaz əmlakın ünvanı)

ünvanında yerləşən ______ (əmlakın növü göstərilir) daşınmaz əmlakın dövlət kadastr uçotuna alınması ilə bağlı ______________ qeydiyyat nömrəli ərizə ilə müraciət etmişdir.

Araşdırma nəticəsində ərizəyə əlavə edilmiş ______________

(sənədlərin adı)

sənəddə ______ (texniki səhvin mahiyyəti) texniki səhvə yol verildiyi müəyyən olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin _____ il ___ tarixli ____ nömrəli Fərmanı ilə təsdiq edilmiş "Daşınmaz əmlakın dövlət kadastrının aparılması Qaydaları"nın 6.4-cü bəndinə əsasən, texniki səhvin aradan qaldırılmasını xahiş edirik.

Qoşma ______________ (____)

### "Daşınmaz əmlakın dövlət kadastrının aparılması Qaydaları"na 3 nömrəli Əlavə

______ ____________ 20____ il № __________

Daşınmaz əmlakın dövlət kadastr uçotuna alınmasından imtina edilməsi barədə

BİLDİRİŞ

Ərizəçi ______________________________

(soyadı, adı və atasının adı (hüquqi şəxsin adı)

Bildirişin mətni

______________________________ ünvanında yerləşən ______________ daşınmaz əmlakın dövlət kadastr uçotuna alınması ilə bağlı ____ il ______ tarixli ______ nömrəliərizənizə baxılmışdır.

Aparılan araşdırma zamanı ______________ müəyyən edilmiş və bu səbəbdən ərizənizin icrası mümkün olmamışdır.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq, "Daşınmaz əmlakın dövlət kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" Azərbaycan Respublikası Qanununun 7-1-ci maddəsinin müddəalarına əsasən dövlət kadastr uçotuna alınmadan imtina edilir.

**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin vəzifəli şəxsi Elektron imza ilə imzalanmışdır.**

---

# "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Qırğız Respublikasının Milli Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2026-cı il iyulun 31-də Çolpon-Ata şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Qırğız Respublikasının Milli Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Qırğız Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 sentyabr 2026-cı il*

---

# Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin və hərbi məhkəmələrin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); 2024, № 4, maddə 381, № 6 (I kitab), maddə 649, № 7, maddələr 812, 814, 815, № 12 (I kitab), maddə 1294, (II kitab), maddə 1367; 2025, № 2, maddə 127, № 3, maddə 232, № 4 (I kitab), maddə 325, № 5, maddə 463, № 6, maddələr 541, 561, № 8, maddələr 756, 763, № 9, maddə 820, № 10, maddə 898, № 11, maddələr 1018, 1036; 2026, № 1, maddə 36, № 2, maddə 123, № 3, maddə 226, № 4, maddə 307, № 5 (I kitab), maddə 406; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 2 iyun tarixli 676 nömrəli, 19 iyun tarixli 686 nömrəli, 15 iyul tarixli 722 nömrəli, 28 iyul tarixli 744 nömrəli və 5 avqust tarixli 752 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin və hərbi məhkəmələrin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 41-1-ci hissə əlavə edilsin:

"41-1. Məcəllənin 428.9-cu maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

41-1.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından - bu Siyahının 1-ci hissəsində nəzərdə tutulan vəzifəli şəxslər;

41-1.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi adından - bu Siyahının 16.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.".

2. 42-ci hissədə "428.9-cu və 428.10-cu maddələrində" sözləri "428.10-cu maddəsində" sözləri ilə əvəz edilsin.

3. 68-ci hissədə "maddəsində" sözü "və 558.1-1-ci maddələrində" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 sentyabr 2026-cı il*

---

# Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 7 avqust tarixli 1573 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət adından yaradılan və dövlət büdcəsindən vəsait alan publik hüquqi şəxslərin əməkhaqqı sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 629 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

"Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 7 avqust tarixli 1573 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 8, maddə 1520 (Cild I); 2026, № 1, maddə 41, № 2, maddə 128) ilə təsdiq edilmiş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 4.5.7-ci yarımbəndə "edir" sözündən sonra ", İdarənin işçilərinə əlavə ödənilən həvəsləndirmə sistemini müəyyən edir" sözləri əlavə edilsin.

2. 5.7-ci bənd ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 sentyabr 2026-cı il*

# Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Daşınmaz əmlakın dövlət kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Torpaq bazarı haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu, 11-ci və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Torpaq Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 478 (Cild I); 2024, № 3, maddə 250, № 7, maddə 770, № 12 (II kitab), maddə 1338; 2025, № 4 (I kitab), maddə 315, № 7, maddələr 610, 631, № 8, maddələr 738, 744; Azərbaycan Respublikasının 2026-cı il 12 iyun tarixli 420-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 13-2-ci maddə əlavə edilsin:

"Maddə13-2. Kənd təsərrüfatı təyinatlı torpaqların konsolidasiyası

13-2.1. Kənd təsərrüfatı təyinatlı torpaqların konsolidasiyası - kənd təsərrüfatı təyinatlı torpaqlardan səmərəli istifadə məqsədilə torpaq mülkiyyətçilərinin razılığı və ekvivalent bazar dəyəri əsasında torpaq sahələrinin birləşdirilməsi, bölünməsi, sərhədlərinin yenidən müəyyən edilməsi, torpaq sahələrinin və ya onların hissələrinin dəyişdirilməsi (bu Məcəllənin 90-cı maddəsinin 1-1-ci hissəsinə uyğun olaraq dövlət mülkiyyətində olan torpaq sahəsinin xüsusi mülkiyyətdə olan torpaq sahəsi ilə dəyişdirilməsi halları istisna olmaqla) nəticəsində torpaq sahələri üzərində mülkiyyət və digər əşya hüquqlarının yenidən rəsmiləşdirilməsi, bu məqsədlərə nail olunması üçün ehtiyacdan asılı olaraq suvarma, meliorasiya, yol, enerji, işıqlandırma və digər mühəndis-kommunikasiya infrastrukturu ilə bağlı dəyişikliklərin həyata keçirilməsi prosesidir.

13-2.2. Torpaq sahələrinin ekvivalent bazar dəyəri konsolidasiya olunan torpaq sahələrinin alqı-satqısı zamanı formalaşan bazar qiyməti nəzərə alınmaqla, "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq qiymətləndirici tərəfindən müəyyən edilir. Torpaqların konsolidasiyası nəticəsində torpaq sahəsinin bazar qiymətinin artması konsolidasiya olunmuş torpaq sahəsinin mülkiyyətçisi üçün əlavə ödəniş öhdəliyi yaratmır.

13-2.3. Torpaqların konsolidasiyası nəticəsində torpaq mülkiyyətçisinə ayrılan torpaq sahəsinin bazar qiymətinin konsolidasiyadan əvvəl malik olduğu torpaq sahəsinin bazar qiymətindən aşağı olduğu müəyyən edildikdə, aradakı fərq bu Məcəllənin 13-2.6-cı maddəsində nəzərdə tutulan qaydaya əsasən torpaq mülkiyyətçisinə kompensasiya şəklində ödənilir.

13-2.4. Kənd təsərrüfatı təyinatlı torpaqların konsolidasiyası bu Məcəllənin 13-2.6-cı maddəsində nəzərdə tutulan qaydaya uyğun olaraq hazırlanan konsolidasiya layihəsi əsasında həyata keçirilir. Konsolidasiya layihəsində aşağıdakılar müəyyən edilir:

13-2.4.1. mövcud torpaq sahələrinin sərhədlərinin, ölçülərinin, yerləşməsinin, bazar qiymətinin, mülkiyyət formasının və onlar üzərində mövcud olan mülkiyyət və digər əşya hüquqlarının təhlil edilməsi;

13-2.4.2. torpaq sahələrinin yeni sərhədləri, ölçüləri və yerləşmə sxeminin torpaq sahəsinin mülkiyyətçiləri ilə razılaşdırılması;

13-2.4.3. bu Məcəllənin 13-2.6-cı maddəsində nəzərdə tutulan qaydaya uyğun olaraq torpaq sahələrinin birləşdirilməsi, bölünməsi və dəyişdirilməsi;

13-2.4.4. konsolidasiya olunmuş torpaq sahələri üzərində mülkiyyət- və digər əşya hüquqlarının yenidən rəsmiləşdirilməsi;

13-2.4.5. suvarma, meliorasiya, yol, enerji, işıqlandırma və digər mühəndis-kommunikasiya infrastrukturu üzrə dəyişikliklər.

13-2.5. Kənd təsərrüfatı təyinatlı torpaqların konsolidasiyası barədə qərar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı komissiya tərəfindən qəbul edilir. Komissiyanın qərarı ilə kənd təsərrüfatı təyinatlı torpaqların konsolidasiyasına dair bölgü sənədi təsdiq olunur. Bölgü sənədi konsolidasiya layihəsinin icrası nəticəsində torpaq sahələrinin sərhədlərinə, ölçülərinə, yerləşməsinə, həmin torpaq sahələri üzərində mülkiyyət və digər əşya hüquqlarına dair məlumatları, eləcə də torpaq sahələri ilə bağlı digər dəyişikliklər barədə məlumatları özündə ehtiva edir və daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün əsas hesab olunur.

13-2.6. Kənd təsərrüfatı təyinatlı torpaqların konsolidasiyası qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.";

1.2. 66-cı maddəyə aşağıdakı məzmunda 2-2-ci hissə əlavə edilsin:

"2-2. Kənd təsərrüfatı təyinatlı torpaqların konsolidasiyası ilə əlaqədar torpaq sahələri üzərində hüquqların başqasına keçməsi bu Məcəllənin 13-2-ci maddəsinə uyğun olaraq konsolidasiyaya dair bölgü sənədi əsasında həyata keçirilir.".

**Maddə 2.** Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 493, № 7, maddə 744, № 12 (I kitab), maddə 1281; 2025, № 1, maddə 17, № 3, maddə 216, № 4 (I kitab), maddələr 315, 318, № 6, maddələr 523, 524, 536, № 7, maddələr 610, 626, № 8, maddələr 738, 741, 743, 744,№ 11, maddə1004; 2026, № 1, maddə 2, № 3, maddə 208; Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 413-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 139-1.1.13-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 139-1.1.14-cü maddə əlavə edilsin:

"139-1.1.14. kənd təsərrüfatı təyinatlı torpaqların konsolidasiyasına dair bölgü sənədi.";

2.2. aşağıdakı məzmunda 648-1-ci və 648-2-ci maddələr əlavə edilsin:

**"Maddə 648-1. Kənd təsərrüfatı təyinatlı torpaqların alqı-satqısı zamanı üstünlük hüququ**

Kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin alqı-satqısı zamanı həmin torpaq sahəsi ilə bilavasitə ümumi sərhədə malik olan torpaq sahələrinin mülkiyyətçiləri həmin torpaq sahəsini eyni şərtlərlə satın almaqda bu Məcəllənin 218-ci maddəsinin tələbləri nəzərə alınmaqla üstünlük hüququna malikdirlər.

**Maddə 648-2. Kənd təsərrüfatı təyinatlı torpaqların alqı-satqısı və digər özgəninkiləşdirilmə hallarında məhdudiyyətlər**

Dövlətin ehtiyacları üçün özgəninkiləşdirilmə halları istisna olmaqla, fiziki və hüquqi şəxslərin mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin alqı-satqısı və digər özgəninkiləşdirilməsi halları nəticəsində bölünməsinə yalnız bölünmə nəticəsində yaranan hər bir torpaq sahəsinin ölçüsü 5 hektardan az olmadıqda yol verilir.";

2.3. 1282-ci maddə üzrə:

2.3.1. 1282.1-ci maddədə "sahəsi həyat qabiliyyətli təsərrüfatın mövcudluğunu təmin etsin" sözləri "sahəsinin ölçüsü 5 hektardan az olmasın" sözləri ilə əvəz edilsin;

2.3.2. 1282.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"1282.2. Bu Məcəllənin 1282.1-ci maddəsində nəzərdə tutulan bölgü mümkün olmazsa, torpaq onun üzərində yerləşən təsərrüfatla birlikdə satıla bilər və vərəsələr öz paylarını pul şəklində ala bilərlər. Alqı-satqı zamanı bu Məcəllənin 648-2-ci maddəsinin müddəaları tətbiq edilir.".

**Maddə 3.** "Daşınmaz əmlakın dövlət kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 157 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 16-cı maddənin birinci hissəsi üzrə:

3.1.1. səkkizinci və doqquzuncu abzaslar müvafiq olaraq onuncu və on birinci abzaslar hesab edilsin və aşağıdakı məzmunda səkkizinci və doqquzuncu abzaslar əlavə edilsin:

"kənd təsərrüfatı təyinatlı torpaqların konsolidasiyasının təşkili;

torpaq sahələrinin yerləşməsi və sərhədləri ilə bağlı dövlət kadastrında saxlanılan məlumatlar və yerdə (naturada) tədqiqatı nəticəsində əldə olunmuş məlumatlar arasında uyğunsuzluqların aradan qaldırılması;";

3.1.2. onuncu abzasda "təşkilində" sözü "və yeni infrastruktur obyektlərinin planlaşdırılmasında" sözləri ilə əvəz edilsin;

3.2. 18-ci maddənin ikinci hissəsində birinci halda "və" sözü ", kənd təsərrüfatı təyinatlı torpaqların konsolidasiyası ilə əlaqədar normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada"sözləri ilə əvəz edilsin;

3.3. 19-cu maddənin ikinci və üçüncü hissələri müvafiq olaraq dördüncü və beşinci hissələr hesab edilsin və aşağıdakı məzmunda ikinci və üçüncü hissələr əlavə edilsin:

"Kənd təsərrüfatı təyinatlı torpaqların konsolidasiyası ilə bağlı müvafiq ərazilərin kompleks yerquruluşu işləri Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 13-2.5-ci maddəsində nəzərdə tutulan komissiyanın qərarı əsasında aparılır.

Kənd təsərrüfatı təyinatlı torpaqların konsolidasiyasının əhatə etdiyi ərazilərdə yeni formalaşmış torpaq sahələri torpaq mülkiyyətçiləri arasında konsolidasiya layihəsinə uyğun bölüşdürülür. Bu zaman aşkar edilmiş uyğunsuzluqların aradan qaldırılması üzrə yerquruluşu işləri ilə yerdə (naturada) tədqiqat həyata keçirilir.".

**Maddə 4.** "Torpaq bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,1999, № 7, maddə 390 (Cild I); 2024, № 12 (II kitab), maddə 1338; 2025, № 4 (I kitab), maddə 315, № 8, maddə 744; Azərbaycan Respublikasının 2026-cı il 12 iyun tarixli 420-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 5-ci maddənin birinci hissəsinin doqquzuncu abzası onuncu abzas hesab edilsin və aşağıdakı məzmunda doqquzuncu abzas əlavə edilsin:

"kənd təsərrüfatı təyinatlı torpaqların konsolidasiyası məqsədilə həyata keçirilən əqdlər;";

4.2. 18-ci maddənin birinci hissəsinin beşinci abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda altıncı abzas əlavə edilsin:

"kənd təsərrüfatı təyinatlı torpaqların konsolidasiyası.".

**Maddə 5.** "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 603 (Cild I); 2025, № 1, maddə 16, № 2, maddə 100, № 6,maddə 536, № 7, maddə 630, № 8, maddələr 738, 744; 2026, № 1, maddə 13; Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 413-VIIQD nömrəli Qanunu) 8.0.12-ci maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 8.0.13-cü maddə əlavə edilsin:

"8.0.13. kənd təsərrüfatı təyinatlı torpaqların konsolidasiyasına dair bölgü sənədi.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2026-cı il*

# "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Daşınmaz əmlakın dövlət kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Torpaq bazarı haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 460-VIIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli 176 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Daşınmaz əmlakın dövlət kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Torpaq bazarı haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 460-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 13-2.5-ci maddəsinin birinci cümləsində və 13-2.6-cı maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 13-2.5-ci maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Qanunun 13-2.6-cı maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 13-2.6-cı maddəsinə uyğun olaraq, kənd təsərrüfatı təyinatlı torpaqların konsolidasiyası qaydasını altı ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Daşınmaz əmlakın dövlət kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Torpaq bazarı haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 460-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli 176 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 486 (Cild I); 2024, № 7, maddə 823; 2025, № 8, maddə 750; 2026, № 4, maddə 304) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə ikinci halda "hissəsində" sözündən sonra ", 13-2.5-ci maddəsinin birinci cümləsində və 13-2.6-cı maddəsində" sözləri əlavə edilsin;

3.2. 2.1-1-ci bəndə "cümləsində" sözündən sonra ",13-2.5-ci maddəsinin birinci cümləsində" sözləri əlavə edilsin;

3.3. 2.1-4-cü bəndə "hissəsində" sözündən sonra ", 13-2.6-cı maddəsində" sözləri əlavə edilsin;

3.4. 2.6-cı bəndə "Hallar Nazirliyi," sözlərindən sonra "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 sentyabr 2026-cı il*

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 2 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

# Daşınmaz əmlakın dövlət reyestrinin aparılması qaydaları, o cümlədən reyestrdə saxlanılan məlumatların tərkibi

### 1. Ümumi müddəalar

1.1. "Daşınmaz əmlakın dövlət reyestrinin aparılması qaydaları, o cümlədən reyestrdə saxlanılan məlumatların tərkibi" (bundan sonra - Qaydalar) "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 13.13-cü maddəsinə uyğun olaraq hazırlanmışdır və daşınmaz əmlakın dövlət reyestrinin (bundan sonra - dövlət reyestri) tərtib edilməsi və aparılması qaydalarını, o cümlədən dövlət reyestrində saxlanılan məlumatların tərkibini müəyyən edir.

1.2. Dövlət reyestrinin aparılması dedikdə, daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqlarının əmələ gəlməsi, başqasına keçməsi, məhdudlaşdırılması (yüklənməsi) və onlara xitam verilməsi barədə məlumatların dövlət reyestrinə daxil edilməsi nəzərdə tutulur.

1.3. Dövlət reyestri tabeliyindəki "Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri" publik hüquqi şəxs vasitəsilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti (bundan sonra - qeydiyyat orqanı) tərəfindən "Daşınmaz Əmlakın Elektron Reyestri və Kadastrı" informasiya sistemi (bundan sonra - DERKİS) vasitəsilə tərtib edilir və aparılır.

### 2. Dövlət reyestrinin strukturu

2.1. Dövlət reyestrinin strukturu Qanunun 13.6-cı və 13.9-cu maddələrinə uyğun olaraq bölmələrdən, bölmələr isə fəsillərdən ibarətdir.

2.2. Dövlət reyestrinin bölmələri torpaq sahələrini və onlarla bağlı olan obyektləri əks etdirir.

2.3. Hər bir bölmə üç fəsildən ibarətdir. I fəsildə üzərində hüquqların qeydiyyata alındığı daşınmaz əmlak barədə məlumatlar, II fəsildə qeydiyyata alınmış mülkiyyət hüquqları və hüquq sahibi (sahibləri) barədə məlumatlar, III fəsildə digər əşya hüquqları, həmçinin mülkiyyət və digər əşya hüquqlarının məhdudlaşdırılması barədə məlumatlar göstərilir.

2.4. Dövlət reyestri daimi saxlanılır. Onun tam və ya qismən məhv edilməsi, yaxud ondan hər hansı sənədlərin çıxarılması və məlumatların silinməsi yolverilməzdir.

### 3. Dövlət reyestrinin aparılmasının xüsusiyyətləri

3.1. Dövlət reyestri Qanunun 13-cü maddəsinin, "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun və DERKİS-in Əsasnaməsinin, habelə digər aidiyyəti normativ hüquqi aktların müddəalarına uyğun olaraq aparılır.

3.2. Dövlət reyestrinə daxil edilmiş və ayrıca qeydiyyat nömrəsinə malik olan hər bir məlumat (qeyd) qeydiyyat orqanının müvafiq vəzifəli şəxsi tərəfindən təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə DERKİS-də imzalanır.

### 4. Dövlət reyestrinin bölmələrinin fərdiləşdirilməsi

4.1. Dövlət reyestrinin bölmələri daşınmaz əmlakın dövlət reyestr nömrələri (bundan sonra - reyestr nömrəsi) ilə fərdiləşdirilir.

4.2. Dövlət reyestrinin bölmələri aşağıdakı kimi təsnifatlaşdırılır:

4.2.1. torpaq sahələri (yer səthində tutduğu sahəyə uyğun olaraq meşələr, çoxillik əkmələr, yerin təki, ayrıca su obyektləri torpaq sahəsi bölməsində qeyd edilir);

4.2.2. fərdi yaşayış evləri;

4.2.3. qeyri-yaşayış binaları;

4.2.4. qeyri-yaşayış sahələri;

4.2.5. mənzillər;

4.2.6. əmlak kompleksləri (eyni torpaq sahəsində yerləşən bir neçə əmlakdan ibarət daşınmaz əmlak).

4.3. Torpaq sahələri bölməsi 1-dən başlayıb qeydiyyata alınma ardıcıllığına uyğun olaraq artan sıra ilə 12 rəqəmli reyestr nömrəsi ilə nömrələnir.

4.4. Torpaq sahəsində yerləşən binaların (tikililərin) reyestr nömrəsi həmin torpaq sahəsinin reyestr nömrəsindən "-" işarəsi ilə ayrılmaqla beşrəqəmli nömrənin əlavə edilməsi ilə formalaşdırılır.

4.5. Binalarda yerləşən müstəqil tərkib hissələrin (mənzil və qeyri-yaşayış sahələri) reyestr nömrəsi həmin binanın reyestr nömrəsindən "-" işarəsi ilə ayrılmaqla altırəqəmli nömrənin əlavə edilməsi ilə formalaşdırılır.

4.6. Daşınmaz əmlakın birləşməsi, ayrılması, bölünməsi nəticəsində yeni daşınmaz əmlak obyekti yarandığı təqdirdə, həmin əmlakla əlaqədar I fəslin "Reyestr nömrəsi" qrafasında yeni reyestr nömrəsi yazılır, I fəslin "Əvvəlki reyestr nömrəsi" qrafasında isə əvvəlki daşınmaz əmlak obyektinin reyestr nömrəsi göstərilir.

4.7. Reyestr nömrəsi daşınmaz əmlakla bağlı olub üzərindəki hüquqların özgəninkiləşdirilməsindən və məhdudlaşdırılmasından asılı olmayaraq dəyişməzdir.

### 5. Qeydiyyat nömrəsinin formalaşdırılması və əks etdirilməsi

5.1. Qanunun 13.10-cu maddəsinə uyğun olaraq hüquqa, onun məhdudlaşdırılmasına və ləğvinə dair hər bir yazıya (qeydə) verilən qeydiyyat nömrəsi (bundan sonra - qeydiyyat nömrəsi) hüquqların qeydiyyatı və ya onların məhdudlaşdırılması, yaxud ləğvi üçün qəbul edilmiş ərizənin (müraciətin) qeydiyyat orqanına daxilolma nömrəsi əsasında formalaşdırılır.

5.2. Qeydiyyat nömrəsi hər hansı hüquq, onun məhdudlaşdırılması və ləğvi dövlət reyestrində qeydiyyata alınarkən dövlət reyestrinin müvafiq fəslinin "Qeydiyyat nömrəsi" qrafasında əks etdirilir.

### 6. Hüquqların dövlət qeydiyyatı barədə məlumatların daxil edilməsi

Hüquqların dövlət qeydiyyatı barədə bütün məlumatlar dövlət reyestrinin müvafiq fəsillərinə daxil edilir.

### 7. Hüquqların və ya hüquqların məhdudlaşdırılmasının ləğv edilməsi

Hüquqların və ya hüquqların məhdudlaşdırılmasının ləğv edilməsi dövlət reyestrinə daxil edilmiş müvafiq məlumatın (qeydin) qüvvədən düşməsi barədə qeydin edilməsi yolu ilə həyata keçirilir.

### 8. Hüquqların dövlət qeydiyyatı üçün müra ciət etmiş şəxs barəsində məlumatların daxil edilməsi

Hüquqların dövlət qeydiyyatı üçün müraciət etmiş şəxs barəsində məlumatlar dövlət reyestrinə Qanunun 10.1-ci maddəsinə uyğun olaraq daxil edilir.

### 9. Ərizələrin qəbulu

9.1. Hüquqların dövlət qeydiyyatı, onların məhdudlaşdırılmasına və ləğvinə dair ərizələr (bundan sonra - ərizələr) bu Qaydaların 1 nömrəli Əlavəsinə uyğun olaraq tərtib edilməklə DERKİS-də Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra - EHİS) üzərindən ötürülür.

9.2. Müraciət edən şəxs əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olduqda Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətindən EHİS vasitəsilə həmin şəxsə dair bu Qaydaların 19-cu hissəsində nəzərdə tutulmuş məlumatlar real vaxt rejimində əldə edilir.

9.3. Ərizəçi Qanunun 10.2-ci maddəsində qeyd edilən sənədləri ərizəsinə əlavə etməlidir. Ərizəçi özündə olan sənədi DERKİS-də tapa bilmədikdə bu barədə qeydiyyat orqanına DERKİS vasitəsilə müraciət ünvanlayır. Həmin müraciət əsasında qeydiyyat orqanı tərəfindən EHİS vasitəsilə sənədin aid olduğu müvafiq dövlət orqanına (qurumuna) real vaxt rejimində avtomatik qaydada sorğu göndərilir. Sorğuya cavab gəldikdən sonra ərizənin daxil edilməsi proseduru davam etdirilir.

9.4. Daşınmaz dövlət əmlakı üzərində icarə (istifadə) hüququnun qeydiyyata alınması barədə bu Qaydaların 1 nömrəli əlavəsi ilə müəyyən edilmiş ərizə bu Qaydaların 2 nömrəli Əlavəsi ilə müəyyən edilmiş formada daşınmaz dövlət əmlakı üzərində icarə (istifadə) müqaviləsi bağlamaq hüququ olan müvafiq icra hakimiyyəti orqanının müraciəti ilə birlikdə təqdim edilir.

9.5. Daxil edilən məlumatlar DERKİS vasitəsilə avtomatik yoxlanılır. Hər hansı çatışmazlıq və ya uyğunsuzluq aşkar edilmədikdə, ərizənin qəbul edildiyi barədə ərizəçiyə bu Qaydaların 3 nömrəli Əlavəsinə uyğun olaraq elektron bildiriş göndərilir.

9.6. Ərizəçi tərəfindən müvafiq ödənişlər EHİS vasitəsilə şəxsi elektron kabinetdə ödəniş xidməti təchizatçıları vasitəsilə həyata keçirilir.

### 10. Ərizənin sürətləndirilməklə icra edilməsi

10.1. Ərizəçinin təqdim etdiyi ərizə onun istəyi əsasında icra müddəti sürətləndirilməklə icra edilir.

10.2. İcra müddəti sürətləndirilməklə qəbul edilən ərizənin icrası həmin ərizədən əvvəl daxil olmuş ərizələrin Qanunla müəyyən edilmiş müddətdə icrasını ləngitməmək şərtilə həyata keçirilir.

10.3. Daşınmaz əmlak üzərində hüquqların ilkin dövlət qeydiyyatı ilə bağlı ərizələr Qanunun 9.2-ci maddəsinin birinci cümləsi ilə müəyyən edilmiş icra müddəti sürətləndirilməklə 1 (bir), 3 (üç) və 7 (yeddi) iş günü müddətində icra olunur. Qeydiyyat müddəti Qanunun 9.2-ci maddəsinin üçüncü cümləsinə uyğun olaraq, mərzçəkmə və inventarlaşdırma işlərinin aparılması ilə əlaqədar uzadıldıqda, ərizələr ümumi icra müddəti sürətləndirilməklə 2 (iki), 5 (beş) və 10 (on) iş günü müddətində icra edilir.

10.4. Daşınmaz əmlak üzərində hüquqların təkrar qeydiyyatı ilə bağlı ərizələrin icra müddəti sürətləndirilmir. Lakin Qanunun 9.2-ci maddəsinin üçüncü cümləsinə uyğun olaraq, mərzçəkmə və inventarlaşdırma işlərinin aparılması ilə əlaqədar uzadıldıqda, təkrar qeydiyyatla bağlı ərizələr ümumi icra müddəti sürətləndirilməklə 1 (bir), 2 (iki) və 4 (dörd) iş günü müddətində icra edilir.

10.5. İpotekanın dövlət qeydiyyatı ilə bağlı ərizələr Qanunun 20.3-cü maddəsinin birinci cümləsi ilə müəyyən edilmiş icra müddəti sürətləndirilməklə ən geci 2 (iki) iş günü müddətində icra olunur.

10.6. Bu Qaydaların 10.3 - 10.5-ci bəndlərinə uyğun olaraq qəbul edilən ərizələrdə sürətləndirilmiş icra müddəti, ərizəçilərə göndərilən elektron bildirişlərdə isə sürətləndirilmiş icra müddətinə uyğun olaraq tarix göstərilir.

10.7. Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatına dair ərizənin sürətləndirilməklə icrası zamanı daşınmaz əmlak üzərində hüquqların əmələ gəlməsi və başqasına keçməsi ilə bağlı daşınmaz əmlak barədə məlumatların yoxlanılması və dövlət reyestrinə daxil edilməsi xidmətlərinə görə nəzərdə tutulan xidmət haqlarının tarifləri Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən müəyyən edilən artırma əmsalları ilə hesablanır.

### 11. Hüquqların dövlət qeydiyyatının dayandırılması və hüquqların dövlət qeydiyyatından imtina edilməsi

11.1. Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatına alınması üçün təqdim edilmiş sənədlərin həqiqiliyinə şübhə yarandığı təqdirdə, həmin sənədlərə dair müvafiq dövlət orqanlarına (qurumlara) bu Qaydaların 4 nömrəli Əlavəsi ilə müəyyən edilmiş formada sorğu göndərilir.

11.2. Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatına alınması hüquq əldə edənin, əqdin tərəfinin və ya onların vəkil etdikləri şəxsin bu Qaydaların 5 nömrəli Əlavəsi ilə müəyyən edilmiş formada təqdim olunmuş ərizəsi əsasında 1 (bir) aydan artıq olmayan müddətə dayandırıla bilər.

11.3. Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatına alınmasından imtina edilməsi barədə bildiriş bu Qaydaların 6 nömrəli Əlavəsi ilə müəyyən edilmiş formaya uyğun verilir.

### 12. I fəsildə saxlanılan məlumatlar

12.1. Reyestr nömrəsi və daşınmaz əmlakın ünvanı ilə yanaşı, I fəsilə aşağıdakı məlumatlar daxil edilir:

12.1.1. torpaq sahəsinə münasibətdə:

12.1.1.1. kateqoriyası;

12.1.1.2. məqsədli təyinatı;

12.1.1.3. ümumi sahəsi;

12.1.1.4. döngə nöqtələrinin koordinatları;

12.1.1.5. obyektin məhv olması (birləşməsi və bölünməsi);

12.1.1.6. qeydlər;

12.1.2. fərdi yaşayış evinə münasibətdə:

12.1.2.1. torpaq sahəsinə dair bu Qaydaların 12.1.1-ci yarımbəndində qeyd edilən məlumatlar;

12.1.2.2. ümumi sahəsi;

12.1.2.3. yaşayış sahəsi;

12.1.2.4. yardımçı sahəsi;

12.1.2.5. tikinti sahəsinin döngə nöqtələrinin koordinatları;

12.1.2.6. zirzəmi;

12.1.2.7. yarımzirzəmi;

12.1.2.8. mansarda mərtəbəsi;

12.1.2.9. liter;

12.1.2.10. obyektin məhv olması (birləşməsi və bölünməsi);

12.1.2.11. qeydlər;

12.1.3. qeyri-yaşayış binasına münasibətdə:

12.1.3.1. torpaq sahəsinə dair bu Qaydaların 12.1.1-ci yarımbəndində qeyd edilən məlumatlar;

12.1.3.2. ümumi sahəsi;

12.1.3.3. əsas sahəsi;

12.1.3.4. yardımçı sahəsi;

12.1.3.5. tikinti sahəsi;

12.1.3.6. binanın tikinti sahəsinin döngə nöqtələrinin koordinatları;

12.1.3.7. zirzəmi;

12.1.3.8. yarımzirzəmi;

12.1.3.9. mansarda mərtəbəsi;

12.1.3.10. mərtəbə sayı;

12.1.3.11. yeraltı mərtəbə;

12.1.3.12. texniki mərtəbə;

12.1.3.13. istismara verildiyi il;

12.1.3.14. liter;

12.1.3.15. obyektin məhv olması (birləşməsi və bölünməsi);

12.1.3.16. qeydlər;

12.1.4. qeyri-yaşayış sahəsinə münasibətdə:

12.1.4.1. torpaq sahəsinə dair bu Qaydaların 12.1.1-ci yarımbəndində qeyd edilən məlumatlar;

12.1.4.2. ümumi sahəsi;

12.1.4.3. əsas sahəsi;

12.1.4.4. yardımçı sahəsi;

12.1.4.5. yerləşdiyi mərtəbə;

12.1.4.6. ümumi mülkiyyətdə olan torpaq sahəsində qeyri-yaşayış sahəsinin bağlı olduğu pay;

12.1.4.7. obyektin məhv olması (birləşməsi və bölünməsi);

12.1.4.8. qeydlər;

12.1.5. mənzilə münasibətdə:

12.1.5.1. torpaq sahəsinə dair bu Qaydaların 12.1.1-ci yarımbəndində qeyd edilən məlumatlar;

12.1.5.2. ümumi mülkiyyətdə olan torpaq sahəsində mənzilin bağlı olduğu pay;

12.1.5.3. ümumi sahə;

12.1.5.4. yaşayış sahəsi;

12.1.5.5. yardımçı sahə;

12.1.5.6. yerləşdiyi mərtəbə;

12.1.5.7. otaqların sayı;

12.1.5.8. obyektin məhv olması (birləşməsi və bölünməsi);

12.1.5.9. qeydlər;

12.1.6. əmlak kompleksinə münasibətdə torpaq sahəsinə dair bu Qaydaların 12.1.1-ci bəndində qeyd olunan məlumatlar və əmlak kompleksinin tərkibində olan əmlak növləri nəzərə alınmaqla bu Qaydaların 12.1.2 -12.1.5-ci yarımbəndlərindən bir neçəsinə dair məlumatlar.

*Ardı 8-ci səh.*

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 2 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

# Daşınmaz əmlakın dövlət reyestrinin aparılması qaydaları, o cümlədən reyestrdə saxlanılan məlumatların tərkibi

*Əvvəli 7-ci səh.*

12.2. "Qeydlər" qrafasında daşınmaz əmlakı xarakterizə edən və digər qrafalara daxil edilməyən məlumatlar göstərilir.

**13. Daşınmaz əmlak obyektinin ünvanı barədə məlumatların daxil edilməsi**

Daşınmaz əmlak obyektinin ünvanı barədə məlumatlar Ünvan Reyestri İnformasiya Sistemindən əldə edilir.

**14. Torpaq sahəsinin kateqoriyasının göstərilməsi**

I fəslin "Kateqoriya" qrafasında torpaq sahəsinin Azərbaycan Respublikasının Torpaq Məcəlləsi ilə müəyyən edilmiş kateqoriyalarından biri göstərilir.

**15. Daşınmaz əmlak obyektinin ölçüsünə dair məlumatların daxil edilməsi**

15.1. Torpaq sahələrinin ölçüsü hektarla, digər daşınmaz əmlakların ölçüsü kvadratmetrlə göstərilir. Torpaq sahələrinin ölçüsü 0,0001 hektara qədər, digər daşınmaz əmlakların ölçüsü isə 0.1 kvadratmetrə qədər yuvarlaqlaşdırılır.

15.2. Daşınmaz əmlak obyektinin ümumi, əsas, yardımçı və digər sahələri barədə məlumatlar Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 59-cu maddəsinə uyğun olaraq daxil edilir.

15.3. Yeni daşınmaz əmlak obyekti yaradıldığı və ya ümumi sahəyə təsir etməklə yenidənqurma işləri aparıldığı təqdirdə, hüquqların dövlət qeydiyyatının aparılması texniki pasport tərtib edilməklə həyata keçirilməlidir.

**16. Bina ilə bağlı xüsusi məlumatların daxil edilməsi**

16.1. I fəslin "Mərtəbə" və "Yeraltı mərtəbə" qrafalarında müvafiq olaraq binanın mərtəbələrinin və zirzəmidəki səviyyələrin sayı göstərilir. Bundan başqa, "Mərtəbə" qrafasında müvafiq qeyri-yaşayış sahəsinin və ya mənzilin yerləşdiyi mərtəbənin (mərtəbələrin) nömrəsi qeyd edilir.

16.2. Daşınmaz əmlak obyektində əsaslı dəyişikliklər (yenidənqurma işləri, obyektin birləşməsi, bölünməsi, ayrılması) aparılmadığı hallarda, obyektin mülkiyyətçisi, icarəçisi və ya istifadəçisi dəyişdirildikdə, dövlət reyestrində daşınmaz əmlaka yeni yaranan hüquqların dövlət qeydiyyatı yeni texniki pasport tərtib edilmədən, mövcud texniki pasportun göstəriciləri nəzərə alınmaqla aparılır.

**17. Daşınmaz əmlak obyektinin məhv olması barədə məlumatların daxil edilməsi**

17.1. Daşınmaz əmlak obyekti məhv olduqda, həmin əmlakla bağlı bölmə bağlanılır və I fəslin "Obyektin məhv olması (birləşməsi və bölünməsi)" qrafasında həmin bölmənin bağlanmasına əsas olmuş sənədlərin rekvizitləri göstərilir.

17.2. Məhv olmuş daşınmaz əmlakın qeydiyyatının ləğvi, forması bu Qaydaların 7 nömrəli əlavəsi ilə müəyyən edilmiş ərizə əsasında həyata keçirilir.

**18. II fəsildə saxlanılan məlumatlar**

18.1. II fəsil II-1 və II-2 yarımfəsillərindən ibarətdir. Həmin yarımfəsillərə aşağıdakı məlumatlar, o cümlədən sənədlərin rekvizitləri daxil edilir:

18.2. II-1 yarımfəslində- daşınmaz əmlakın mülkiyyət növü (dövlət, bələdiyyə və xüsusi), əmlak üzərində mülkiyyət hüququ, hüquq sahibi və qeydiyyat üçün əsas olan sənədlər barədə məlumatlar;

18.3. II-2 yarımfəslində- daşınmaz əmlak obyektinin özgəninkiləşdirilməsinə dair əqd və ya digər hüquqmüəyyənedici sənədə dair məlumatlar, o cümlədən müvafiq sənədin predmeti, əsas şərtləri və tərəflər barədə məlumatlar.

**19. Hüquq sahibi haqqında məlumatların daxil edilməsi**

19.1. II-1 yarımfəslinin "Hüquq sahibi" qrafasına aşağıdakı məlumatlar daxil edilir:

19.1.1. fiziki şəxs olduqda - soyadı, adı, atasının adı, FİN-i;

19.1.2. hüquqi şəxs olduqda - adı, hüquqi ünvanı, VÖEN-i;

19.1.3. hüquq sahibinin adından onun səlahiyyətli nümayəndəsi çıxış etdikdə etibarnamənin və ya səlahiyyət verən digər sənədin nömrəsi və tarixi;

19.1.4. ərizə ölmüş şəxsə məxsus daşınmaz əmlakla bağlı verildikdə, ərizəçinin ölmüş şəxsin qanun və ya vəsiyyət əsasında vərəsəsi olduğunu təsdiq edən, notarius tərəfindən verilən sənədin nömrəsi və tarixi;

19.1.5. vətəndaşlığı;

19.1.6. əlaqə telefonu;

19.1.7. elektron poçt ünvanı;

19.1.8. ünvanı.

19.2. Hüquq sahiblərindən biri və ya bir neçəsi vəfat etdikdə vərəsənin mülkiyyət hüququnun qeydiyyata alınması üçün əsas olan hüquq müəyyənedici sənəd təqdim edilənə qədər "Hüquq sahibi" qrafasında vəfat etmiş şəxsin (şəxslərin) adı (adları) qeyd edilir.

**20. Məhkəmənin arayışı əsasında qeydin aparılması**

20.1. Qanunun 21.2-ci maddəsində nəzərdə tutulan məhkəmə mübahisəsi dövlət qeydiyyatına alınmış mülkiyyət hüququ ilə bağlı olduqda bu barədə II-1 yarımfəslində, digər hüquqlarla bağlı olduqda isə III fəsildə qeyd aparılır.

20.2. Bu Qaydaların 20.1-ci bəndində nəzərdə tutulmuş qeyddə məhkəmənin adı, məhkəmə işinin nömrəsi və arayışın tarixi, proses iştirakçıları, iddianın predmeti əks olunmalıdır.

**21. Əqdin və ya digər hüquqmüəyyənedici sənədin predmeti, əsas şərtləri, tərəfləri və rekvizitləri barədə məlumatların daxil edilməsi**

21.1. Əqdin və ya digər hüquqmüəyyənedici sənədin predmeti barədə məlumatlar II-2 yarımfəslinin "Əqdin predmetinin təsviri" qrafasına daxil edilir.

21.2. Əqdin və ya digər hüquqmüəyyənedici sənədin əsas şərtləri barədə məlumatlar II-2 yarımfəslinin "Əqdin şərtləri" qrafasına daxil edilir.

21.3. Şərtlə bağlanılmış əqdlər barədə həmçinin həmin əqd üzrə tərəflərin hüquq və vəzifələrinin əmələ gəlməsinin və ya əqdə xitam verilməsinin asılı edildiyi hallar göstərilir.

21.4. Üçüncü şəxsin xeyrinə bağlanılmış əqdlər üzrə "Əqdin şərtləri" qrafasında əqdin üçüncü şəxsin xeyrinə bağlanıldığı haqqında ayrıca qeyd aparılır.

21.5. Əqdin tərəfləri barədə məlumatlar II-2 yarımfəslinin müvafiq olaraq "Özgəninkiləşdirən" və "Əldə edən" qrafalarına daxil edilir. Belə məlumatların məzmunu bu Qaydaların 19-cu hissəsi ilə müəyyən edilir.

21.6. Üçüncü şəxsin xeyrinə bağlanılmış əqddə, II-2 yarımfəslin "Əldə edən" qrafasına xeyrinə əqdin bağlanıldığı üçüncü şəxs barəsində bu Qaydaların 19-cu hissəsi ilə müəyyən edilmiş məlumatlar daxil edilir.

21.7. Əsasında dövlət reyestrinə daşınmaz əmlak obyekti barədə məlumatlar daxil edilən əqdin və ya digər hüquqmüəyyənedici sənədlərin rekvizitləri II-2 yarımfəslinin "Sənədlər - əsaslar" qrafasında göstərilir.

21.8. Əqdlərə və digər hüquqmüəyyənedici sənədlərə dair aşağıdakı məlumatlar müvafiq xanalara qeyd edilir:

21.8.1. əqdin və ya digər hüquqmüəyyənedici sənədin adı;

21.8.2. əqdi təsdiq etmiş qurum (hüquqmüəyyənedici sənədi vermiş qurum);

21.8.3. əqdi təsdiq edən qurumun (hüquqmüəyyənedici sənədi vermiş qurum) əqdə (hüquqmüəyyənedici sənədə) verdiyi nömrə;

21.8.4. əqdin və ya digər hüquqmüəyyənedici sənədin tarixi.

21.9. Əgər əqdə və ya digər hüquqmüəyyənedici sənədə əlavələr edilmişdirsə, həmin əlavələrə dair məlumatlar bu Qaydaların 21.8-ci bəndinə uyğun olaraq daxil edilir.

**22. Əqd və ya digər hüquqmüəyyənedici sənəd əsasında hüquq əldə etmiş şəxsə dair məlumatların daxil edilməsi**

22.1. Əqd əsasında hüquqların dövlət reyestrində qeydiyyata alınması ilə birlikdə II-2 yarımfəslində "Əldə edən" qrafasında qeyd olunan məlumatlar avtomatlaşdırılmış qaydada II-1 yarımfəslinə keçir.

22.2.Əvvəlki hüquq sahibinə dair məlumatlar dövlət reyestrində II-1 yarımfəslində "Əvvəlki hüquq sahibləri" qrafasında saxlanılır.

**23. Ümumi mülkiyyət hüququ barədə məlumatların daxil edilməsi**

23.1. Daşınmaz əmlak obyekti ümumi paylı mülkiyyətdə olduğu təqdirdə, bu barədə məlumat II-1 yarımfəslinin "Pay" qrafasına daxil edilir.

23.2. Hər bir mülkiyyətçinin payı hüquqmüəyyənedici sənəddə müəyyən olunmuş nisbətə (məsələn, kəsr, faiz, torpaq sahəsinin ölçüsü - hektarla, digər daşınmaz əmlakın ölçüsü - kvadratmetrlə və s.)" uyğun olaraq "Pay" qrafasında yazılır.

23.3. Paylar naturada müəyyən olunmuşdursa, "Pay" qrafasında daşınmaz əmlakın müəyyən edilmiş sahələrinə (torpaq sahəsinin ölçüsü - hektarla, digər daşınmaz əmlakın ölçüsü - kvadratmetrlə) uyğun yazılır.

23.4. Daşınmaz əmlak ümumi birgə mülkiyyətdə olduğu halda "Hüquq sahibi"qrafasında bütün hüquq sahibləri göstərilir və "Pay" qrafasında "birgə" sözü yazılır.

**24. III fəsildə saxlanılan məlumatlar**

24.1. Reyestrin III fəslində aşağıdakı məlumatlar saxlanılır:

24.1.1. məhdudiyyətin növü;

24.1.2. məhdudiyyətin qoyulması üçün əsaslar (o cümlədən sənədlər);

24.1.3. məhdudlaşdırma predmetinin təsviri;

24.1.4. məhdudiyyətin müddəti;

24.1.5. məhdudiyyətin əsas şərtləri;

24.1.6. hüququ məhdudlaşdırılan və xeyrinə hüquq məhdudlaşdırılan şəxslər;

24.1.7. məhdudiyyətin ləğvi.

**25. Mülkiyyət və digər əşya hüquqlarının məhdudlaşdırılmasının növünün göstərilməsi**

Mülkiyyət hüququ istisna olmaqla digər əşya hüquqlarının növü, habelə mülkiyyət və digər əşya hüquqlarının məhdudlaşdırılmasının (bundan sonra - məhdudlaşdırma) növü III fəslin "Məhdudlaşdırmanın növü" qrafasında göstərilir.

**26. Məhdudlaşdırmaya əsas olmuş sənədin rekvizitlərinin göstərilməsi**

Məhdudlaşdırmaya əsas olmuş sənədin rekvizitləri III fəslin "Sənədlər - əsaslar" qrafasında göstərilir. Əsasında dövlət reyestrinə daşınmaz əmlak obyekti barədə məlumatlar daxil edilən sənədlərin rekvizitləri bu Qaydaların 21.8-ci bəndinə uyğun olaraq doldurulur.

**27. Məhdudlaşdırmanın predmeti, müddəti, əsas şərtləri, hüququ məhdudlaşdırılan və xeyrinə hüquq məhdudlaşdırılan şəxslər barədə məlumatların daxil edilməsi**

27.1. Məhdudlaşdırmanın predmeti barədə məlumatlar III fəslin "Məhdudlaşdırma predmetinin təsviri" qrafasına daxil edilir. Əgər məhdudlaşdırma daşınmaz əmlak obyektinin bütün hissələrinə şamil edilirsə, III fəslin "Məhdudlaşdırma predmetinin təsviri" qrafasına "Bütün əmlak" sözləri yazılır. Əgər məhdudlaşdırma daşınmaz əmlak obyektinin bir hissəsinə şamil edilirsə, "Məhdudlaşdırma predmetinin təsviri" qrafasına həmin hissəyə (liter, ümumi sahə, yaşayış sahəsi və s.) dair məlumatlar daxil edilir. Bu Qaydaların 8 nömrəli Əlavəsi ilə müəyyən edilmiş formada tərtib olunan ipoteka predmetinə tutmanın yönəldilməsi haqqında bildirişin dövlət qeydiyyatı ipoteka saxlayanın ərizəsi əsasında "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun 36-cı maddəsinə uyğun olaraq aparılır.

27.2. Torpaq sahələri, o cümlədən meşələr üzrə məhdudlaşdırma ilə əlaqədar normativ hüquqi aktlara əsasən, torpaq sahəsinin kateqoriyası və meşə qrupu, habelə meşənin qoruyucu kateqoriyası göstərilir.

27.3. Daşınmaz əmlakın dünya, ölkə və yerli əhəmiyyətli tarix və mədəniyyət abidəsi olub-olmaması göstərilir.

27.4. Məhdudlaşdırmanın başlama və bitmə müddəti və ya başlama və qüvvədə olma müddəti III fəslin "Müddət" qrafasında göstərilir.

27.5. Əgər məhdudlaşdırmanın müddəti məhdudlaşdırma üçün əsas olmuş sənəddə müəyyən edilməmişdirsə, həmin qrafada "Müddət müəyyən edilməmişdir" sözləri yazılır.

27.6. Məhdudlaşdırmanın əsas şərtləri barədə məlumatlar III fəslin "Əsas şərtlər" qrafasına daxil edilir.

27.7. Hüququ məhdudlaşdırılan və xeyrinə hüquq məhdudlaşdırılan şəxs barədə məlumatlar III fəslin müvafiq olaraq "Hüququ məhdudlaşdırılan şəxs" və "Xeyrinə hüquq məhdudlaşdırılan şəxs" qrafalarına daxil edilir. Belə məlumatların məzmunu bu Qaydaların 19-cu hissəsi ilə müəyyən edilir.

**28. II və III fəsillərin məlumatlarının qüvvədən düşməsi ilə bağlı qeydin aparılması**

28.1. II və III fəsillərdə qeydiyyata alınmış hüquqlar və ya hüquqların məhdudlaşdırılması ləğv edildikdə müvafiq qeydlərin qüvvədən düşməsi ilə bağlı qeyd aparılır.

28.2. İpoteka istisna olmaqla digər hüquqların məhdudlaşdırılması ilə bağlı müəyyən edilmiş müddət bitdikdə həmin məhdudiyyət avtomatik olaraq götürülür.

28.3. Hüquqlar və ya hüquqların məhdudlaşdırılmasının qüvvədən düşməsi ilə bağlı qeyd aparılması zamanı ləğvin qeydiyyat tarixi göstərilir və qeydiyyat orqanının müvafiq vəzifəli şəxsinin təkmil sertifikatlı gücləndirilmiş elektron imzası ilə qeyd imzalanır.

**29. Dövlət reyestrində düzəlişlərin aparılması**

29.1. Qanunun 16-cı maddəsində nəzərdə tutulmuş düzəlişlər müvafiq fəslin "Dəyişikliyin (düzəlişin) məzmunu" qrafasına daxil edilir və vəzifəli şəxs tərəfindən təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə imzalanır. Müvafiq fəslin "Sənədlər - əsaslar" qrafasında isə belə dəyişiklik və ya düzəlişlər edilməsi üçün əsas olmuş sənədlərin rekvizitləri göstərilir.

29.2. Daşınmaz əmlakın dövlət reyestrində düzəliş edilməsi barədə ərizə,daşınmaz əmlakın dövlət reyestrində edilmiş düzəliş barədə elektron bildiriş vədaşınmaz əmlakın dövlət reyestrində düzəlişə razılıq verilməsi barədə elektron bildiriş bu Qaydaların müvafiq olaraq 9, 10 və 11 nömrəli Əlavələri ilə müəyyən edilmiş formaya uyğun tərtib edilir.

**30. Əvvəllər yaranmış hüquqlar barədə məlumatların dövlət reyestrinə daxil edilməsi**

Qanunun 4-cü maddəsinə uyğun olaraq qeydiyyat orqanına təqdim edilmiş əvvəl yaranmış hüquqlar barədə məlumatlar bu Qaydalarda nəzərdə tutulmuş qaydada dövlət reyestrinə daxil edilir.

## "Daşınmaz əmlakın dövlət reyestrinin aparılması qaydaları, o cümlədən reyestrdə saxlanılan məlumatların tərkibi"nə **1 nömrəli əlavə**

**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə**

**Daşınmaz əmlak üzərində _______hüquqların dövlət qeydiyyatı, onların məhdudlaşdırılmasına və ləğvinə dair**

**ƏRİZƏ**

| Ərizəçi haqqında məlumatlar | |
|---|---|
| Fiziki şəxsin soyadı, adı və atasının adı, hüquqi şəxsin adı | |
| FİN-i (hüquqi şəxsin VÖEN-i) | |
| Etibarnamənin və ya səlahiyyət verən digər sənədin nömrəsi və tarixi | |
| Nümayəndənin soyadı, adı və atasının adı | |
| Hüquq sahibinin əlaqə telefonu, elektron poçt ünvanı | |
| Nümayəndənin əlaqə telefonu, elektron poçt ünvanı | |
| Hüquq sahibinin ünvanı | |
| Nümayəndənin ünvanı | |

**Xahişin məzmunu**

**Ərizənin tələb olunan icra müddəti**

| Daşınmaz əmlak haqqında məlumatlar | |
|---|---|
| Növü | |
| Ünvanı | |
| Daşınmaz əmlakın dövlət reyestr nömrəsi (olduğu təqdirdə) | |

**Ərizəyə əlavə olunan sənədlər**

**Ərizəçi tərəfindən elektron imza ilə imzalanmışdır.**
**Tarix: _________**

## "Daşınmaz əmlakın dövlət reyestrinin aparılması qaydaları, o cümlədən reyestrdə saxlanılan məlumatların tərkibi"nə **2 nömrəli əlavə**

**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə**

**Daşınmaz dövlət əmlakı üzərində icarə (istifadə) hüququnun daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmasına dair**

**MÜRACİƏT**

| Müraciət edən haqqında məlumatlar | |
|---|---|
| Müvafiq icra hakimiyyəti orqanının adı | |
| Ünvanı | |
| Etibarnamənin və ya səlahiyyət verən digər sənədin nömrəsi və tarixi | |
| Nümayəndənin soyadı, adı və atasının adı | |
| Nümayəndənin FİN-i | |
| Əlaqə telefonu | |
| Elektron poçt ünvanı | |

Müraciətin mətni

Bildiririk ki, ____________________________________ ünvanında yerləşən __________________ dair _________ tərəfindən ____ il ______ tarixli ________ nömrəli sərəncam verilmiş və __________________________ ilə ____ il _____________ tarixli ___________ nömrəli icarə (istifadə) müqaviləsi bağlanılmışdır. Həmin sərəncam və müqavilədən irəli gələn hüquqların "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 19.1-ci maddəsinə uyğun olaraq daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmasını məqsədəuyğun hesab edirik.

Ərizənin tələb olunan icra müddəti

Elektron imza ilə imzalanmışdır.
Tarix: __________

## "Daşınmaz əmlakın dövlət reyestrinin aparılması qaydaları, o cümlədən reyestrdə saxlanılan məlumatların tərkibi"nə **3 nömrəli əlavə**

**Daşınmaz əmlak üzərində _______ hüquqların dövlət qeydiyyatı, onların məhdudlaşdırılmasına və ləğvinə dair ərizənin qəbul edildiyi barədə**

**BİLDİRİŞ**

| | |
|---|---|
| Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti | |
| Ərizəçinin soyadı, adı və atasının adı, hüquqi şəxsin adı | |
| Ərizənin qeydiyyat nömrəsi | |
| Ərizənin qeydiyyat və son icra tarixləri | |
| Ərizəyə əlavə olunan sənədlər | |
| İnventarlaşdırmanın aparılacağı tarix (ərizənin icra edilməsi üçün qeyd olunan tarixdə 09.00–18.00 arasında daşınmaz əmlaka baxış keçirilməsinə şərait yaradılmalıdır) | |

**Bu bildiriş "Daşınmaz Əmlakın Elektron Reyestri və Kadastrı" informasiya sistemində avtomatik olaraq yaradılmışdır.**

## "Daşınmaz əmlakın dövlət reyestrinin aparılması qaydaları, o cümlədən reyestrdə saxlanılan məlumatların tərkibi"nə **4 nömrəli əlavə**

___ _________ 20___ il                    № ________

_______________________________________________

(Sorğunun ünvanlandığı qurumun adı)

**Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı ilə bağlı təqdim edilən sənədlərə münasibətin bildirilməsi barədə**

**SORĞU**

_______________________________________________ünvanında

yaşayan _______________________________________________

(soyadı, adı və atasının adı, hüquqi şəxsin adı)

_______________________________________________ ünvanında yerləşən

(ünvan)

daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı ilə bağlı _______________ qeydiyyat nömrəli ərizə ilə müraciət etmişdir.

Təqdim edilən _______________________________________________

(sənədlərin adları)

sənədlərinin həqiqiliyinə dair qeydiyyat orqanının şübhəsinin olması səbəbindən "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 14.2-ci maddəsinə əsasən, göstərilən məsələyə 7 (yeddi) gün müddətində münasibət bildirməyinizi xahiş edirik.

Qoşma _________________ (____)

**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin vəzifəli şəxsi**

**Elektron imza ilə imzalanmışdır.**

## "Daşınmaz əmlakın dövlət reyestrinin aparılması qaydaları, o cümlədən reyestrdə saxlanılan məlumatların tərkibi"nə **5 nömrəli əlavə**

**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə**

**Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatına alınmasının dayandırılması barədə**

**ƏRİZƏ**

| Ərizəçi haqqında məlumatlar | |
|---|---|
| Soyadı, adı və atasının adı, hüquqi şəxsin adı | |
| FİN-i (hüquqi şəxsin VÖEN-i) | |
| Etibarnamənin və ya səlahiyyət verən digər sənədin nömrəsi və tarixi | |
| Nümayəndənin soyadı, adı və atasının adı | |
| Ərizəçinin əlaqə telefonları, elektron poçt ünvanı | |
| Nümayəndənin əlaqə telefonları, elektron poçt ünvanı | |
| Ərizəçinin ünvanı | |
| Nümayəndənin ünvanı | |

**Ərizənin mətni**

Xahiş edirəm hüquq əldə edən (əqdin tərəfi və ya onun vəkil etdiyi şəxs) olmağımı nəzərə alaraq, _________________________ ünvanında yerləşən daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatına dair __________ nömrəli ərizəmin icrasını _______________________________________________

(dayandırılma səbəbi göstərilir)

"Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 14.3-cü maddəsinə uyğun olaraq 1 (bir) ay müddətinə dayandırasınız.

**Ərizəçi tərəfindən elektron imza ilə imzalanmışdır.**

**Tarix:** __________

## "Daşınmaz əmlakın dövlət reyestrinin aparılması qaydaları, o cümlədən reyestrdə saxlanılan məlumatların tərkibi"nə **6 nömrəli əlavə**

___ __________ 20_____ il                    № ______________

**Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatına alınmasından imtina edilməsi barədə**

**BİLDİRİŞ**

**Ərizəçi** _______________________________________________

(soyadı,adı və atasının adı, hüquqi şəxsin adı)

**Bildirişin mətni**

_______________________________________________ünvanında

yerləşən ____________________ üzərində hüquqların daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınması ilə bağlı ____________ nömrəli __________________ tarixli ərizənizə baxılmışdır. Aparılan araşdırma zamanı ____________________________ müəyyən edilmiş və bu səbəbdən ərizənizin icrası mümkün olmamışdır.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin müddəalarına əsasən hüquqların dövlət qeydiyyatından imtina edilir.

| | |
|---|---|
| **Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin vəzifəli şəxsi** | |

**Elektron imza ilə imzalanmışdır.**

“Daşınmaz əmlakın dövlət reyestrinin aparılması qaydaları, o cümlədən reyestrdə saxlanılan məlumatların tərkibi”nə **7 nömrəli əlavə**

**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə**

**Məhv olunmuş daşınmaz əmlakın qeydiyyatının ləğvi barədə**

**ƏRİZƏ**

| **Ərizəçi haqqında məlumatlar** | |
|---|---|
| Soyadı, adı və atasının adı, hüquqi şəxsin adı | |
| Fiziki şəxsin FİN-i | |
| Hüquqi şəxsin VÖEN-i | |
| Etibarnamənin və ya səlahiyyət verən digər sənədin nömrəsi və tarixi | |
| Nümayəndənin soyadı, adı və atasının adı | |
| Nümayəndənin FİN-i | |
| Əlaqə telefonu | |
| Elektron poçt ünvanı | |

**Ərizənin mətni**

_______________ ünvanında yerləşən _______________ öz iradəmlə söküb tam məhv etmişəm və bəyan edirəm ki, həmin əmlak üzərində dövlət qeydiyyatına alınmış mülkiyyət hüququ yüklü deyildir. Bu _______________ reyestr nömrəli tarixli çıxarışla mənə (bizə) məxsusdur. Bu səbəbdən “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun 18.2-ci maddəsinə uyğun olaraq göstərilən əmlak üzərində mülkiyyət hüququnun qeydiyyatının ləğv edilməsini xahiş edirəm.

**Ərizəyə əlavə olunan sənədlər**

**Ərizəçi tərəfindən elektron imza ilə imzalanmışdır.**

**Tarix:** __________

“Daşınmaz əmlakın dövlət reyestrinin aparılması qaydaları, o cümlədən reyestrdə saxlanılan məlumatların tərkibi”nə **9 nömrəli əlavə**

**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə**

**Daşınmaz əmlakın dövlət reyestrində düzəliş edilməsi barədə**

**ƏRİZƏ**

| **Ərizəçi haqqında məlumatlar** | |
|---|---|
| Soyadı, adı və atasının adı, hüquqi şəxsin adı | |
| FİN-i (hüquqi şəxsin VÖEN-i) | |
| Etibarnamə və ya səlahiyyət verən digər sənədin nömrəsi və tarixi | |
| Nümayəndənin soyadı, adı və atasının adı | |
| Nümayəndənin FİN-i | |
| Əlaqə telefonu | |
| Elektron poçt ünvanı | |

**Ərizənin mətni**

Xahiş edirəm maraqlı şəxs olmağımı nəzərə alaraq, _______________ ünvanında yerləşən _________ reyestr nömrəli daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı zamanı _______________ ilə bağlı buraxılan texniki səhvin “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun 16.1-ci maddəsinə uyğun olaraq aradan qaldırılmasını təmin edəsiniz.

**Ərizəçi tərəfindən elektron imza ilə imzalanmışdır.**

**Tarix:** _________

“Daşınmaz əmlakın dövlət reyestrinin aparılması qaydaları, o cümlədən reyestrdə saxlanılan məlumatların tərkibi”nə **8 nömrəli əlavə**

**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə**

**İpoteka predmetinə tutmanın yönəldilməsi haqqında**

**BİLDİRİŞ**

| **İpoteka saxlayan haqqında məlumatlar** | |
|---|---|
| Soyadı, adı və atasının adı, hüquqi şəxsin adı | |
| Fiziki şəxsin FİN-i | |
| Hüquqi şəxsin VÖEN-i | |
| Etibarnamənin və ya səlahiyyət verən digər sənədin nömrəsi və tarixi | |
| Nümayəndənin soyadı, adı və atasının adı | |
| Nümayəndənin FİN-i | |
| Əlaqə telefonu | |

**Bildirişin məqsədi**

| **Tutmanın yönəldildiyi ipoteka predmeti** | |
|---|---|
| İpoteka predmeti olan daşınmaz əmlak | |
| İpotekanın qeydiyyatı anı və nömrəsi | |

**İcra olunmalı öhdəlik barədə məlumat**

**İpoteka predmetinə notariusun icra qeydi əsasında tutmanın yönəldilməsi barədə xəbərdarlıq barədə**

**Bildirişə əlavə olunan sənədlər**

**Ərizəçi tərəfindən elektron imza ilə imzalanmışdır.**

**Tarix:** ___________

“Daşınmaz əmlakın dövlət reyestrinin aparılması qaydaları, o cümlədən reyestrdə saxlanılan məlumatların tərkibi”nə **10 nömrəli əlavə**

| ___ ___________ 20_____ il | № _______________ |
|---|---|

**Daşınmaz əmlakın dövlət reyestrində edilmiş düzəliş barədə**

**ELEKTRON BİLDİRİŞ**

**Bildirişin ünvanlandığı şəxs** _______________________

(soyadı,adı və atasının adı, hüquqi şəxsin adı)

**Bildirişin mətni**

_______________________ ünvanında yerləşən reyestr nömrəli _______________ daşınmaz əmlak üzərində hüquqların qeydiyyatı üçün əsas olan sənədlərdəki məlumatlar dövlət reyestrinə daxil edildiyi zaman _______________ (texniki səhv qeyd olunur) buraxılmış texniki səhv “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun 16.1-ci maddəsinə uyğun olaraq aradan qaldırılmışdır.

| **Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin vəzifəli şəxsi** | |
|---|---|

**Elektron imza ilə imzalanmışdır.**

“Daşınmaz əmlakın dövlət reyestrinin aparılması qaydaları, o cümlədən reyestrdə saxlanılan məlumatların tərkibi”nə **11 nömrəli əlavə**

| ___ ___________ 20_____ il | № _______________ |
|---|---|

**Daşınmaz əmlakın dövlət reyestrində düzəlişə razılıq verilməsi barədə**

**ELEKTRON BİLDİRİŞ**

**Bildirişin ünvanlandığı şəxs** _______________________

(soyadı,adı və atasının adı, hüquqi şəxsin adı)

**Bildirişin mətni**

_______________________ ünvanında yerləşən__________ reyestr nömrəli _______________ daşınmaz əmlak üzərində hüquqların qeydiyyatı üçün əsas olan sənədlərdəki məlumatlar dövlət reyestrinə daxil edildiyi zaman _______________ (texniki səhv qeyd olunur) texniki səhvə yol verildiyi müəyyən edilmişdir. “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun 16-cı maddəsinin tələblərini nəzərə alaraq, 15 (on beş) iş günü müddətində həmin səhvin aradan qaldırılması məsələsinə razılıq verməyinizi xahiş edirik.

| **Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin vəzifəli şəxsi** | |
|---|---|

**Elektron imza ilə imzalanmışdır.**

# Mehriban Əliyevadan növbəti humanist təşəbbüs

## Tibb işçilərinin sosial rifahının yüksəldilməsi istiqamətində mühüm addım atılıb

**Səhiyyə sisteminin inkişafı yalnız müasir xəstəxanaların, yeni tibbi avadanlıqların və qabaqcıl texnologiyaların tətbiqi ilə ölçülmür. Bu sistemin inkişafının əsas qüvvəsi hər gün insan sağlamlığının keşiyində dayanan tibb işçiləridir.**



Həkimdən tibb bacısına, təcili tibbi yardım əməkdaşından dar ixtisaslı mütəxəssisədək hər bir səhiyyə işçisinin peşəkarlığı və əməyə məsuliyyətli münasibəti bu xidmətin keyfiyyətinin müəyyənləşməsində mühüm rol oynayır. Məhz buna görə tibb işçilərinin sosial rifahının yaxşılaşdırılması, əməyinin layiqincə qiymətləndirilməsi və peşənin nüfuzunun artırılması dövlət siyasətinin mühüm istiqamətlərindən birini təşkil edir.

Bu baxımdan, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın TƏBİB sistemində çalışan tibb işçilərinin əməkhaqlarının artırılması ilə bağlı təşəbbüsü xüsusi əhəmiyyət daşıyır. Təşəbbüs tibb işçilərinin maddi rifahının yüksəldilməsi ilə yanaşı, səhiyyə sistemində insan kapitalının daha da gücləndirilməsinə xidmət edir. Prezident İlham Əliyev bu təşəbbüsü müsbət qarşılayaraq onun icrası ilə bağlı müvafiq tapşırıq verib. Bununla da ölkədə tibb işçilərinə dövlət qayğısının gücləndirilməsi istiqamətində növbəti mühüm addım atılıb. Yeni əməkhaqqı qaydalarının 2026-cı il sentyabrın 1-dən tətbiq olunması nəzərdə tutulur. İslahat TƏBİB-in tabeliyindəki tibb müəssisələrində çalışan 72212 tibb işçisini əhatə edir. Bu rəqəm islahatın miqyasını və səhiyyə sistemində çalışan insanların sosial müdafiəsinin dövlət siyasətindəki əhəmiyyətini aydın göstərir.

Yeni mexanizmin mühüm xüsusiyyətlərindən biri əməkhaqqı artımlarının diferensial yanaşma əsasında müəyyənləşdirilməsidir. Belə ki, əməkhaqqının formalaşmasında vəzifə, ixtisas, iş yükü, fəaliyyət göstəriciləri və regionlarda mövcud kadr təminatı kimi amillər nəzərə alınacaq. Bu yanaşma səhiyyə sahəsində əməyin və məsuliyyətin xüsusiyyətlərini daha düzgün qiymətləndirməyə imkan verir.

İslahatın maliyyə miqyası da diqqətəlayiqdir. TƏBİB sistemi üzrə illik əməkhaqqı fondu 189 milyon manat artırılıb. Bu rəqəm tibb işçilərinin sosial rifahının gücləndirilməsi, onların əməyinin daha yüksək qiymətləndirilməsi və yeni əməkhaqqı mexanizmlərinin tətbiqi üçün dövlət tərəfindən ayrılan əlavə maliyyə təminatının göstəricisidir. Yeni əməkhaqqı siyasətində səhiyyənin mühüm və daha çox məsuliyyət tələb edən sahələrinə də diqqət yetirilir. İlkin səhiyyə, təcili tibbi yardım, anesteziologiya-reanimatologiya xidmətləri, eləcə də regionlarda kadr çatışmazlığı müşahidə olunan dar ixtisaslar üzrə çalışan həkimlər üçün əhəmiyyətli artımlar nəzərdə tutulur. Bu, təsadüfi yanaşma deyil. Çünki səhiyyə xidmətlərinin əlçatanlığı ilk növbədə peşəkar kadrların bütün ölkə üzrə düzgün və səmərəli bölüşdürülməsindən asılıdır. Böyük şəhərlərlə yanaşı, rayon və kəndlərdə də yüksəkixtisaslı həkimlərin fəaliyyət göstərməsi insanların keyfiyyətli tibbi xidmətə çıxış imkanlarını genişləndirir. Bu baxımdan, regionlarda kadr çatışmazlığının aradan qaldırılması üçün nəzərdə tutulan xüsusi stimullaşdırıcı mexanizmlər mühüm əhəmiyyət kəsb edir. Regionlarda kadr çatışmazlığı olan ixtisaslar üzrə xüsusi stimullaşdırıcı əlavələr və müəyyən xidmətlər üzrə işin nəticələrinə görə əlavə ödənişlərə 1,3 əmsalının tətbiqi həkimlərin regionlara cəlb olunmasına əlavə stimul yaradacaq. Nəticədə həm regionlarda kadr təminatının yaxşılaşdırılması, həm də əhalinin tibbi xidmətlərə əlçatanlığının artırılması üçün daha əlverişli şərait formalaşacaq. Əslində, bu qərar son illər səhiyyə sistemində həyata keçirilən ardıcıl sosial siyasətin məntiqi davamıdır. 2023-cü ildən TƏBİB-in tabeliyindəki müəssisələrdə əməkhaqlarının artırılması, 2025-ci ildə minimum əməkhaqqının yüksəldilməsi ilə əlaqədar növbəti artımların həyata keçirilməsi, Səhiyyə Nazirliyinin tabeliyində olan körpələr evlərinin işçilərinin tarif maaşlarına 1,5-3 dəfə artım əmsallarının tətbiqi dövlətin tibb və səhiyyə əməkdaşlarının sosial rifahına davamlı diqqətinin göstəriciləridir. Yeni əməkhaqqı islahatı məhz bu ardıcıl siyasətin növbəti mərhələsidir. Burada məqsəd yalnız tibb işçilərinin gəlirlərinin artırılması ilə məhdudlaşmır, eyni zamanda səhiyyə sisteminin insan resurslarını gücləndirmək, peşənin cəlbediciliyini yüksəltmək, ixtisaslı kadrların sistemdə saxlanılmasına və yeni mütəxəssislərin bu sahəyə cəlb olunmasına əlverişli şərait yaratmaqdır. Xüsusilə gənc həkimlər üçün peşə seçiminin cəlbediciliyinin artırılması səhiyyənin gələcəyi baxımından mühüm amildir. Müasir səhiyyə sistemi daim yenilənən bilik, yüksək məsuliyyət və davamlı peşəkar inkişaf tələb edir. Tibb işçisinin əməyinin maddi və mənəvi baxımdan layiqincə qiymətləndirilməsi isə bu inkişafın mühüm şərtlərindəndir. Digər tərəfdən, tibb işçilərinin sosial rifahının yüksəldilməsi birbaşa pasiyent məmnuniyyətinə də təsir edir. Peşəkar kadrların motivasiyasının yüksəldilməsi, onların iş şəraitinin və sosial təminatının yaxşılaşdırılması nəticə etibarilə tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

Bu təşəbbüs həm də dövlətin sosial siyasətinin mahiyyətini əks etdirir. İnsanların sağlamlığına xidmət edənlərin sosial rifahı diqqətdən kənarda qala bilməz. Tibb işçisinin əməyinə verilən yüksək qiymət səhiyyə sisteminə, deməli, bütövlükdə cəmiyyətin sağlam gələcəyinə qoyulan sərmayədir. Yeni əməkhaqqı mexanizminin qarşıdakı mərhələdə əsas nəticələrindən biri regionlarda kadr təminatının yaxşılaşdırılması, digər mühüm nəticəsi isə tibbi xidmətlərin keyfiyyətinin və əlçatanlığının daha da yüksəldilməsi olacaq. Bu baxımdan həyata keçirilən islahat səhiyyə sisteminin davamlı inkişafına, tibb işçilərinin sosial müdafiəsinin möhkəmləndirilməsinə və əhalinin tibbi xidmətlərdən məmnunluğunun artırılmasına hesablanmış mühüm dövlət təşəbbüsüdür. Tibb işçilərinə göstərilən bu diqqət bir daha təsdiqləyir ki, insan sağlamlığının qorunması dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Tibb işçisinin əməyinin yüksək qiymətləndirilməsi isə həmin siyasətin ən mühüm və humanist ifadələrindəndir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# TƏBİB-in tabeliyində çalışan tibb işçilərinin əməkhaqları artırılır

**Azərbaycanda səhiyyə sisteminin inkişaf etdirilməsi, bu sahədə qabaqcıl standartların tətbiqi, tibb işçilərinin sosial rifahının gücləndirilməsi daim ölkə rəhbərliyinin diqqət mərkəzində olub, bu istiqamətdə həyata keçirilən tədbirlər ardıcıl xarakter daşıyıb.**

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva tibb işçilərinin maddi rifahının yaxşılaşdırılması, əməyinin yüksək qiymətləndirilməsi və səhiyyə sistemində insan kapitalının gücləndirilməsi məqsədilə TƏBİB-in tabeliyində çalışan tibb işçilərinin əməkhaqqılarının artırılması təşəbbüsü ilə çıxış edib. Prezident İlham Əliyev təşəbbüsü müsbət qarşılayaraq onun icrası ilə bağlı müvafiq tapşırıq verib.

Əməkhaqqı islahatına uyğun olaraq yeni qaydalar 2026-cı il sentyabrın 1-dən tətbiq olunacaq və TƏBİB-in tabeliyindəki tibb müəssisələrində çalışan 72 min 212 tibb işçisini əhatə edəcək. Onlardan 36 min 41-i orta, 20 min 367-si kiçik tibb heyəti, 8 min 675-i ambulator tibbi xidmət göstərən həkimlər, 7 min 129-u isə ilkin səhiyyə, təcili tibbi yardım, anesteziologiya-reanimatologiya xidmətləri, habelə regionlarda kadr çatışmazlığı müşahidə edilən dar ixtisaslar üzrə çalışan həkimlərdir.

İslahat nəticəsində TƏBİB sistemi üzrə illik əməkhaqqı fondu 189 milyon manat artıb.

AZƏRTAC xəbər verir ki, bunu Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) icraçı direktoru Anar Bayramov sentyabrın 2-də keçirilən mətbuat konfransında deyib.

O bildirib ki, əməkhaqqı artımları vəzifə, ixtisas, iş yükü, fəaliyyət göstəriciləri və regionlarda mövcud kadr təminatı nəzərə alınmaqla diferensiallaşdırılacaq. Yeni yanaşma tibb işçisinin peşəkarlığının, məsuliyyətinin və iş yükünün əməkhaqqında daha dolğun əks olunmasını, eyni zamanda fəaliyyət və keyfiyyət göstəriciləri vasitəsilə pasiyent məmnuniyyətinə müsbət təsirin gücləndirilməsini nəzərdə tutur.

Qeyd olunub ki, islahat nəticəsində ilkin səhiyyə xidməti göstərən ailə həkimi və sahə həkimi vəzifələri üzrə çalışan həkim mütəxəssislərin aylıq əməkhaqqı 1150 manatdan 2000 manata çatdırılacaq. Bu, mövcud məbləğlə müqayisədə 850 manat və ya 74 faiz artım deməkdir.

Təcili tibbi yardım xidmətində çalışan həkimlər üçün də əhəmiyyətli artımlar nəzərdə tutulub. Respublika Təcili Təxirəsalınmaz Tibbi Yardım




Mərkəzinin həkiminin əməkhaqqı 1550 manatdan 2200 manata yüksələcək. Bununla yanaşı, tibb mərkəzlərinin təcili tibbi yardım şöbələrində çalışan həkimlərin aylıq əməkhaqqı 1550 manatdan 2500 manata yüksələcək. Beləliklə, artım 950 manat və ya 61 faiz təşkil edəcək. 3A və 3B kateqoriyalı tibb müəssisələrinin təcili tibbi yardım şöbələrində çalışan həkimlərin aylıq əməkhaqqı isə 2100 manatdan 3000 manata çatdırılacaq.

İslahatın əsas istiqamətlərindən biri həkimlərin regionlara cəlb edilməsinin stimullaşdırılması və regionlarda kadr təminatının gücləndirilməsidir. Bu məqsədlə Bakı, Abşeron, Sumqayıt və Gəncə istisna olmaqla, digər şəhər və rayonlarda kadr çatışmazlığının daha çox müşahidə edildiyi ixtisaslar üzrə xüsusi stimullaşdırıcı əlavələr tətbiq olunacaq.

Belə ki, regionlarda çalışan uşaq anestezioloq-reanimatoloqlarının aylıq əməkhaqqı 1450 manatdan 3000 manata yüksələcək. Bu, 107 faiz artım deməkdir. Neonatoloqların əməkhaqqı 1450 manatdan 2400 manata çatdırılacaq ki, bu da 950 manat və ya 66 faiz artım deməkdir. Hemodializ həkimlərinin əməkhaqqı isə 1450 manatdan 2250 manata çatdırılacaq ki, bu da 800 manat və ya 55 faiz artım deməkdir. Həkim çatışmazlığı olan regionlarda mama-ginekologiya, neyrocərrahiyyə, uşaq cərrahiyyəsi, ürək-damar cərrahiyyəsi, üz-çənə cərrahiyyəsi və travmatologiya ixtisasları üzrə həkimlərin aylıq əməkhaqqı 1450 manatdan 2 150 manata yüksələcək. Bu, əlavə 700 manat və ya 48 faiz artım deməkdir.

Həkim çatışmazlığı olan regionlarda həkimlərin fəaliyyətinin stimullaşdırılması məqsədilə əlavə maliyyə mexanizmi də tətbiq olunacaq. Bakı, Abşeron, Sumqayıt və Gəncə istisna olmaqla, həkim çatışmazlığı olan regionlarda cərrahi tibbi xidmətlər, stasionar terapevtik tibbi xidmətlər, fizioterapiya və reabilitasiya xidmətləri, anesteziya xidmətləri, invaziv radioloji xidmətlər üzrə fəaliyyət nəticələrinə görə hesablanan işin nəticəsinə görə əlavə ödənişlərinə 1,3 əmsalı tətbiq ediləcək. Beləliklə, regionlarda çalışan həkimlər sabit əməkhaqqı artımı ilə yanaşı, işin nəticəsinə görə əlavə ödənişlərinə tətbiq olunan əmsaldan da faydalanacaqlar.

Ambulator tibbi xidmətlər göstərən həkimlər üçün hər pasiyentə görə hesablanan mövcud kiçik faiz ödənişləri əvəzinə aylıq baxış sayına əsaslanan diferensiallaşdırılmış sabit əlavə tətbiq olunacaq.

Eyni zamanda əməkhaqqı qaydalarında həkimlərin həvəsləndirici ödənişlərini göstərilən tibbi xidmətin keyfiyyəti və pasiyent məmnunluğu ilə birbaşa bağlayan yeni yanaşma tətbiq edilir. İslahat tibbi xidmətlərin daha pasiyentyönümlü təşkilini və keyfiyyət göstəricilərinin maddi stimula çevrilməsini hədəfləyir. Xidmət keyfiyyəti nə qədər yüksək qiymətləndirilirsə, həkimin əldə etdiyi ödəniş də bir o qədər çox olur.

Bu yanaşma keyfiyyətli və qayğıkeş xidməti təşviq edir, həkimləri pasiyentlərlə daha keyfiyyətli münasibət qurmağa həvəsləndirir.

Əməkhaqqı artımında baş və böyük tibb heyətinin üzərinə düşən məsuliyyət də ayrıca nəzərə alınıb. Baş tibb bacılarının orta və kiçik tibb heyətinin fəaliyyətinin təşkili, tibbi sənədləşmə və uçot, pasiyent təhlükəsizliyi, infeksiyaya nəzarət və xidmət keyfiyyətinin təmin edilməsində mühüm rolu nəzərə alınaraq, tibb müəssisəsinin kateqoriyasından asılı olaraq diferensial artımlar tətbiq ediləcək. Misal üçün, 3B kateqoriyalı tibb müəssisəsində çalışan baş tibb bacısının aylıq əməkhaqqı 1 454 manatdan 2 125 manata yüksələcək ki, bu da 671 manat və ya 46 faiz artım deməkdir.

Orta və kiçik tibb heyəti də islahatın əhatə dairəsindədir. 36 min 41 orta tibb işçisinin aylıq əməkhaqqı artımı 17 faiz, 20 min 367 kiçik tibb işçisinin əməkhaqqı artımı isə 18 faiz təşkil edəcək.

İslahatın tətbiqi ilə tibb işçilərinin sosial rifahının gücləndirilməsi, peşənin cəlbediciliyinin artırılması, həkimlərin regionlara cəlb edilməsinin stimullaşdırılması, fəaliyyət nəticələrinin daha dolğun qiymətləndirilməsi və göstərilən tibbi xidmətlər üzrə pasiyent məmnuniyyətinin yüksəldilməsi hədəflənir.





PUBLİSİSTİK QEYDLƏR

# Naxçıvanın yeni dövranı

## BU DÖVRÜN YARADICISI İLHAM ƏLİYEVDİR

Azərbaycanın uzaq və ayrılmaz bir parçası olan Naxçıvan!

*Naxçıvan uzaqda yerləşsə də, heç zaman könüldən iraq olmayıb!*

*Əksinə, hər zaman qəlbi böyük Azərbaycanla birlikdə döyünüb!*

**Düşmənlərimiz, bədxahlarımız illər və əsrlər boyu onu Azərbaycandan qoparıb almaq üçün min hiylə və fitnə qurublar!**

Lakin könlü candan ayırmaq mümkün olmayıb!

Təkcə xəritəyə baxmaq yetər ki, bu məkrli oyunların fəsadlarını görəsən!

*Ətlə dırnaq arasına girərək bu gözəl diyarı quruda yerləşən "uzaq adaya" çeviriblər.*

Bununla da Naxçıvanda yaşayanların doğma Azərbaycanla birbaşa əlaqələrini qırıb, daim çətinləşdirib, müxtəlif əngəllər yaradıblar!

Elə buranın əhalisi üçün də daim çətinliklər, süni əngəllər törədiblər!

Lakin heç zaman əyə, sındıra bilməyiblər!

Nə də ki, Azərbaycandan birdəfəlik qoparmağı bacarıblar!

❖ ❖ ❖

Naxçıvanın iqlimi sərt, təbiəti rəngarəngdir...

Təbii sərvətlərlə zəngindir...

Burada adı müqəddəs "Qurani-Kərimə" düşən "Əshabi-Kəf" abidəsi mövcuddur.

Tarixlərə şahid Bəzz qalası, gözəlliyi ilə gözoxşayan Möminə xatun türbəsi bu torpağın milli sərvətidir.

Duz dağı mağarası, çoxsaylı milli-mədəni, tarixi abidələri daim insanları özünə cəlb edir.

**Naxçıvanın ən qiymətli sərvəti isə orada yaşayan etibarlı, həqiqətsevər, mərd və cəsarətli insanlarıdır!**

*Naxçıvan Azərbaycana görkəmli şəxsiyyətlər, tarixi simalar bəxş edib!*

**Naxçıvan Ulu Öndər Heydər Əliyevin, möhtərəm Prezidentimiz İlham Əliyevin vətənidir!**

*Ulu Öndər Heydər Əliyev həyatının ən çətin dövrlərindən bir qismini Naxçıvanda yaşayıb, Naxçıvana arxalanıb!*

**Həm də Naxçıvanın xilaskarına çevrilib, onu soyuqdan, aclıqdan, düşmən işğalından xilas edib!**

İkinci müstəqillik dövrünün başlanması həm də naxçıvanlılar üçün yeni sınaqlar dövrünün başlanmasına çevrildi.

❖ ❖ ❖

Çar Rusiyasının Azərbaycan torpaqları hesabına ermənilərə dövlət yaratması Naxçıvana da böyük zərər yetirdi.

Hətta onun mövcudluğu böyük təhlükə altına düşmüşdü.

**Bunun qarşısı isə 13 oktyabr 1921-ci ildə Azərbaycan, Ermənistan və Gürcüstan sovet sosialist respublikaları ilə imzalanmış Qars müqaviləsi ilə alındı.**

Qars müqaviləsi 1922-ci ilin mart-iyun aylarında təsdiq edilib və həmin ilin 11 sentyabrından qüvvəyə minib.

*Qars müqaviləsinin verdiyi hüquqlar sayəsində Naxçıvanın ərazi bütövlüyü təmin olunmuşdu.*

20 maddə və 3 əlavədən ibarət olmaqla müddətsiz imzalanan müqavilənin 5-ci maddəsi Naxçıvanın statusu ilə bağlıdır.

**Lakin ötən əsrin sonlarına yaxın Naxçıvanın toxunulmazlığını, bütövlüyünü və Azərbaycana bağlılığını qoruyub saxlayan kağız sənədlər yox, xəyanətkarların məkrli əməllərindən və qəsdlərindən qorunmaq üçün Naxçıvana üz tutan Ulu Öndər Heydər Əliyev və cəsur Naxçıvan xalqı oldu!**

*Naxçıvan erməni murdarları ilə döyüşlərdə çoxsaylı övladlarını şəhid verdi!*

*Lakin geri durmadı, heç kəs vətənin ağır günündə bu müqəddəs torpağı tərk etmədi!*

**Ulu Öndər Heydər Əliyev burada olduğu müddətdə Naxçıvanın şərəf tarixinə çevrilən bir sıra uzaqgörən və qətiyyətli addımlar atdı!**

* Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağı Naxçıvan Muxtar Respublikasının bayrağı kimi qəbul edildi və Azərbaycana da belə bir dəyişiklik etmək tövsiyə olundu!

* Moskvanın əsarətindən və tabeliyindən qurtulmaq istəməyən, Azərbaycanı müstəqil dövlət kimi görə bilməyən ölkənin ozamankı qorxaq və qətiyyətsiz başçıları SSRİ-nin saxlanılması barədə referendum keçirərkən Naxçıvan bundan imtina etdi!

*Tarixinin sınaqlı və ən ağır dövrlərindən birini yaşayan Naxçıvana ozamankı Azərbaycan rəhbərliyi heç bir kömək göstərmirdi!*

**Bu çətin məqamda Ulu Öndər Heydər Əliyev xilaskar missiyasını öz üzərinə götürməklə şəxsi nüfuzundan istifadə edərək bu qədim diyarın varlığını qoruyub saxladı!**

*Qardaş Türkiyə ilə aparılan danışıqlar bu sahədə uğurlu nəticələrini verdi.*

**Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Araz çayı üzərində inşa edilən və sonradan "Ümid körpüsü" adını alan qurğunun tikintisinə 1991-ci ildə başlandı və 28 may 1992-ci ildə sona çatdı!**

Uzunluğu 288, eni 12 metr olan körpü Türkiyənin Dilucu və Azərbaycanın Sədərək sərhəd keçid məntəqələrini birləşdirir.

Blokada səbəbindən Naxçıvanın məruz qaldığı çətinliklərin təsirlərinin azaldılmasında "Ümid körpüsü"nün müstəsna rolu oldu!

Bu körpü təkcə Azərbaycanla Türkiyəni birləşdirmir, həm də türk dünyasının bütünlüyünü təmin edir!

Körpünün açılışı hər iki qardaş xalqın birliyinin nümayişinə, böyük sevinc və coşqu ilə müşayiət edilən təntənəyə çevrildi.

**Türkiyənin ozamankı rəhbəri Süleyman Dəmirəl 150 nəfərlik nümayəndə heyəti - 60 deputat və 40-dan çox KİV nümayəndələri ilə "Ümid"in açılışında iştirak etdi.**

**Açılış mərasimində Süleyman Dəmirəl körpünün əhəmiyyətini yüksək qiymətləndirdi:** *"Bu körpü, sadəcə, Türkiyə və Azərbaycanı deyil, iki ayrı dünyanı, Avropayla Asiyanı, Avropayla Qafqazları - hamısını bir-birinə bağlayacaqdır.*

*Məhz onu dəyərli edən də budur".*

**Ulu Öndər Heydər Əliyev isə körpünün tarixi əhəmiyyəti, Azərbaycan-Türkiyə qardaşlığının möhkəmlənməsindəki rolu barədə maraqlı fikirlər söyləmişdir:**

*"Ermənistanla Azərbaycan arasında olan münaqişə, Ermənistanın Azərbaycana etdiyi təcavüz nəticəsində Azərbaycanın böyük hissəsi ilə, Bakı ilə Naxçıvanın əlaqələri tamamilə qırılmışdı. Naxçıvana kömək lazım idi. Naxçıvana yardım əlini, kömək əlini məhz Türkiyə, türk xalqı uzatdı, Türkiyənin böyük şəxsiyyəti, türk dünyasının böyük lideri, mənim əziz dostum, qardaşım Süleyman Dəmirəl uzatdı. Biz o vaxt Azərbaycanla Türkiyəni bir-birinə bağlaya bilən bir körpünün - Araz çayı üzərində körpünün tikilməsinə başladıq. Bu körpünü müştərək tikdik, amma bunun bütün zəhməti, əziyyəti, xərci, məsrəfləri Türkiyənin üzərinə düşür. Qısa bir müddətdə bu körpünü tikdik və 1992-ci il may ayının 28-də bu həsrət, "Ümid körpüsü" təntənəli surətdə açıldı və biz hamımız orada çoxlu insanın toplaşdığı şəraitdə bunu bayram etdik. Bizim xalqımız öz qardaş-bacıları - Türkiyə torpağında yaşayan qardaş-bacıları ilə bir-birinə qovuşdular".*

**Müstəqilliyimizin ilk illərində Azərbaycan rəhbərliyinin Naxçıvana ögey, qərəzli münasibəti təkcə bununla bitmədi!**

*AXC-Müsavat iqtidarı dövründə də blokada şəraitində yaşayan məkana doğma, isti münasibət əvəzinə düşməncəsinə yanaşma tendensiyası davam etdi...*

*Bakıdan oraya emissarlar getdi, hətta silahlı çevrilişə belə cəhdlər göstərildi.*

Lakin cəsur Naxçıvan xalqı sevimli rəhbərini qoruyaraq xain xislətlilərin cavabını verdi!

**Naxçıvanı tarixinin ən çətin və sınaqlı dövründən şərəflə çıxaran Ulu Öndər Heydər Əliyev bir qədər sonra Azərbaycan xalqının çağırışı ilə xilaskarlıq missiyasını yerinə yetirmək üçün Bakıya qayıtdı.**

Ömrünün son günlərinədək isə Naxçıvanın normal durumunu və inkişafını diqqətində saxladı.

❖ ❖ ❖

**Naxçıvanın yeni dövrünün başlanğıcını isə Prezident İlham Əliyev yaxın günlərdə bu diyara etdiyi səfərlə qoydu.**

Bu, dövlət başçısının sayca 17-ci səfəri idi.

**Təkcə səfərlərin sayı cənab İlham Əliyevin Naxçıvanın inkişafına daimi diqqət və qayğısını özünəməxsus şəkildə təsdiq edir!**

**Lakin budəfəki səfər dəyərinə və sanbalına görə bambaşqa idi.**

*Əslində, cənab İlham Əliyev səfərdən əvvəl imzaladığı sənədlər və səfər dövründə etdiyi açılışlar, təməlini qoyduğu obyektlər və başladığı işlərlə Naxçıvanın yeni dövrünün bünövrəsini qoymuş oldu!*

Bütün bunlar həm də Naxçıvanın öz inkişafının keyfiyyətcə yeni mərhələsinə yüksəldiyini göstərir.

**Cənab İlham Əliyevin iradəsi idi:**

* 5 iyun 2023-cü ildə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" təsdiq edilib;

* 2024-cü ildə Naxçıvan-Sədərək avtomagistralı üzərində 310 hektar sahədə Naxçıvan Sənaye Parkı yaradılıb;

* İğdır-Naxçıvan qaz kəməri çəkilib;

* Bölgə "yaşıl enerji zonası" elan edilib;

* 2023-2026-cı illərdə Naxçıvanda 359 yeni istehsalat və xidmət sahəsi yaradılıb;

* Sahibkarlıq subyektlərinə milyonlarla manat güzəştli kreditlər ayrılıb.

*Ötən dövrdə dövlət başçısının sərəncamı ilə Naxçıvanın sosial-iqtisadi inkişafının sürətləndirilməsi sahəsində qəbul edilən qərarların və görülən işlərin sayı-hesabı yoxdur!*

**Naxçıvana səfəri ərəfəsində isə dövlət başçısının "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" imzaladığı sərəncamda nəzərdə tutulan çoxsaylı tədbirlər bu qədim diyarın yeni dövranının başlamasından xəbər verir.**

Nəzərdə tutulan işlərin görülərək vaxtında başa çatdırılması üçün kifayət qədər maliyyə vəsaiti də ayrılmışdır.

❖ ❖ ❖

Naxçıvanda görülən və görüləcək işlər çoxsahəli və çoxşaxəlidir.

*Ən vacib məqamlardan biri məsafəcə Azərbaycandan uzaqda yerləşən bölgənin hərbi cəhətdən müdafiəsinin güclü olmasıdır!*

**Dövlət başçısı İlham Əliyev bu məsələni birinci şərt kimi qiymətləndirir:**

*"Bildiyiniz kimi, Naxçıvanda mənim sərəncamımla əlahiddə ordu yaradılmışdır. Bu ordu, təbii ki, Azərbaycan Silahlı Qüvvələrinin ayrılmaz tərkib hissəsidir. Ancaq Naxçıvanın spesifikası, coğrafiyası, Azərbaycanla, Azərbaycanın əsas hissəsi ilə coğrafi bağlantısının olmaması, əlbəttə ki, bu diyarın - muxtar respublikanın təhlükəsizliyinə daha böyük diqqət göstərməyimizə gətirib çıxardı və bu, daim belədir. Ona görə bu, birinci şərtdir. Bu gün qeyd etdiyim kimi, Azərbaycan Silahlı Qüvvələri bölgədə söz sahibidir. O cümlədən Naxçıvanda hərbi potensial gündən-günə gücləndirilir və gücləndiriləcək".*

**Dövlət başçısının daim diqqət mərkəzində saxladığı məsələlərdən biri də iş yerlərinin yaradılmasıdır.**

Bu məqsədlə ardıcıl tədbirlər görülür.

*Digər vacib məqam isə muxtar respublikanın dayanıqlı enerji ilə təmini və artıq qalanının ixracı imkanıdır.*

**Səfər zamanı cənab İlham Əliyev Azərbaycan televiziyasına müsahibəsində bu barədə dedi:**

*"Burada xüsusilə iş yerlərinin yaradılması ilə bağlı görülən və görüləcək işləri qeyd edə bilərəm. Bu gün Naxçıvan Sənaye Parkının təməli qoyuldu. Azərbaycanda mənim göstərişimlə bir çox sənaye parkları yaradılmışdır və onların arasında ərazi nöqteyi-nəzərindən Naxçıvan Sənaye Parkı Sumqayıt Sənaye Parkından sonra ikincidir. Dediyim kimi, təməl daşı qoyuldu və əminəm ki, tezliklə bu sənaye parkında artıq praktiki işlər başlanacaqdır.*

*Eyni zamanda bu parkın tərkib hissəsi olaraq 300 meqavat gücündə istilik-elektrik stansiyası inşa ediləcək. Onu bildirməliyəm ki, bu gün Naxçıvanın generasiya gücü təqribən 200 meqavatdır. Təkcə bir stansiya bunu 1,5 dəfə artıracaq. Təbii ki, bu stansiyanın iki məqsədi var: birincisi, Naxçıvan Muxtar Respublikasını dayanıqlı enerji ilə təmin etmək, ikincisi, ixrac məsələləridir".*

**Kontinental iqlimə malik bu diyarda bölgənin faizsiz enerji ilə təmini mühüm əhəmiyyət kəsb edir.**

**Cənab İlham Əliyev bu problemin də həll olunduğunu söylədi:**

*"Biz elə etməliyik ki, Naxçıvanın davamlı və dayanıqlı enerji təminatı heç vaxt pozulmasın.*

*Bu məqsədlər üçün vaxtilə yenə də mənim təşəbbüsümlə biz İran İslam Respublikası ilə qaz mübadiləsi sazişini imzaladıq. Bu sazişə əsasən, İrandan Azərbaycana qaz kəməri çəkilmişdir və eyni zamanda Azərbaycanın Astara rayonundan İran ərazisinə qaz nəqli təmin edilmişdir. Yəni biz Naxçıvanı mübadilə yolu ilə 100 faiz qazla təmin etdik".*

**Qürur doğuran faktdır ki, artıq Naxçıvanda qazlaşma 100 faizdir!**

*Aparılan monitorinq və dəqiq təhlil əsasında müəyyən edilib ki, Naxçıvanda günəş enerjisi potensialı çox böyükdür.*

Hətta bu baxımdan Azərbaycanda ən əlverişli məkan məhz Naxçıvandır.

Buna görə artıq 600 hektardan çox ərazi müəyyən edilib və orada yüzlərlə meqavat gücündə günəş-elektrik stansiyaları inşa ediləcək.

❖ ❖ ❖

**Zəngəzur dəhlizinin Naxçıvanla birləşdirilməsi Azərbaycan dövlətinin əsas hədəflərindən biri olub.**

2020-ci il noyabrın 9-da - Şuşa işğaldan azad olunduqdan sonra Rusiya Prezidentinin zəmanəti ilə keçirilən görüşlərdə və imzalanacaq kapitulyasiya aktında Azərbaycan Prezidentinin təkidlə üzərində durduğu məsələlərdən biri imzalanacaq bəyanatda Azərbaycanla Naxçıvanı birləşdirəcək dəhlizin mütləq əksini tapması idi.

Ermənistan buna razılıq vermək istəmirdi...

Lakin "dəmir yumruq" dediyinə nail oldu!

Təəssüf ki, Rusiya Zəngəzur dəhlizinin açılışını təmin edə bilmədi, yaxud da bunu istəmədi!

*Məsələ öz həllini 2025-ci ilin 8 avqustunda Vaşinqtonda baş tutan Zirvə görüşündə tapdı.*

Artıq TRIPP adını daşıyan bu layihənin icrasına start verilmişdir.

Naxçıvan dəmir yolunun tikintisində də işlər sürətlə gedir.

Yolun uzunluğu 194 kilometrdir və işlərin vaxtında başa çatdırılması üçün imkanlar səfərbərliyə alınmışdır.

*Orta dəhlizin istifadəyə verilməsi Naxçıvanın rolunu və durumunu əsaslı şəkildə yüksəldəcək, onun əvəzolunmaz nəqliyyat mərkəzlərindən birinə çevrilməsinə səbəb olacaqdır.*

❖ ❖ ❖

**Prezident İlham Əliyevin Naxçıvana son səfəri bu bölgənin yeni dövrünün başlanğıcı sayıla bilər.**

* Bu dövr öz başlanğıcını İlham Əliyevin Naxçıvanda təməlini qoyduğu yeni istiqamətlərdən götürür.

* Bu dövr əsasını indiyədək İlham Əliyevin orada həyata keçirdiyi yeni layihələrdən götürür.

* Bu dövr Naxçıvanın blokadadan tamamilə çıxarılması ilə nəticələnəcəkdir.

* Bu dövr Naxçıvanın Cənubi Qafqazın ən vacib geosiyasi məkanına çevrilməsilə nəticələnəcəkdir.

* Bu dövr Naxçıvanın sosial-iqtisadi, elmi-mədəni inkişafının yeni zirvələrə yüksəlişi ilə nəticələnəcəkdir.

**Bunu dövlət başçısının bu qədim məkanda gördüyü yeni işlər, reallaşdırdığı yeni layihələrlə bərabər, zəhmətsevər naxçıvanlıların əzmi, dövlətə sədaqətləri də əyani şəkildə nümayiş etdirir.**

**Bəxtiyar SADIQOV**




# Sülh, müttəfiqlik və çoxtərəflilik

## Bakının qlobal siyasətdə yaratdığı yeni əməkdaşlıq və təhlükəsizlik modeli bundan ibarətdir

**Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini tam təmin etməsi Cənubi Qafqazda tamamilə yeni geopolitik reallıqlar yaradıb. Bu tarixi Zəfər ölkəmizin beynəlxalq müstəvidə nüfuzunu artırmaqla yanaşı, regional təhlükəsizlik və əməkdaşlıq məsələlərində strateji təşəbbüslərlə çıxış etməsinə imkan verib. Bu gün ölkəmiz dünyanın mühüm iqtisadi, logistik və siyasi mərkəzlərindən birinə çevrilib. Yürütdüyü sülh diplomatiyası ilə yeni və ədalətli dünya nizamının qurulması prosesində fəal iştirak edən, qlobal problemlərin həllinə birbaşa töhfə verən Bakı, indi də Avrasiya qitəsinin ən nəhəng siyasi-iqtisadi bloku olan Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) ilə əlaqələrini sürətlə dərinləşdirir.**

### Avrasiyanın mərkəzində strateji mövqe

Azərbaycan 2015-ci ildən ŞƏT-in dialoq üzrə tərəfdaşı statusuna malikdir. ŞƏT dünyada əhalinin yarısına yaxınını, həmçinin qlobal iqtisadiyyatın böyük bir hissəsini özündə cəmləşdirən nəhəng platformadır. Bakı üçün bu təşkilatla əməkdaşlıq öz iqtisadi, nəqliyyat və təhlükəsizlik imkanlarını genişləndirmək anlamına gəlir. ŞƏT-in aparıcı ölkələrini Avropa ilə birləşdirən ən təhlükəsiz və səmərəli marşrut olan Orta dəhliz Azərbaycandan keçir. Bu reallığı göz önünə gətirdikdə, Azərbaycanla əməkdaşlığın ŞƏT-ə üzv olan ölkələr üçün də böyük əhəmiyyət kəsb etdiyini aydın görmək olur. Eyni zamanda Azərbaycanın ŞƏT platformasındakı yeri və rolu onun bu təşkilatın əsas üzvləri ilə qurduğu yüksəksəviyyəli ikitərəfli strateji münasibətlərdən qaynaqlanır.

Məsələn, ölkəmizin dünyanın iqtisadi nəhəngi olan Çinlə strateji tərəfdaşlıq münasibətləri mövcuddur. O cümlədən Mərkəzi Asiya dövlətləri ilə həm dərin tarixi-mədəni bağlar, həm də strateji tərəfdaşlıq sazişləri var. O cümlədən Azərbaycan-Qırğızıstan münasibətləri də dinamik inkişaf edir.

Sentyabrın 1-də Bişkekdə keçirilən "ŞƏT plyus" formatındakı görüşdə Prezident İlham Əliyevin çıxışı iki qardaş ölkənin - Azərbaycan ilə Qırğızıstanın arasında münasibətlərin artıq keyfiyyətcə tamamilə yeni - müttəfiqlik səviyyəsinə yüksəldiyini nümayiş etdirdi: "Bir ay öncə dövlət səfərim zamanı müttəfiqlik münasibətləri haqqında müqavilə imzalandı. Həmin tarixi sənəd Azərbaycanla Qırğızıstan arasında münasibətləri ən yüksək səviyyəyə qaldırdı".

Ölkəmizin rəhbəri vurğuladı ki, Qırğızıstanın 2027-2028-ci illər üçün BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi beynəlxalq ictimaiyyətin Qırğızıstanın siyasətinə verdiyi dəstəyi nümayiş etdirir.

Prezident İlham Əliyevin "ŞƏT plyus" formatındakı görüşdə toxunduğu ən mühüm məsələlərdən biri Cənubi Qafqazda yaranmış yeni reallıqlar və beynəlxalq hüququn tətbiqi mexanizmləri ilə bağlı oldu. Ölkəmizin rəhbəri tədbir iştirakçılarının diqqətinə çatdırdı ki, bir ildən bir az çox müddət əvvəl Azərbaycan və Ermənistan sülh sazişinin mətnini paraflayaraq 30 illik münaqişəyə son qoydular. Çoxillik münaqişə zonası olmuş Cənubi Qafqaz bölgəsi artıq sülh zonasına çevrilir: "BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş dörd qətnaməsi 30 ildən sonra, üç il əvvəl icra edildi. Azərbaycan artıq Ermənistana neft məhsulları tədarük edir və üçüncü ölkələrin yüklərinin tranzitini təmin edir. Ermənistanla birlikdə qarşılıqlı ticarətin həcminin artırılması, onun nomenklaturasının genişləndirilməsi və yeni yerüstü nəqliyyat kommunikasiyalarının yaradılması üzərində çalışırıq".

Azərbaycan BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və düz 30 il boyunca kağız üzərində qalan dörd qətnaməsini özü icra edərək ərazi bütövlüyünü və suverenliyini tam təmin etdi.

Bişkekdəki çıxışında, "Lakin təəssüf ki, BMT bu qətnamələrin icrasında heç bir rol oynamayıb. Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü tamamilə özü bərpa edib", - deyən Prezident İlham Əliyev bu nüfuzlu platformadan dünyaya bəyan etdi ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin qısa müddətdə icrası üçün müvafiq mexanizmlərin hazırlanması tələb olunur. Bu həyata keçirilərsə, BMT-nin nüfuzunun və təşkilatın münaqişələrin nizamlanmasındakı rolunun artmasına xidmət edər.

### Prinsipial mövqe

Azərbaycan, BMT-dən sonra dünyanın ikinci ən böyük təşkilatı olan Qoşulmama Hərəkatına üzv olduğu ilk gündən etibarən bütün dövlətlərlə bərabər əməkdaşlıq münasibətlərini inkişaf etdirməyə yönəlmiş siyasət həyata keçirir və hərəkatın bütün təşəbbüslərinə çox fəal cəlb olunub. Hərəkata sədrlik etdiyi dövrdə Prezident İlham Əliyevin təşəbbüsü ilə təşkilat tərəfindən mühüm qlobal tədbirlər həyata keçirilib. 2021-ci ilin dekabr ayında BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində assambleyanın plenar iclasında hərəkatın sədri qismində Prezident İlham Əliyevin təşəbbüsü ilə üzv dövlətlər adından irəli sürülmüş "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə BMT-yə üzv dövlətlərin mütləq əksəriyyətinin dəstəyi ilə qəbul edilib.

Dövlət başçısı Bişkekdəki çıxışını məhz Azərbaycanın qlobal diplomatiyadakı prinsipial mövqeyini nümayiş etdirən mühüm bəyanatla yekunlaşdırdı: "Son vaxtlara qədər dörd il ərzində Qoşulmama Hərəkatına rəhbərlik etmiş Azərbaycan bundan sonra da beynəlxalq məsələlərdə çoxtərəflilik prinsiplərinin möhkəmləndirilməsinə öz töhfəsini verəcək".

ŞƏT mühitində bu təcrübəyə istinad edilməsi göstərir ki, Azərbaycan bütün Avrasiya məkanında çoxtərəflilik və bərabərhüquqlu tərəfdaşlıq prinsiplərini müdafiə edir. Bakı üçün beynəlxalq münasibətlərini qarşılıqlı hörmət və ortaq maraqlar üzərində qurulması mühüm əhəmiyyət kəsb edir.

Prezident İlham Əliyevin Bişkek görüşündə çıxışı Azərbaycanın həm regional, həm də qlobal müstəvidə keçdiyi uğurlu diplomatik yolun yekun mənzərəsini ortaya qoyur. Bu göstərir ki, ölkəmiz bir tərəfdən, Cənubi Qafqazda real sülhün və iqtisadi inteqrasiyanın bünövrəsini qoyur, digər tərəfdən, bərabərhüquqlu əməkdaşlıq modeli ilə ŞƏT kimi nəhəng platformalarda, eləcə də Qırğızıstan daxil olmaqla, Mərkəzi Asiya ölkələri ilə, türk dünyası ilə müttəfiqlik əlaqələrini zirvəyə qaldırır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# "Bişkek sammiti Prezident İlham Əliyevin xarici siyasət xəttinin mühüm xüsusiyyətini bir daha ortaya qoyub"

**"Prezident İlham Əliyevin Bişkekdə keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının sammitində iştirakını dövlətimizin başçısının növbəti çoxtərəfli platformada təmsil olunmasından daha geniş kontekstdə qiymətləndirmək lazımdır. Səfərin ilk günlərindən etibarən keçirilən intensiv siyasi təmaslar göstərib ki, Azərbaycan bu gün müxtəlif güc mərkəzləri ilə eyni vaxtda məzmunlu dialoq aparmağı bacaran, onlardan biri ilə əməkdaşlığı digərləri ilə münasibətlərə alternativə çevirməyən dövlətlər sırasındadır".**



Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı **Sevinc FƏTƏLIYEVA** deyib.

O qeyd edib ki, Azərbaycan sərt geosiyasi konstruksiyalara daxil olmağa çalışmır, Şərqlə Qərb arasında seçim məntiqindən uzaq durur. Bunun əvəzinə dövlətimiz, ilk növbədə, öz milli maraqlarını rəhbər tutaraq ikitərəfli və çoxtərəfli əlaqələr şəbəkəsini ardıcıl şəkildə genişləndirir.

"Bu gün rəsmi Bakı Türkiyə və Mərkəzi Asiya dövlətləri ilə strateji əməkdaşlığı inkişaf etdirir, Çinlə münasibətləri dərinləşdirir, Rusiya və İranla dialoqu davam etdirir, eyni zamanda Avropa və ABŞ ilə mühüm siyasi və iqtisadi əlaqələrini qoruyub saxlayır. ŞƏT-in Bişkek sammiti məhz bu modelin əyani təzahürünə çevrilib. Sammit çərçivəsində Prezident İlham Əliyev bir sıra dövlətlərin rəhbərləri, o cümlədən Türkiyə, Qazaxıstan, İran, Belarus prezidentləri, həmçinin Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşlər keçirib. İkitərəfli gündəliklərin fərqli olmasına baxmayaraq, bütün bu təmasları bir mühüm məqam birləşdirir. Belə ki, Azərbaycan regional təhlükəsizlikdən nəqliyyata, ticarətdən siyasi əməkdaşlığa qədər geniş spektrdə dialoq aparmaq qabiliyyətinə malik müstəqil və tələb olunan tərəfdaş kimi qəbul edilir.

Azərbaycanın ŞƏT ilə qarşılıqlı fəaliyyət formatı da xüsusi əhəmiyyət daşıyır. Bakı 2015-ci ildən təşkilatın dialoq üzrə tərəfdaşıdır, 2022-ci ildən isə Prezident İlham Əliyevin ŞƏT sammitlərində iştirakı müntəzəm xarakter alıb. Dövlətimizin başçısı Səmərqənddən sonra Astana, Tiencin və indi də Bişkekdə keçirilən sammitlərdə iştirak edib. Bu ardıcıllıq artıq epizodik maraqdan deyil, davamlı siyasi istiqamətin formalaşmasından xəbər verir", - deyə deputat bildirib.

Sevinc Fətəliyeva bildirib ki, ŞƏT ölkələri ilə münasibətlər abstrakt xarakter daşımır, möhkəm ikitərəfli təmələ söykənir. Bişkekdə Prezident İlham Əliyevlə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev arasında keçirilən görüş bu baxımdan səciyyəvidir. Dövlət başçıları strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin uğurlu inkişafını, nəqliyyat-logistika məsələlərini və Orta dəhlizin perspektivlərini müzakirə ediblər. Yəni siyasi dialoq birbaşa iqtisadi layihələrə və infrastruktur qarşılıqlı asılılığına transformasiya olunur.

"İran Prezidenti Məsud Pezeşkianla görüş də az əhəmiyyət daşımır. Prezident İlham Əliyev İran ətrafında yaranan vəziyyətin sülh yolu və danışıqlar vasitəsilə həllinin tərəfdarı kimi Azərbaycanın mövqeyini bir daha vurğulayıb. Mövcud beynəlxalq şəraitdə bu yanaşma Azərbaycan diplomatiyasının fundamental prinsiplərindən birini - siyasi dialoqa üstünlük verilməsini və regionun qarşıdurma məkanına çevrilməsinin qəbuledilməzliyini əks etdirir.

Ermənistanın Baş naziri Nikol Paşinyanla görüş də eyni dərəcədə əhəmiyyətli idi. Tərəflər 2025-ci il avqustun 8-də Vaşinqtonda keçirilən Sülh Sammitinin və Azərbaycan ilə Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında sazişin razılaşdırılmış mətninin paraflanmasının tarixi əhəmiyyətini vurğulayıblar.

Beləliklə, Bişkek sammiti Prezident İlham Əliyevin xarici siyasət xəttinin mühüm xüsusiyyətini bir daha ortaya qoyub. Azərbaycan tərəfdaşlarının dairəsini genişləndirir, lakin öz manevr imkanlarını məhdudlaşdırmır. Böyük dövlətlərlə münasibətləri dərinləşdirir, lakin müstəqil siyasətindən imtina etmir. Müxtəlif beynəlxalq formatlarda iştirak edir, lakin onlardan birini digərinə qarşı qoymur. Dünya siyasətində ayırıcı xətlərin getdikcə daha çox önə çıxdığı bir dövrdə belə model əlavə əhəmiyyət qazanır. Bu yanaşma Azərbaycana yalnız dəyişən beynəlxalq münasibətlər sisteminə uyğunlaşmaq deyil, həm də baş verən transformasiyadan öz mövqelərini möhkəmləndirmək üçün istifadə etmək imkanı yaradır", - deyə deputat vurğulayıb.

# "Azərbaycan Avrasiyanın yeni bağlantı xəritəsinin mərkəzinə çevrilir"



**"Hazırda Avrasiyanın coğrafiyası dəyişir. Etibarlı nəqliyyat dəhlizləri, enerji bağlantıları, ticarətin asanlaşdırılması, investisiya platformaları və siyasi dialoq imkanları yaradan ölkələrin strateji əhəmiyyəti artır. Azərbaycanın Xəzər dənizinin qərb sahilində yerləşməsi, müasir infrastrukturu, enerji resursları və Mərkəzi Asiya istiqamətində fəallaşan diplomatiyası bu transformasiyadan faydalanmaq üçün əlverişli şərait yaradır. Artan siyasi dialoq, yüksəksəviyyəli qarşılıqlı səfərlər və iqtisadi əməkdaşlıq göstərir ki, Bakı Mərkəzi Asiyanı ayrı-ayrı ikitərəfli münasibətlər toplusu kimi deyil, daha geniş Avrasiya strateji məkanının tərkib hissəsi kimi nəzərdən keçirir".**

Bu fikirləri **Dayanıqlı İnkişaf üçün Kəmər və Yol Təşəbbüsünün (BRISD) sədri, pakistanlı ekspert Qaiser NAVAB** AZƏRTAC-a açıqlamasında deyib.

Qaiser Navab hesab edir ki, Avrasiyanın gələcək bağlantılarını yalnız Şərq-Qərb xətti üzrə nəzərdən keçirmək düzgün olmaz. Şimal-Cənub, eləcə də Mərkəzi Asiya-Cənubi Asiya istiqamətləri getdikcə daha böyük əhəmiyyət qazanır. Pakistan Mərkəzi Asiya ilə iqtisadi və strateji əlaqələrin genişləndirilməsində maraqlıdır. Ölkənin coğrafi mövqeyi Mərkəzi Asiya dövlətlərinə Ərəbistan dənizinə və bununla mühüm dəniz ticarət marşrutlarına və dünya bazarlarına çıxış imkanı yaradır. Bu vəziyyət Azərbaycan üçün yeni imkanlar açır. Azərbaycan Xəzər, Cənubi Qafqaz və Türkiyə-Avropa nəqliyyat şəbəkələrinə çıxış imkanlarına, Pakistan isə Cənubi Asiya və Ərəbistan dənizinə çıxışa malikdir. Mərkəzi Asiya dövlətləri isə coğrafi baxımdan bu müxtəlif məkanların arasında yerləşir. Bu, Mərkəzi Asiya-Cənubi Qafqaz-Türkiyə-Avropa və Mərkəzi Asiya-Cənubi Asiya istiqamətlərini birləşdirən daha geniş bağlantı sisteminin formalaşmasına imkan yaradır.

Qaiser Navab Azərbaycan-Pakistan münasibətlərinin bu geniş geoiqtisadi mənzərə çərçivəsində daha dərindən nəzərdən keçirilməsinin vacib olduğunu bildirib. "İki ölkə arasında münasibətlərin güclü siyasi təməli mövcuddur, lakin iqtisadi və bağlantı potensialından daha geniş istifadə etmək mümkündür. İnvestisiya, logistika, turizm, enerji, kənd təsərrüfatı, texnologiya, təhsil və insan kapitalının inkişafı kimi sahələrdə böyük imkanlar mövcuddur. Əsas məsələ bu istiqamətləri ayrı-ayrılıqda deyil, bir-birini tamamlayan vahid iqtisadi sistem kimi inkişaf etdirməkdir", - deyə ekspert vurğulayıb.

Ekspert Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı ilə əməkdaşlığının da bu prosesə mühüm əlavə ölçü gətirdiyini bildirib. ŞƏT nəqliyyat bağlantıları, ticarətin asanlaşdırılması, enerji təhlükəsizliyi, rəqəmsallaşma, regional sabitlik və iqtisadi əməkdaşlıq məsələlərinin müzakirə edildiyi geniş Avrasiya platformasıdır. Təşkilatın Çin, Hindistan, Pakistan, İran və Mərkəzi Asiya dövlətləri kimi mühüm ölkələri birləşdirməsi Azərbaycanın daha geniş coğrafiya və bazarlarla əlaqələrini inkişaf etdirməsi üçün əlavə imkanlar yaradır.

"Azərbaycanın əsas strateji üstünlüyü yalnız coğrafi mövqeyi ilə bağlı deyil. Coğrafiya imkan yaradır, lakin həmin imkanın təsir və dayanıqlı inkişafa çevrilməsini infrastruktur, diplomatiya, siyasi sabitlik, institusional imkanlar və düzgün iqtisadi strategiya müəyyənləşdirir", - deyə Qaiser Navab vurğulayıb.

# "Azərbaycan coğrafi imkanlarından istifadə etməklə regional təsirini daha da artıra bilər"

**"Azərbaycanın Mərkəzi Asiya ilə münasibətlərində son illər yeni mərhələ başlayıb. Bakı artıq yalnız Mərkəzi Asiyanı Cənubi Qafqaz və Avropa ilə birləşdirən keçid məntəqəsi kimi deyil, nəqliyyat, enerji, investisiya və ticarət əlaqələrinin formalaşdığı mühüm regional mərkəz kimi çıxış edir. Bu prosesdə Orta dəhliz, Xəzər dənizi, enerji əməkdaşlığı və Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) ilə əlaqələri xüsusi əhəmiyyət daşıyır".**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında **türk politoloq Hasan OKTAY** deyib.

Onun sözlərinə görə, Azərbaycanın Mərkəzi Asiyadakı rolunu artıq yalnız "regiona açılan qapı" ifadəsi ilə izah etmək kifayət deyil. Azərbaycan tədricən Mərkəzi Asiya, Cənubi Qafqaz, Türkiyə və Avropa arasında əlaqələri təmin edən mərkəz ölkəyə çevrilir. Nəqliyyat, limanlar, logistika, enerji, ticarət, investisiya və rəqəmsal texnologiyalar üzrə yeni iqtisadi əlaqələr formalaşır. Orta dəhlizə də yalnız bir nəqliyyat marşrutu kimi yanaşmaq düzgün deyil. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxaıq Ticarət limanı, Xəzər üzərindən keçidlər və Türkiyə ilə bağlantı birlikdə Azərbaycanın Mərkəzi Asiyanın Avropa bazarlarına çıxışında mühüm rol oynamasına imkan verir.

Hasan Oktay Azərbaycanın Mərkəzi Asiyadakı rolunun enerji sahəsində genişlənə biləcəyini düşünür. Azərbaycanın öz enerji resursları ilə yanaşı, Mərkəzi Asiya ölkələrinin enerji ehtiyatlarının Xəzər üzərindən Qərb bazarlarına çatdırılması yeni imkanlar yaradır. Xüsusilə Türkmənistan və Qazaxıstanla enerji əməkdaşlığının genişləndirilməsi Azərbaycanın yalnız enerji istehsalçısı deyil, həm də enerji tranziti və paylanmasında mühüm mərkəzlərdən birinə çevrilməsinə imkan verə bilər. Azərbaycanın qarşısında daha böyük vəzifə dayanır. Bu da Mərkəzi Asiya ölkələri ilə yalnız yük daşımaları və tranzit sahəsində deyil, birbaşa investisiya və istehsal sahələrində də əməkdaşlığı genişləndirməkdir.

Politoloq Azərbaycanın ŞƏT çərçivəsində rolunun getdikcə əhəmiyyət qazandığını bildirib. "Azərbaycan həm ŞƏT, həm də Türk Dövlətləri Təşkilatı baxımından mühüm coğrafi mövqeyə malikdir. Bakı bu iki platformadakı imkanlarını bir-biri ilə əlaqələndirməklə regional təsirini daha da artıra bilər. Qazaxıstan və Türkmənistanla Azərbaycan arasında dəniz daşımalarının inkişaf etdirilməsi Mərkəzi Asiya ölkələrinin Avropaya çıxış imkanlarını genişləndirə və nəqliyyat marşrutlarını şaxələndirə bilər. Gələcəkdə Xəzərin altından nəqliyyat bağlantısının yaradılması imkanları da ciddi şəkildə araşdırılmalıdır. Bu məsələ həm TDT, həm də ŞƏT çərçivəsində uzunmüddətli regional bağlantı strategiyasının bir hissəsinə çevrilə bilər", - deyə Hasan Oktay əlavə edib.

# "Minatəmizləmə daha geniş bərpa və inkişaf prioritetləri ilə əlaqələndirilməlidir"

**"Minatəmizləmə fəaliyyətinin səmərəli və davamlı təşkili üçün milli məsuliyyət və liderlik əsas götürülməli, beynəlxalq tərəfdaşlıqlar isə milli prioritetləri dəstəkləməlidir".**



Bunu Bakıda keçirilən IV Beynəlxalq Minatəmizləmə Konfransı çərçivəsində "Azərbaycanda təhlükəsiz mina fəaliyyətinin dəstəklənməsi üçün beynəlxalq əməkdaşlıq və donor mexanizmləri" mövzusunda panel müzakirəsində **BMT-nin Layihə Xidmətləri Ofisinin (UNOPS) Avropa və Mərkəzi Asiya regionu üzrə direktoru Tim LARDNER** deyib.

O bildirib ki, Azərbaycanın təcrübəsi minatəmizləmənin yalnız partlayıcı təhlükələrin aradan qaldırılması ilə məhdudlaşmadığını göstərir. Minatəmizləmə insanların öz evlərinə təhlükəsiz qayıtmasına, torpaqlara və infrastruktura çıxışın bərpasına, eləcə də ərazilərin bərpası və inkişafı üçün zəruri şəraitin yaradılmasına imkan verir.

Tim Lardner qeyd edib ki, minatəmizləmə sahəsində bütün ölkələr üçün vahid yanaşma mümkün deyil. Hər bir minalardan zərərçəkmiş ölkənin öz tarixi, institusional imkanları, əməliyyat reallıqları və milli prioritetləri var. Buna görə də fəaliyyətin təşkili konkret ölkənin milli şəraitinə uyğun qurulmalıdır.

UNOPS rəsmisinin sözlərinə görə, davamlı potensialın formalaşdırılması qısamüddətli layihələr və ayrı-ayrı təlimlərlə məhdudlaşmamalıdır. Bunun üçün insanlara, təşkilatlara və milli institutlara uzunmüddətli investisiya qoyulması, texniki dəstək, mentorluq və praktiki təcrübənin təmin edilməsi vacibdir.

O vurğulayıb ki, beynəlxalq yardım asılılıq yaratmaq üçün deyil, səlahiyyət və imkanların milli qurumlara ötürülməsi üçün nəzərdə tutulmalıdır. Milli qeyri-hökumət təşkilatlarının və yerli aktorların potensialının gücləndirilməsi də minatəmizləmə sahəsində davamlı milli sistemin formalaşdırılmasına xidmət edir.

Tim Lardner donorlar, BMT qurumları, beynəlxalq və qeyri-hökumət təşkilatları, eləcə də texniki tərəfdaşlar arasında koordinasiyanın əhəmiyyətini də diqqətə çatdırıb. Bildirib ki, bu tərəfdaşların fəaliyyətinin milli strategiya və prioritetlərlə uzlaşdırılması daha səmərəli nəticələrin əldə olunmasına imkan yaradır.

O əlavə edib ki, minalardan təmizlənmiş ərazilər insanların torpaqlarına qayıtması, yolların, məktəblərin və səhiyyə müəssisələrinin fəaliyyətinin bərpası, icmaların yenidən qurulması və iqtisadi fəaliyyət üçün yeni imkanların yaranması baxımından mühüm əhəmiyyət daşıyır. Bu səbəbdən minatəmizləmə mümkün olduğu hallarda daha geniş bərpa və inkişaf məqsədləri ilə əlaqələndirilməlidir.



# Yeni dünya nizamında Azərbaycanın yüksələn nüfuzu

## Prezident İlham Əliyevin Bişkekdə "ŞƏT plyus" formatında keçirilən görüşdə iştirakı ölkəmizin güclənən geosiyasi mövqeyinin göstəricisidir

**XXI əsrin üçüncü onilliyi dünya siyasətində tamamilə yeni geosiyasi reallıqlar formalaşdırır. Beynəlxalq münasibətlər sistemində yeni güc mərkəzləri meydana çıxır, dövlətlər milli maraqlara söykənən çoxşaxəli xarici siyasət həyata keçirirlər. Bu mürəkkəb və dinamik proseslər fonunda Avrasiya məkanında xüsusi çəkisi olan beynəlxalq təşkilatlardan biri də Şanxay Əməkdaşlıq Təşkilatıdır (ŞƏT). Təşkilat təhlükəsizlik, iqtisadi inkişaf, nəqliyyat, enerji, rəqəmsal transformasiya və humanitar əməkdaşlıq sahələrində mühüm platformaya çevrilərək dünya siyasətində təsir imkanlarını davamlı şəkildə artırır. 2026-cı il avqustun 31-dən sentyabrın 1-dək Qırğızıstanın paytaxtı Bişkekdə keçirilən ŞƏT-in 26-cı Zirvə toplantısı da məhz bu baxımdan beynəlxalq ictimaiyyətin diqqət mərkəzində oldu.**

### Beynəlxalq nüfuzun, etibarlı tərəfdaş imicinin və etimadın nümunəsi

Azərbaycan Prezidenti İlham Əliyevin Qırğızıstana işgüzar səfəri ölkəmizin xarici siyasətində yeni mərhələnin mühüm göstəricisi kimi qiymətləndirilməlidir. Prezident İlham Əliyevin "ŞƏT plyus" formatında keçirilən yüksəksəviyyəli toplantıya dəvət olunması Azərbaycanın beynəlxalq nüfuzunun, etibarlı tərəfdaş imicinin və ölkəmizə göstərilən yüksək etimadın bariz nümunəsidir. Dövlət başçısının sammit çərçivəsində keçirdiyi görüşlər, apardığı müzakirələr və verdiyi siyasi mesajlar göstərir ki, Azərbaycan artıq regional deyil, Avrasiya miqyasında strateji tərəfdaş kimi qəbul edilir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən müstəqil və milli maraqlara əsaslanan xarici siyasət Azərbaycanın beynəlxalq mövqeyini əhəmiyyətli dərəcədə gücləndirib. Son illər ölkəmizin Qoşulmama Hərəkatına uğurlu sədrliyi, COP29 kimi qlobal tədbirə evsahibliyi, Türk Dövlətləri Təşkilatındakı fəal rolu, Avropa İttifaqı, Mərkəzi Asiya, Yaxın Şərq və Asiya dövlətləri ilə inkişaf edən münasibətləri Azərbaycanın diplomatik imkanlarını daha da genişləndirib. Bu uğurların məntiqi davamı olaraq Azərbaycan bu gün ŞƏT kimi nüfuzlu platformalarda xüsusi maraq doğuran ölkələrdən birinə çevrilib.

ŞƏT-in əhatə etdiyi coğrafiya dünya əhalisinin əhəmiyyətli hissəsini, qlobal iqtisadi potensialın böyük bir bölümünü və zəngin enerji ehtiyatlarını özündə birləşdirir. Çin, Hindistan, Rusiya, Pakistan, İran və Mərkəzi Asiya dövlətlərinin təmsil olunduğu bu platforma artıq yalnız regional təşkilat deyil, qlobal geosiyasi proseslərə təsir göstərən mühüm əməkdaşlıq mexanizminə çevrilib. Bu baxımdan, Azərbaycanın "ŞƏT plyus" formatında fəal iştirakı ölkəmizin Avrasiya əməkdaşlığında artan rolunun təzahürüdür.

Azərbaycanın bu platformada xüsusi maraq doğurmasının əsas səbəblərindən biri ölkəmizin unikal geostrateji mövqeyidir. Müasir dövrdə geosiyasət artıq yalnız hərbi güclə deyil, logistika, enerji, nəqliyyat və iqtisadi əlaqələrlə müəyyən edilir. Prezident İlham Əliyev uzun illərdir həyata keçirdiyi strateji siyasətlə Azərbaycanı məhz bu yeni geoiqtisadi reallıqların əsas iştirakçılarından birinə çevirib. Bu gün Avropa ilə Asiyanı birləşdirən ən etibarlı marşrutlardan biri məhz Azərbaycan üzərindən keçir. Bu amil isə ölkəmizin ŞƏT məkanında əhəmiyyətini daha da artırır.

"ŞƏT plyus" görüşü bir daha göstərdi ki, Azərbaycan balanslaşdırılmış xarici siyasət kursuna sadiqdir. Ölkəmiz müxtəlif siyasi və iqtisadi platformalar arasında körpü rolunu oynayır, əməkdaşlıq siyasətini təşviq edir. Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, Azərbaycanın xarici siyasətinin əsas prinsipləri milli maraqların qorunması, qarşılıqlı hörmət, bərabərhüquqlu əməkdaşlıq və beynəlxalq hüququn norma və prinsiplərinə sadiqlikdir.

Qırğızıstana səfərin diqqətçəkən məqamlarından biri də Prezident İlham Əliyevin dünya siyasətində mühüm rol oynayan dövlətlərin rəhbərləri ilə keçirdiyi ikitərəfli görüşlər oldu. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Hindistanın Baş naziri Narendra Modi, İran Prezidenti Məsud Pezeşkian və digər liderlərlə görüşlər Azərbaycanın çoxtərəfli diplomatiyasının uğurlu nəticəsi kimi qiymətləndirilməlidir.

Xüsusilə qeyd edilməlidir ki, Azərbaycan artıq yalnız enerji ixrac edən ölkə kimi deyil, həm də sülh təşəbbüsləri irəli sürən, regionda sabitliyə töhfə verən, humanitar əməkdaşlığı dəstəkləyən və müxtəlif dövlətlər arasında etimad mühitinin formalaşmasına xidmət edən etibarlı tərəfdaş kimi qəbul olunur. Bu isə Prezident İlham Əliyevin düşünülmüş və ardıcıl xarici siyasət strategiyasının nəticəsidir.

Azərbaycanın son illərdə əldə etdiyi diplomatik uğurlar təsadüfi deyil. Onların əsasında güclü iqtisadi potensial, müstəqil qərarvermə qabiliyyəti, milli maraqların qətiyyətlə müdafiəsi və beynəlxalq hüquqa hörmət dayanır. Məhz buna görə bu gün dünyanın aparıcı dövlətləri Azərbaycanla əməkdaşlığın genişləndirilməsində maraqlıdırlar. Bişkekdə keçirilən "ŞƏT plyus" görüşü bir daha təsdiq etdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan artıq regional siyasətin iştirakçısı deyil, onun istiqamətini müəyyən edən əsas aktorlardan biridir. Bu reallıq ölkəmizin gələcək diplomatik uğurlarının da möhkəm təməlini təşkil edir.

### Prezident İlham Əliyevin "ŞƏT plyus" platformasındakı çıxışı: Azərbaycanın yeni geosiyasi mövqeyinin təqdimatı

ŞƏT Zirvə toplantısının ən diqqətçəkən məqamlarından biri Prezident İlham Əliyevin "ŞƏT Plus" formatında çıxışı oldu. Bu platforma üzv dövlətlərlə yanaşı, tərəfdaş ölkələrin də qlobal və regional məsələlərə münasibət bildirməsi üçün mühüm siyasi tribuna hesab edilir. Azərbaycan Prezidentinin bu tədbirə dəvət olunması ölkəmizin beynəlxalq nüfuzunun və etibarlı tərəfdaş statusunun növbəti təsdiqi kimi qiymətləndirilməlidir.



Prezident İlham Əliyev çıxışında bir daha vurğuladı ki, Azərbaycan müstəqil xarici siyasət yürüdən, beynəlxalq hüququn norma və prinsiplərinə hörmət edən, dövlətlərin suverenliyini və ərazi bütövlüyünü dəstəkləyən ölkədir. Bu yanaşma Azərbaycanın uzun illərdir həyata keçirdiyi xarici siyasətin əsas fəlsəfəsini təşkil edir. Məhz buna görə də ölkəmiz müxtəlif geosiyasi platformalarda etibarlı tərəfdaş kimi qəbul edilir.

Bu gün dünyada geosiyasi qarşıdurmaların artdığı, iqtisadi böhranların dərinləşdiyi və nəqliyyat marşrutlarının yenidən formalaşdığı bir dövrdə Azərbaycan sabitlik, etibarlılıq və əməkdaşlıq nümunəsi nümayiş etdirir. Dövlət başçısının çıxışında səsləndirdiyi əsas mesajlardan biri də məhz əməkdaşlıq fəlsəfəsinin üstün tutulması idi.

Son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu iqtisadi siyasət nəticəsində Azərbaycan Avrasiyanın ən mühüm logistika mərkəzlərindən birinə çevrilmişdir. Dövlət başçısı ŞƏT platformasında da Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafına verdiyi töhfələri xüsusi vurğuladı. Bu gün Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizləri təkcə Azərbaycanın deyil, bütövlükdə Avrasiyanın iqtisadi təhlükəsizliyinə xidmət edir.

Prezident İlham Əliyevin xarici siyasət strategiyasında enerji diplomatiyası xüsusi yer tutur. Azərbaycan bu gün dünyanın enerji təhlükəsizliyində mühüm rol oynayan dövlətlərdən biridir. Təbii qazın Avropaya ixracı, bərpaolunan enerji layihələrinin genişləndirilməsi, "yaşıl enerji" zonalarının yaradılması ölkəmizin iqtisadi potensialını daha da artırır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas üstünlüyü ondan ibarətdir ki, Azərbaycan heç bir geosiyasi qarşıdurmanın tərəfi olmadan bütün dövlətlərlə qarşılıqlı hörmət və bərabərhüquqlu əməkdaşlıq prinsiplərinə əsaslanan münasibətlər qurur. Məhz bu siyasətin nəticəsidir ki, Azərbaycan həm Avropa İttifaqı, həm Türk Dövlətləri Təşkilatı, həm Qoşulmama Hərəkatı, həm İslam Əməkdaşlıq Təşkilatı, həm də ŞƏT kimi müxtəlif platformalarda etibarlı tərəfdaş kimi qəbul edilir. Bu isə müasir dövrdə nadir diplomatik uğurlardan biridir. Bişkek sammiti bir daha göstərdi ki, Azərbaycanın beynəlxalq nüfuzu davamlı şəkildə artır. Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində ölkəmiz regional təşəbbüslərin iştirakçısından onların müəlliflərindən birinə çevrilmişdir. Azərbaycan bu gün sülhün, əməkdaşlığın, iqtisadi tərəqqinin və qarşılıqlı etimadın təşviqində mühüm rol oynayan dövlət kimi dünya birliyi tərəfindən yüksək dəyərləndirilir.

### Azərbaycanın qarşısında açılan yeni imkanlar: ŞƏT platforması və gələcəyin geosiyasi xəritəsi

Bişkekdə keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə Toplantısında Azərbaycanın iştirakı yalnız növbəti beynəlxalq tədbirdə iştirak kimi qiymətləndirilməməlidir. Bu hadisəyə daha geniş geosiyasi kontekstdən yanaşmaq lazımdır. Çünki Azərbaycan son illərdə formalaşdırdığı çoxvektorlu, milli maraqlara əsaslanan və praqmatik xarici siyasət kursu ilə artıq müxtəlif regional təşəbbüslərin kəsişmə nöqtəsinə çevrilib.

Bu gün Azərbaycanın qarşısında duran əsas vəzifələrdən biri əldə etdiyi siyasi-diplomatik imkanları uzunmüddətli iqtisadi üstünlüklərə çevirməkdir. ŞƏT platforması bu baxımdan ölkəmiz üçün yeni imkanlar yaradır. Azərbaycanın coğrafi mövqeyi burada xüsusi əhəmiyyət daşıyır. Xəzər dənizi ölkəmizi Mərkəzi Asiya ilə birləşdirir, Cənubi Qafqaz üzərindən Avropaya çıxış isə Azərbaycanın tranzit potensialını daha da artırır. Beləliklə, ölkəmiz həm Şərq-Qərb, həm də Şimal-Cənub istiqamətlərində mühüm kommunikasiya qovşağı kimi çıxış edir. Dünyada ticarət marşrutlarının yenidən formalaşdığı bir dövrdə nəqliyyat dəhlizləri dövlətlərin iqtisadi və siyasi çəkisini müəyyən edən əsas amillərdən birinə çevrilir. Bu mənada Orta dəhliz Azərbaycanın gələcək inkişaf strategiyasında xüsusi yer tutur. Gələcək nəqliyyat strategiyasında regionda kommunikasiyaların açılması məsələsi də mühüm yer tutur. Zəngəzur istiqamətində nəqliyyat bağlantılarının yaradılması yalnız Azərbaycan üçün deyil, bütövlükdə region üçün yeni iqtisadi imkanlar yarada bilər.

### Türk dünyası amili

Bişkekdə Azərbaycanın fəallığının mühüm istiqamətlərindən biri də türk dünyası ilə əlaqələrin daha da möhkəmləndirilməsi baxımından əhəmiyyət daşıyır. Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə münasibətlərinin son illərdə sürətlə inkişaf etməsi təsadüfi deyil. Tarixi, mədəni və dil bağları ilə yanaşı, bu münasibətlər artıq konkret iqtisadi və strateji layihələrlə də möhkəmlənir. Xəzər dənizi üzərindən nəqliyyat əlaqələrinin genişləndirilməsi, enerji əməkdaşlığı, rəqəmsal bağlantılar, investisiyalar və qarşılıqlı ticarətin artırılması Azərbaycan ilə Mərkəzi Asiya arasında yeni iqtisadi məkanın formalaşmasına zəmin yaradır. Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın genişlənməsi də bu prosesə əlavə impuls verir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan həm Qərblə, həm Şərqlə, həm Şimalla, həm də Cənubla münasibətlərini milli maraqlar əsasında inkişaf etdirir. Azərbaycan yeni dünya nizamında özünə ayrılan yeri gözləmir, mövqeyini milli iradəsi, güclü dövlətçilik siyasəti və fəal diplomatiyası ilə özü formalaşdırır. Güclü dövlət, müstəqil siyasət və milli maraqlara söykənən diplomatiya Azərbaycanın XXI əsrdəki ən böyük strateji üstünlüyüdür.

***Asif ƏSGƏROV,***
***Milli Məclisin deputatı***

# Azərbaycanın çoxvektorlu diplomatiyasının nümunəsi

**"Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) 26-cı Zirvə toplantısı Bişkekdə keçirildi. Bu Zirvə toplantısı təşkilatın 25 illiyinə təsadüf etdi. Qeyd etmək lazımdır ki, ŞƏT-ə üzv dövlətlər dünya əhalisinin 40 faizindən çoxunu, qlobal ÜDM-in isə təxminən dörddəbirini təşkil edir".**

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında **Milli Məclisin deputatı Pərvanə VƏLİYEVA** bildirib. "ŞƏT Plus" görüşlərinə diqqətçəkən deputat bu formatın əhəmiyyətini vurğulayıb: "Bu format təşkilatın yalnız üzv dövlətləri çərçivəsində deyil, daha geniş Avrasiya platforması kimi fəaliyyət göstərməsinə imkan verir. Azərbaycan da bu formatda iştirak edir. Azərbaycan üçün bu məsələ yalnız hər hansı bir siyasi blokun daxilində yer almaq deyil. Əsas məsələ müxtəlif platformalarla əməkdaşlıq edərək ölkənin milli maraqlarına uyğun imkanları genişləndirməkdir. Bu, Azərbaycanın xarici siyasətinin çevikliyini göstərən mühüm məqamdır".

Qeyd edək ki, ŞƏT tədbirlərində iştirak etmək üçün avqustun 31-də Qırğız Respublikasına işgüzar səfər edən Prezident İlham Əliyevin Bişkekdə bir sıra ikitərəfli görüşləri olub. "Ermənistan Baş naziri Nikol Paşinyanla görüşdə sülh gündəliyi, TRIPP və regional bağlantılar müzakirə edilib. Tərəflər davamlı sülhün möhkəmləndirilməsi və əlaqələrin normallaşdırılması istiqamətində birbaşa təmasları davam etdirmək barədə razılaşıblar. İran Prezidenti Məsud Pezeşkianla, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevlə, həmçinin Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşlər keçirilib. Bu görüşlər göstərir ki, Bakı üçün ŞƏT yal-



nız təşkilatın öz çərçivəsində əməkdaşlıq platforması deyil, Çin, Hindistan, Rusiya, Mərkəzi Asiya, İran və digər aktorlarla eyni diplomatik məkanda təmas imkanını genişləndirən formatdır", - deyə Pərvanə Vəliyeva bildirib.

ŞƏT-in gündəliyində nəqliyyat, logistika, enerji və rəqəmsal bağlantı getdikcə daha böyük yer tutur. Bu barədə danışan Pərvanə Vəliyeva deyib: "Bütün bu məsələlər Azərbaycanın geoiqtisadi mövqeyini ön plana çıxarır. Bişkek sammitinin ən maraqlı tərəfi budur ki, ŞƏT getdikcə təhlükəsizlik təşkilatından daha geniş Avrasiya əməkdaşlıq platformasına çevrilir. Burada təhlükəsizliklə yanaşı, nəqliyyat dəhlizləri, enerji, ticarət, investisiya, rəqəmsal transformasiya və regional bağlantılar ön plana çıxır. Azərbaycanın bu platformadakı iştirakı ölkənin Şərq-Qərb və Şimal-Cənub bağlantılarının kəsişməsində yerləşən tranzit və enerji mərkəzi kimi rolunu gücləndirmək üçün əlavə diplomatik imkan yaradır.

Azərbaycan bir tərəfdən, Avropa ilə enerji və nəqliyyat əməkdaşlığını inkişaf etdirir, digər tərəfdən, Mərkəzi Asiya ilə əlaqələrini dərinləşdirir, Türk Dövlətləri Təşkilatında inteqrasiya proseslərinə töhfə verir, islam dünyası ilə münasibətləri genişləndirir və eyni zamanda ŞƏT kimi Avrasiya miqyaslı platformalarla əməkdaşlığını gücləndirir".

Prezident İlham Əliyevin Qırğız Respublikasına işgüzar səfəri Azərbaycanın bu ölkə ilə əlaqələri baxımından da mühüm siyasi əhəmiyyət kəsb edir. "Qırğızıstanın Azərbaycanın xarici siyasətində əhəmiyyəti son illərdə nəzərəçarpacaq dərəcədə artıb. Bunun səbəbi yalnız iki ölkənin dostluq münasibətləri və türk dünyasına mənsubiyyəti deyil. Mərkəzi Asiyanın beynəlxalq siyasətdə və qlobal iqtisadiyyatda artan çəkisi Azərbaycan üçün Qırğızıstanı daha əhəmiyyətli tərəfdaşa çevirir. Azərbaycanın Mərkəzi Asiyaya münasibəti artıq klassik diplomatik əlaqələr çərçivəsindən çıxıb. Burada nəqliyyat marşrutları, enerji əməkdaşlığı, investisiyalar, ticarət, logistika, rəqəmsal bağlantılar və humanitar əlaqələr bir-birini tamamlayan istiqamətlər kimi çıxış edir", - deyə Pərvanə Vəliyeva bildirib.

Beləliklə, Prezident İlham Əliyevin Bişkekdəki təmasları Azərbaycanın Avrasiyanın müxtəlif güc mərkəzləri arasında balanslaşdırılmış və çoxvektorlu diplomatiyasının praktik nümunəsidir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# "ŞƏT+" Mərkəzi Asiya, Cənubi Qafqaz və Türkiyənin təbii şəkildə inteqrasiyası üçün platformaya çevrilir"

**"ŞƏT plus" formatı tədricən daha geniş Avrasiya gündəliyinin formalaşdırılması mexanizminə çevrilir. Xüsusilə "ŞƏT+" dövlətlərinin çoxqütblü dünyanın formalaşdırılmasında iştirakı və BMT-nin ədalətli dünya nizamının yaradılmasındakı rolunun müzakirə mövzusu olması böyük rəmzi məna daşıyır".**



Bu fikirləri **Qırğızıstanın Azərbaycandakı keçmiş səfiri Kayrat OSMONALİYEV** AZƏRTAC-a açıqlamasında deyib.

Qırğız ekspert Azərbaycanın və Türkiyənin iştirakını xüsusilə qeyd edib: "Onların iştirakı ŞƏT-in Qafqaz və türk dünyası ilə əlaqələrini daha da gücləndirir. Bu baxımdan, "ŞƏT+" Mərkəzi Asiya, Xəzər, Cənubi Qafqaz və Türkiyənin inteqrasiyası üçün təbii platformaya çevrilir".

Onun sözlərinə görə, bu, Qırğızıstan üçün çox konkret perspektivlər açır: "Əgər ŞƏT üzv dövlətlərin təşkilatıdırsa, "ŞƏT+" tədricən daha geniş Avrasiya əməkdaşlığı platformasına çevrilir. Məhz Qırğızıstan bu görüşü Bişkekdə keçirməklə belə bir formatın institusionallaşdırılmasına mühüm töhfə verib.

Mən "ŞƏT+" formatının Türk Dövlətləri Təşkilatı və Orta dəhlizlə inteqrasiyasını xüsusilə perspektivli hesab edirəm. Dünən Azərbaycan və Türkiyənin iştirakı bunu çox aydın şəkildə nümayiş etdirdi".

# "Azərbaycanla Ermənistan arasında münasibətlərin inkişafı regiona müsbət təsir göstərəcək"

**"Azərbaycan bizim üçün sadəcə qonşu və dost ölkə deyil, ən etibarlı strateji tərəfdaşdır. Əgər Azərbaycanla birlikdə regional və beynəlxalq layihələri həyata keçirsək, əlbəttə, bu, ölkəmiz üçün faydalı olacaq. Azərbaycan bu gün təkcə Cənubi Qafqazda deyil, dünya arenasında mühüm rol oynayan dövlətdir. Bu baxımdan, Azərbaycan Prezidentinin bir sıra nüfuzlu beynəlxalq təşkilatların, o cümlədən Şanxay Əməkdaşlıq Təşkilatının toplantısında iştirakını yüksək qiymətləndiririk. Prezident İlham Əliyevin bu tədbirdə iştirakı, keçirdiyi görüşlər və qaldırdığı məsələlər təkcə Azərbaycan və ya Cənubi Qafqaz üçün deyil, bütövlükdə qlobal miqyasda mühüm əhəmiyyət kəsb edir".**




Bu sözləri AZƏRTAC-a müsahibəsində gürcü analitik, **professor, "Vahid Neytral Gürcüstan" partiyasının regional katibi Levan NİKOLEİŞVİLİ** söyləyib.

Onun sözlərinə görə, ŞƏT bir sıra vacib layihələrin reallaşmasında, eləcə də bir sıra məsələlərin, o cümlədən təhlükəsizlik məsələlərinin həllində mühüm rol oynayır: "Əlbəttə, bu, mühüm amildir və biz Şanxay Əməkdaşlıq Təşkilatı, BRİKS və digər beynəlxalq təşkilatlarla əməkdaşlığın tərəfdarıyıq. Əgər bütün bunlar Gürcüstanın və Cənubi Qafqazın maraqlarına xidmət edirsə, təbii ki, bunu müsbət qarşılayırıq".

Politoloq qeyd edib ki, ŞƏT çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın Baş naziri Nikol Paşinyanın görüşü də mühüm əhəmiyyət kəsb edir. Bu görüş regionda uzun illər mövcud olan münaqişənin tamamilə aradan qalxması istiqamətində növbəti addımdır. Münasibətlər isə sülh yolu ilə inkişaf edir.

"Bu münasibətlər Azərbaycan və Ermənistan arasında iqtisadi əməkdaşlığın və inkişafın daha yüksək səviyyəyə qalxması üçün əsas yaradır. Bu isə, əlbəttə, Gürcüstana və bütövlükdə Cənubi Qafqaz regionuna da müsbət təsir göstərəcək. Azərbaycan, Ermənistan və Gürcüstan arasında münasibətlərin daha da yaxınlaşması hər üç ölkəyə daha böyük iqtisadi uğurlar gətirə bilər", - deyə L.Nikoleişvili bildirib.

# Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan mərhələsi

## Bu, Azərbaycanın müasir dövlətçilik tarixinin şərəfli salnaməsidir

**Ulu Öndər Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan mərhələsi Azərbaycan tarixinin ən mürəkkəb və taleyüklü dövrlərindən birinə təsadüf edir. Sovet İttifaqının dağılmaqda olduğu, Ermənistanın ölkəmizə qarşı ərazi iddialarının və hərbi təcavüzünün genişləndiyi həmin dövrdə Naxçıvan da son dərəcə ağır vəziyyətlə üz-üzə qalmışdı. Belə bir şəraitdə Heydər Əliyevin Naxçıvana qayıdışı və burada siyasi fəaliyyətə başlaması yalnız muxtar respublikanın deyil, bütövlükdə Azərbaycanın gələcək taleyinə mühüm təsir göstərən tarixi hadisəyə çevrildi.**



1990-cı il iyulun 20-də Moskvadan Azərbaycana qayıdan Heydər Əliyev iki gün sonra Naxçıvana gəldi. Ulu Öndərin Naxçıvana gəlişi respublikamızdakı milli azadlıq hərəkatının yeni mərhələyə keçməsinə böyük təkan verdi. Həmin dövrdə xalqın müstəqillik arzusu güclənsə də, bu istəyin konkret siyasi və hüquqi müstəviyə keçirilməsi üçün qətiyyətli liderə ehtiyac var idi. Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi, siyasi iradəsi və xalqla sıx bağlılığı bu baxımdan mühüm amilə çevrildi.

1990-cı ilin parlament seçkilərində Heydər Əliyevin həm Azərbaycan SSR Ali Sovetinə, həm də Naxçıvan MSSR Ali Sovetinə deputat seçilməsi xalqın Ulu Öndərə olan inamının və etimadının dərin təcəssümü idi. 1990-cı il noyabrın 17-də Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan MSSR Ali Sovetinin sessiyası xalqımızın müstəqillik mücadiləsi tarixinin ən mühüm səhifələrindən biridir. Məhz həmin sessiyada muxtar respublikanın adından "sovet" və "sosialist" sözlərinin çıxarılması barədə qərar qəbul edildi. Eyni zamanda, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olundu və onun Azərbaycanın ali qanunvericilik orqanında da dövlət rəmzi kimi qəbul edilməsi məsələsi qaldırıldı.

Bu qərarların hər biri Heydər Əliyevin cəsarətinin, qətiyyətinin və vətənpərvərliyinin göstəriciləri idi. Ulu Öndərin təşəbbüsləri ilə qəbul edilən bu qərarlar sonradan bütün Azərbaycan üçün əhəmiyyətli siyasi-hüquqi proseslərin başlanğıcına çevrildi. Beləliklə, müstəqil dövlətçilik ideyası konkret siyasi qərarlarda öz ifadəsini tapdı.

Həmin dövrdə Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Ali Sovetinin 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verməsi də xüsusi qeyd olunmalıdır. Naxçıvanın bu faciəyə ilk siyasi qiymət verən ünvan olması bir daha Ulu Öndərin cəsarətindən xəbər verdi. 1991-ci ilin martında SSRİ-nin saxlanılması ilə bağlı ümumittifaq referendumunun Naxçıvanda boykot edilməsi də Heydər Əliyevin liderliyi ilə aparılan bu siyasi xəttin davamı idi.

1991-ci il sentyabrın 3-də Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi isə Ulu Öndərin siyasi fəaliyyətinin Naxçıvan mərhələsində yeni səhifə açdı və Azərbaycanın müasir dövlətçilik tarixinin mühüm hadisəsinə çevrildi. Həmin vaxt Naxçıvan olduqca mürəkkəb vəziyyətdə idi. Bir tərəfdən sərhəd yaşayış məntəqələri Ermənistanın hücumlarına məruz qalır, digər tərəfdən blokada şəraiti muxtar respublikada vəziyyəti daha da ağırlaşdırırdı. O zamankı Azərbaycan rəhbərliyinin laqeydliyi və ölkədəki siyasi qarşıdurma vəziyyəti daha da mürəkkəbləşdirirdi. Bu baxımdan, Ulu Öndərin ilk addımlarından biri Naxçıvanın etibarlı müdafiəsinin təşkili oldu. 1991-ci il sentyabrın 7-də Naxçıvan Dövlət Müdafiə Komitəsinin yaradılması muxtar respublikanın müdafiə qabiliyyətinin gücləndirilməsi baxımından mühüm addım oldu. Sonrakı dövrdə keçmiş sovet ordusunun Naxçıvanda yerləşən hissələrinin çıxarılması və onların silah-sursatının muxtar respublikada saxlanılması da müdafiənin təşkilində mühüm rol oynadı.

Bu tədbirlər Naxçıvanın Ermənistanın hərbi təcavüzü qarşısında müdafiəsiz qalmasının qarşısını aldı. Muxtar respublikanın sakinləri öz torpaqlarının müdafiəsi üçün səfərbər oldular. Heydər Əliyevin rəhbərliyi altında Naxçıvanda müdafiə məsələlərinin vahid və sistemli şəkildə təşkil edilməsi sonrakı illərdə Azərbaycanın milli ordu quruculuğu üçün də mühüm təcrübə yaratdı.

Naxçıvanın həmin illərdə üzləşdiyi əsas problemlərdən biri də iqtisadi və enerji blokadası idi. Ermənistan tərəfindən Azərbaycanın əsas əraziləri ilə quru əlaqələrinin kəsilməsi muxtar respublikanın sosial-iqtisadi vəziyyətinə ciddi təsir göstərmişdi. Təbii qazın və elektrik enerjisinin verilməsinin dayandırılması, nəqliyyat əlaqələrinin məhdudlaşması insanların gündəlik həyatını ağırlaşdırmışdı. Həmin çətin günlərdə məhz Heydər Əliyevin siyasi liderlik keyfiyyətləri muxtar respublikadakı çətinliklərin aradan qaldırılmasına təsirini göstərdi. Belə ki, Ulu Öndərin Türkiyə və İranla yaratdığı əlaqələr, "Ümid" körpüsünün istifadəyə verilməsi Naxçıvanın xarici aləmə çıxış imkanlarının genişlənməsi baxımından mühüm hadisələr oldu.

Azərbaycanın müstəqilliyinin ilk illərində ölkədə yaşanan siyasi xaos, anarxiya orta və yaşlı nəslin xatirindədir. Həmin vaxt ölkənin sabahını düşünən vətəndaşların xilas üçün Heydər Əliyevə müraciət etmələri təsadüfi deyildi. Çünki Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə ölkəmiz böyük inkişaf yolu keçmişdi. Naxçıvandakı fəaliyyəti dövründə isə Ulu Öndər bu qədim yurd yerimizi işğaldan qorumuş, xilas etmişdi. Ona görə müstəqilliyimizin ilk illərində yaranan böhranlar zamanı Azərbaycan ictimaiyyəti inanırdı ki, ölkəni düşdüyü bu ağır vəziyyətdən yalnız Heydər Əliyev qurtara bilər. 1992-ci ilin noyabr ayında Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis edilməsi də bu inamın göstəricisi idi.

1993-cü ildə Heydər Əliyevin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışı Azərbaycanın müasir siyasi tarixində yeni mərhələnin başlanğıcı oldu. Naxçıvanı xilas edən Ulu Öndər Bakıya gəldikdən sonra özünün siyasi dühası ilə Azərbaycanın müstəqilliyinin itirilməsinin, ölkəmizin parçalanmasının qarşısını aldı. Ölkədəki siyasi və hərbi böhrana son qoyan Heydər Əliyev müasir Azərbaycan dövlətini yaratdı.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi tarixi uğurlar Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik strategiyasının qətiyyətlə davam etdirildiyini göstərir. Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpa edilməsi, ölkənin regional və beynəlxalq mövqelərinin möhkəmlənməsi, iqtisadi potensialının artırılması və müstəqil xarici siyasət kursunun həyata keçirilməsi göstərir ki, Prezident İlham Əliyev qətiyyətli və müdrik siyasəti ilə Ulu Öndərin ideyalarının həyata vəsiqə almasını uğurla təmin edir.

Bütövlükdə, Heydər Əliyevin Naxçıvanda siyasi fəaliyyəti Azərbaycan dövlətçilik tarixinin mühüm mərhələlərindən biridir. Ulu Öndər ən mürəkkəb şəraitdə siyasi iradə nümayiş etdirərək Naxçıvanın qorunmasına, milli dövlətçilik ideyalarının möhkəmlənməsinə və Azərbaycanın müstəqilliyə gedən yolunun sürətlənməsinə böyük töhfə verdi. Buna görə də Naxçıvan dövrü Heydər Əliyevin siyasi irsinin şərəfli səhifəsi, Azərbaycanın müasir dövlətçilik tarixinin təməlini təşkil edən qürurdoğuran salnamədir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Görkəmli şəxsiyyətin ömür salnaməsi yeni nəşrdə

**Vətənin tərəqqisinə çalışmış böyük şəxsiyyətlər heç zaman unudulmurlar. Onların ölkələrinin parlaq gələcəyi, soydaşlarının rifahı naminə gördükləri misilsiz işlər ehtiramla, minnətdarlıqla xatırlanır. Belə böyük insanların keçdikləri çətin, keşməkeşli ömür yolu, dəyərli fəaliyyəti öyrənilir, nümunə göstərilir. Yeni işıq üzü görmüş "Əziz Əliyev. Görkəmli dövlət və elm xadimi" kitabı da bu baxımdan diqqətə və təqdirə layiqdir.**




Yeni nəşrdə dövlət və elm xadimi, professor Əziz Əliyevin zəngin həyat yolu, çoxşaxəli dövlətçilik fəaliyyəti, səhiyyə və tibb təhsilinin inkişafına verdiyi mühüm töhfələr, o cümlədən İkinci Dünya müharibəsi illərində göstərdiyi xidmətlər haqqında geniş məlumat əksini tapıb.

Kitabda qeyd olunur ki, Azərbaycanın çoxəsrlik tarixi görkəmli şəxsiyyətlərlə - hökmdarlar, dövlət xadimləri, alimlər, mədəniyyət və maarif xadimləri, eləcə də yaddaşlardan silinməyən digər böyük insanlarla zəngindir. Onlar öz dövrdaşlarının yalnız müasiri deyil, eyni zamanda yolgöstərəni olublar. Öz mənalı ömürləri, yüksək fəaliyyətləri ilə vətənin və soydaşlarının gələcəyinə işıq saçıblar. Azərbaycanın tanınmış dövlət xadimlərindən biri, alim, pedaqoq və həkim Əziz Əliyev (1897-1962) belə bir ömür yaşayıb. O, Azərbaycan tarixinin ən mürəkkəb və ziddiyyətli dövrlərindən olan XX əsrə mühüm iz qoymuş şəxsiyyətlərdəndir. "Əziz Əliyev. Görkəmli dövlət və elm xadimi" kitabında qeyd olunduğu kimi, onun taleyinə nəzər saldıqda həmin dövrün, demək olar ki, bütün tarixi mərhələlərini izləmək mümkündür - siyasi təlatümlər, inqilablar, siyasi quruluşların dəyişməsi, o cümlədən sovet hakimiyyətinin qurulması, azərbaycanlıların bugünkü Ermənistan Respublikasının ərazisindəki əzəli torpaqlarından zorla deportasiyası və soyqırımı, Stalin repressiyaları, İkinci Dünya müharibəsi...

Əziz Əliyevin həyatı və fəaliyyəti xalqımızın həmin çətin tarixi dövrü və İkinci Dünya müharibəsi illəri ilə sıx bağlı olub. "Əziz Əliyev. Görkəmli dövlət və elm xadimi" kitabında yazılır: "Bütün bu hadisələr Əziz Əliyevin keşməkeşli həyat yoluna təsir göstərmişdir. Onun həyatında nailiyyətlər, karyera yüksəlişi, eyni zamanda haqsız təqib də olmuşdur. Buna baxmayaraq, Əziz Əliyev hər zaman ləyaqətli, dürüst, vəzifəsinə sadiq insan olaraq qalmışdır. Təhsili üzrə həkim olsa da, o, yalnız ixtisası çərçivəsində fəaliyyət göstərən biri deyildi, əksinə, geniş dünyagörüşünə malik və dövlətçilik ruhunda düşünən bir şəxsiyyət idi. Hansı vəzifədə çalışmasından asılı olmayaraq - istər yüksək dövlət vəzifələrində, istərsə də həkimlik fəaliyyətində, o, həmişə peşəkarlığı, fədakarlığı, işinə sədaqəti, vətən və xalqın rifahı naminə xidməti ilə seçilirdi. Əbəs yerə demirdilər ki, Əziz Əliyevin diqqət mərkəzində hər şeydən əvvəl insan və onun rifahı dayanır".

İllər ötüb keçir. Ancaq zamanın xalqının bu istedadlı və fədakar övladını uzaqlaşdırmağa gücü yetmir. Əziz Əliyev şəxsiyyətinin böyüklüyü daha aydın görünür. Kitabda vurğulandığı kimi, onun fəaliyyəti həm faciələrlə, həm də şanlı səhifələrlə dolu XX əsr Azərbaycan tarixinin ayrılmaz hissəsidir.

Kitabda xalqımızın bu dəyərli övladının həyat yolundan bəhs olunur. Əziz Əliyev İrəvan xanlığı torpaqlarından - Qərbi Azərbaycandan idi. Tarixi mənbələrdən də məlum olduğu kimi, XVIII-XIX əsrlərdə mövcud olmuş Azərbaycan dövlətlərindən biri olan İrəvan xanlığı ərazilərinə ermənilər sonradan köçürülüb. 1827-ci ildə İrəvan xanlığının işğalından, həmçinin 1828-ci və 1829-cu illərdə İran və Osmanlı imperiyaları ilə apardığı müharibələrdə əldə etdiyi uğurlardan sonra Rusiya yüz minlərlə ermənini Cənubi Qafqaza köçürmək, İrəvan və Naxçıvan xanlıqlarının torpaqları hesabına "erməni vilayəti" yaratmaq fürsəti qazandı. Regionun faciələrlə dolu günləri də elə o vaxtdan başladı. Azərbaycan qədim ərazilərinin bir hissəsini itirdi, Qərbi Azərbaycan torpaqlarında Ermənistan adlı dövlət yaradıldı. Sovet hakimiyyəti dövründə də azərbaycanlılara qarşı ədalətsizlik ən ağır şəkildə davam etdirildi.

Kitabda qeyd olunur ki, Əziz Əliyev Azərbaycanın İrəvan quberniyasının Hamamlı kəndində 1897-ci il yanvarın 1-də dünyaya gəlib. 1905-ci ildə onun ailəsi quberniyanın İrəvan şəhərinə köçüb. İrəvan gimnaziyasını qızıl medalla bitirən Əziz Əliyev 1917-ci ildə Rusiya imperiyasının nüfuzlu elm-tədris müəssisələrindən biri olan Petroqrad (indiki Sankt-Peterburq) Hərbi Tibb Akademiyasına qəbul olunub. Lakin 1918-ci ilin faciəli hadisələri səbəbindən təhsilini yarımçıq qoyub, vətənə qayıdıb.

1923-cü ildə Bakıya köçən Əziz Əliyev həm çalışıb, həm də ali təhsil almaq arzusunu həyata keçirib. O, Azərbaycan Dövlət Universitetinin Tibb fakültəsini bitirib. Səhiyyə sahəsində məsul vəzifələrdə çalışıb. Azərbaycan Dövlət Tibb İnstitutuna rəhbərlik edib. Onun təşəbbüsü ilə milli tibb kadrlarının hazırlanması və Azərbaycan dilində tibbi dərsliklərin nəşri geniş vüsət alıb.

İkinci Dünya müharibəsi illərində Şimali İranda xüsusi dövlət missiyasına rəhbərlik edən Əziz Əliyev, daha sonra Dağıstana rəhbər təyin olunaraq regionun müdafiəsinin təşkili və ictimai-siyasi sabitliyin təmin edilməsində mühüm xidmətlər göstərib. O, 1950-ci illərdə siyasi təzyiqlərə məruz qalsa da, sonradan bəraət alaraq elmi-pedaqoji fəaliyyətini davam etdirib və Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutuna rəhbərlik edib.

Əziz Əliyev 1962-ci il iyulun 27-də vəfat edib. Onun xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilib, iki dəfə "Lenin" ordeni, I dərəcəli "Vətən müharibəsi" ordeni, "Qırmızı Əmək Bayrağı" ordeni və digər yüksək mükafatlarla təltif olunub. Prezident İlham Əliyevin vurğuladığı kimi: "Əziz Əliyevin çoxşaxəli fəaliyyəti həm Azərbaycanda, həm Azərbaycandan kənarda yüksək qiymətləndirilir". Onun adı bu gün də Azərbaycan və Dağıstanda elm, təhsil və səhiyyə müəssisələrində, küçələrdə və abidələrdə yaşadılır.

Əziz Əliyev Azərbaycan tarixində dövlətə sədaqətin, yüksək peşəkarlığın və vətənpərvərliyin parlaq nümunəsi olan zəngin irsi ilə əbədi yer tutub.

***"Azərbaycan"***

# Çinin baş prokurorunun ölkəmizə işgüzar səfəri başa çatıb

**Çin Xalq Respublikasının Ali Xalq Prokurorluğunun baş prokuroru Yinq Yonqun rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycan Respublikasına işgüzar səfəri çərçivəsində bir sıra görüş və tədbirlər keçirilib, ölkəmizin dövlət idarəçiliyi, tarixi və mədəni irsi ilə yaxından tanışlıq məqsədilə müxtəlif məkanlara səfərlər təşkil olunub.**



Səfər proqramına uyğun olaraq nümayəndə heyəti ilk olaraq Heydər Əliyev Mərkəzini ziyarət edib. Qonaqlar burada ölkəmizin müasir inkişafının simvollarından biri olan mərkəzin fəaliyyəti ilə, dünyaşöhrətli siyasətçi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin zəngin dövlətçilik irsini, həyat və çoxşaxəli fəaliyyətini əks etdirən eksponatlarla, habelə ölkəmizin sosial-iqtisadi və mədəni həyatında baş verən mühüm yenilikləri əks etdirən layihə və ekspozisiyalarla tanış olublar.

Daha sonra nümayəndə heyəti 7 saylı "ASAN xidmət" mərkəzini ziyarət edib. Burada qonaqlar "ASAN xidmət" mərkəzlərində yaradılmış müasir iş şəraiti, dövlət xidmətlərinin göstərilməsi üzrə tətbiq olunan innovativ və rəqəmsal həllər, eləcə də vətəndaş məmnunluğuna əsaslanan xidmət modeli ilə yaxından tanış olublar.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev nümayəndə heyətinə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə yaradılmış "ASAN xidmət" mərkəzlərinin fəaliyyəti, onların idarəetmə modeli, dövlət xidmətlərinin göstərilməsi sahəsində tətbiq olunan müasir və innovativ yanaşmalar barədə ətraflı məlumat verib.

Nümayəndə heyəti səfər müddətində Bakı şəhərinin tarixi məkanlarını da ziyarət edib, paytaxtın zəngin tarixi-mədəni irsi ilə yaxından tanış olub.

Həmçinin nümayəndə heyəti Qobustan Milli Tarix-Bədii Qoruğunda olub, burada qorunub saxlanılan qədim qayaüstü təsvirləri və tarixi-mədəni irs nümunələri ilə tanış olub, Qobustan ərazisində yerləşən palçıq vulkanlarına baxış keçirib.

Səfər çərçivəsində qonaqlar Azərbaycan Dövlət Akademik Musiqili Teatrında təşkil olunan konsert proqramını izləyiblər.

Səfər zamanı nümayəndə heyətinə Azərbaycanın qədim tarixi, zəngin mədəni irsi, müasir inkişafı və dövlət xidmətlərinin təşkili sahəsində həyata keçirilən innovativ layihələr barədə məlumat verilib.

Bununla da Çin Xalq Respublikasının Ali Xalq Prokurorluğunun baş prokuroru Yinq Yonqun rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycan Respublikasına işgüzar səfəri başa çatıb.

***"Azərbaycan"***

# Rəqəmsal təhdidlərlə mübarizə müasir təhlükəsizlik çağırışlarının mühüm elementidir

**Rəqəmsal inkişaf hər nə qədər saysız-hesabsız üstünlüklər yaratsa da, özü ilə ciddi təhlükələr də gətirir. Beynəlxalq təşkilatların hesablamalarına görə, təkcə son illərdə qlobal miqyasda kiberhücumların və məlumat sızmalarının iqtisadiyyata vurduğu zərər trilyonlarla dollarla ölçülür. Ona görə süni intellektin yanlış məqsədlər üçün istifadəsi, kibertəhlükəsizlik boşluqları və şəxsi məlumatların qorunması ilə bağlı narahatlıqlar günümüzün ən əsas çağırışlarındandır.**

Süni intellekt alqoritmlərinin qərəzli qərarlar qəbul etməsi və ya avtomatlaşdırılmış sistemlərin pis niyyətlərlə istifadə olunması bütöv cəmiyyətlər üçün böyük risklər yaradır. Eyni zamanda kiberhücumlar infrastruktur obyektlərini, enerji şəbəkələrini, səhiyyə sistemlərini, dövlət müəssisələrini və ayrı-ayrı vətəndaşları hədəfə alaraq maliyyə itkilərinə və kütləvi məlumat sızmalarına səbəb olur. Bu qlobal risklərin qarşısını almaq üçün dövlət qurumları, özəl sektor və cəmiyyət tərəfindən vaxtında addımların atılması mühüm məsələdir.

Rəqəmsal təhdidlərə qarşı müxtəlif ölkələrdə fərqli və sərt sistemlər yaradılır. Böyük Britaniya hökuməti rəqəmsal təhlükəsizliyi təmin etmək məqsədilə Milli Kibertəhlükəsizlik Mərkəzi vasitəsilə mütəmadi olaraq xüsusi bələdçilər yayımlayır. Eyni zamanda ölkə infrastrukturlara qarşı yönələn gündəlik minlərlə hücumun qarşısını avtomatlaşdırılmış sistemlər vasitəsilə alır.

Rəqəmsal idarəetmədə qabaqcıl ölkə olan Estoniya bütün dövlət məlumat bazalarını qorumaq üçün "X-Road" platformasında blokçeyn texnologiyasına əsaslanan şifrələmə sistemindən istifadə edir. Bu da kiberhücumlar zamanı məlumatların təhrif olunmasının qarşısını tam alır.

Yaponiya rəqəmsal transformasiya təhdidləri ilə mübarizə üçün Kibertəhlükəsizlik Strategiyası qəbul edib. Bu strategiya çərçivəsində sənaye və universitetlər arasında sıx əməkdaşlıq qurulur, "Etik Haker" proqramları maliyyələşdirilir və potensial boşluqlar əvvəlcədən müəyyənləşdirilir.

Həmçinin qlobal miqyasda ən sürətli internet şəbəkələrindən birinə sahib olan Cənubi Koreya süni intellekt əsaslı dələduzluqların və kiberhücumların qarşısını almağa çalışır. Bu məqsədlə ölkədə dövlət səviyyəsində xüsusi Süni İntellekt Təhlükəsizlik Agentliyi təsis edilib və sərt cərimə mexanizmləri tətbiq olunur.

Avstraliya hökuməti bizneslərin kiber dayanıqlığını möhkəmləndirmək üçün kibertəhlükəsizlik qanunvericiliyi yaradıb və təhlükə barədə məlumatı vaxtında paylaşmayan şirkətlərə qarşı böyük maliyyə sanksiyaları nəzərdə tutub.

Avropa İttifaqının daxilində isə bu qlobal çağırışlara qarşı son illərdə bir neçə mühüm sistem və qanunvericilik bazası formalaşdırılıb. Bunlardan biri olan və Avropa miqyasında sərt tənzimləmə tətbiq edən Ümumi Məlumatların Qorunması Reqlamenti (GDPR) şəxsi məlumatların təhlükəsizliyi üçün ciddi standartlar müəyyən edib. Analitik mərkəzlərin məlumatlarına əsasən, GDPR qüvvəyə mindikdən sonra şirkətlər tərəfindən ödənilən cərimələrin ümumi məbləği milyardlarla avronu ötüb ki, bu da reqlamentin nə dərəcədə sərt nəzarət mexanizminə malik olduğunu göstərir. Həmçinin yenilənmiş Şəbəkə və İnformasiya Sistemləri Direktivi enerji, nəqliyyat və səhiyyə kimi əsas strateji sektorlarda kibertəhlükəsizlik tədbirlərini daha da gücləndirir. Bundan əlavə, dünyada ilk hərtərəfli qanunvericilik aktı olan Süni İntellekt Aktı süni intellekt sistemlərini risk dərəcələrinə görə minimal, yüksək və qadağan olunmuş risklər kimi qruplaşdırır. Bu Akt xüsusilə insan hüquqlarına təsir edən yüksək riskli tətbiqlərə qarşı ciddi nəzarət sistemləri qurur.

Artıq zərurət yaranıb ki, Rəqəmsal transformasiyanın gətirdiyi qlobal təhlükələrə qarşı ciddi mübarizə aparılmalıdır. Bunun üçün dövlət qurumları lazımi texniki, maliyyə və güclü kadr resursları ilə tam təmin olunmalıdırlar. Eyni zamanda vacib infrastruktur obyektləri etibarlı şəkildə qorunmalıdır. Məlumatların mühafizəsi üzrə peşəkar kibertəhlükəsizlik mütəxəssislərinin və süni intellekt uyğunluğu üzrə ekspertlərin yetişdirilməsi isə gələcəyin təhlükəsiz, inklüziv və dayanıqlı rəqəmsal mühitini qurmaq üçün ən vacib şərtlərdən biridir.

***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***



# Gəncə ikinciliyi əldən vermir

## Şəhərin iqtisadiyyatı dinamik inkişaf edir, infrastrukturu yenidən qurulur, əhalisinin sosial güvənliyi daha da möhkəmlənir

**Ölkəmiz bu gün müdrik və uzaqgörən siyasətçi, müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş möhkəm təməl üzərində inkişaf edir. Müstəqil Azərbaycanın müasir tarixində yeni səhifələr açan bu inkişaf illər keçdikcə daha da sürətlənir, dönməz olur. Prezident İlham Əliyevin milli maraqlara söykənən uzaqgörən siyasəti nəticəsində isə ölkəmiz beynəlxalq aləmdə də nüfuzlu dövlətlərdən birinə çevrilir.**

Dövlət başçısının konkret hədəflərə hesablanan uğurlu islahatları nəticəsində qədim Nizami yurdu Gəncə də bu inkişaf və yüksəlişdən geri qalmır, şəhər gündən-günə müasirləşir, abadlaşır.

Hazırda Gəncədə reallaşdırılan ən önəmli və irihəcmli layihələrdən biri "Açıq Kommunal İnfrastruktur Proqramı II" layihəsidir. Şəhərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulmasını hədəfləyən bu proqram uğurla icra olunmaqdadır. Son 8 il ərzində şəhərin mərkəzi hissəsi ilə yanaşı, Mahrasa bağı, Qırmızıkənd yaşayış massivlərində, 1-ci, 3-cü, 4-cü mikrorayonlarda və 38 saylı hərbi şəhərcikdə, həmçinin şəhərin bir sıra digər ərazilərində su və kanalizasiya şəbəkələri tamamilə yenilənib. Bu dövr ərzində 318950 paqonnumetr (pm) su şəbəkə, 18679 su nəqledici, 188688 pm kanalizasiya şəbəkə və 56 398 pm kanalizasiya kollektor xətləri inşa edilib. Layihə çərçivəsində şəhərin su təchizatı sisteminin qurulması üzrə işlərin 63,4, kanalizasiya sisteminin yenidən qurulmasının isə 67,7 faizi başa çatdırılıb.

Gəncədə ümumilikdə 1140 küçə var. Hazırda həmin küçələrin, eləcə də qəsəbə və məhəllədaxili yolların asfaltlanması da sözügedən layihəyə paralel şəkildə aparılır. Bu çərçivədə son 8 ildə su-kanalizasiya sisteminin yenilənməsi başa çatan 266 küçədə geniş təmir-bərpa və abadlıq işləri görülüb. Görülən işlər nəticəsində şəhər üzrə asfalt örtüyü yenilənən küçələrin sayı 336-ya çatıb.

Şəhərdə həyata keçirilən digər irimiqyaslı layihələrdən biri müasir küçə işıqlandırılması sisteminin qurulmasıdır. Son 8 ildə Gəncədə ümumilikdə 552 küçədə 13985 dayaq, 25 mindən çox LED işıqlandırıcı quraşdırılmışdır. Bundan əlavə, ötən il 49 küçədə küçə işıqlandırılmasının yenilənməsi işləri çərçivəsində qoşa şar tipli 3438, tək şar tipli 1800 işıqlandırıcı quraşdırılmış, 83000 metr kabel və 36520 metr naqil çəkilmişdir. Bununla yanaşı, şəhərin memarlıq simasının daha da zənginləşdirilməsi məqsədilə 60-dan çox ünvanda fasad işıqlandırılması sistemi yenilənmişdir. Həyata keçirilən bu layihələr Gəncənin gecə görünüşünün müasirləşdirilməsinə, enerji səmərəliliyinin artırılmasına və sakinlər üçün daha rahat, təhlükəsiz şəhər mühitinin formalaşmasına mühüm töhfə vermişdir.

Gəncədə çoxmənzilli yaşayış binalarının dam örtüklərinin yenilənməsi və fasadlarının təmiri istiqamətində də işlər ardıcıl davam edir. Şəhərdə mövcud olan ümumilikdə 865 çoxmənzilli yaşayış binasının hamısının dam örtüyü tamamilə yenilənib. Bu işlərin 425 binanı əhatə edən hissəsi son 8 il ərzində həyata keçirilib. Eyni zamanda binaların fasadlarının təmiri və abadlaşdırılması istiqamətində müvafiq tədbirlər görülür. Təkcə son 8 ildə Gəncə Şəhər İcra Hakimiyyəti və Mənzil-Kommunal Təsərrüfatı İstehsalat Birliyi (MKTİB) tərəfindən 35 çoxmənzilli yaşayış binasının fasadı təmir olunub. Söz düşmüşkən, qeyd etmək yerinə düşər ki, MKTİB-in balansında olan çoxmənzilli yaşayış binalarında 201 lift xidmət göstərir. 8 il ərzində bu liftlərdən 103-ü yenisi ilə əvəzlənib, 73-ü isə əsaslı təmir edilib. Bununla yanaşı, ötən il 630-dan çox fərdi yaşayış və qeyri-yaşayış binasının fasadı təmir olunub, 1220-dən çox analoji binada isə dam örtüyü yenilənib.

Çoxmənzilli yaşayış binalarının həyətlərinin abadlaşdırılması da diqqət mərkəzində saxlanılan mühüm məsələlərdəndir. Şəhər icra hakimiyyətinin dəstəyi ilə Kəpəz və Nizami bələdiyyələri tərəfindən şəhər ərazisində "Abad məhəllə"lər yaradılır. Bu layihə çərçivəsində məhəllələrə asfalt örtüyü salınır, tamet daşlar döşənir, yeni səki daşları (bardürlər) və işıq dirəkləri quraşdırılır. Həyətlər abadlaşdırılarkən sakinlərin, xüsusilə uşaqların istirahəti də nəzərə alınır. Sözügedən ərazilərə söhbətgahlar və oturacaqlar qoyulur, müasir uşaq meydançaları quraşdırılır. Qeyd edək ki, son illər ərzində şəhərdə 12 "Abad məhəllə" yaradılıb.

Son illər Prezident İlham Əliyevin iştirakı ilə Gəncədə bir sıra mühüm iqtisadi və sosialyönümlü obyektlər istifadəyə verilmişdir. Süni mərmər və qranit istehsalı zavodu, 1 saylı Gəncə Şəhər Xəstəxanasının modul tipli infeksion xəstəliklər korpusu, tarixi "Şah Abbas" və "Uğurlu Xan" karvansara kompleksi, Azərbaycan Dövlət Aqrar Universitetinin yeni tədris korpusu, Gəncə Dövlət Milli Dram Teatrının yeni binası, 2 saylı Gəncə regional "ASAN xidmət" Mərkəzi, "Azərbaycan Dəmir Yolları" QSC-nin Gəncə lokomotiv deposu, Gəncə İdman Sarayı, Gəncə Memorial Kompleksi, "BakuBus" MMC-nin Gəncə Avtoparkı onların qısa siyahısıdır.












Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində Gəncədə təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, müasir təhsil infrastrukturunun formalaşdırılması və tədris şəraitinin yaxşılaşdırılması istiqamətində də işlər ardıcıl davam etdirilir. Son 8 il ərzində bu istiqamətdə bir sıra mühüm layihələr həyata keçirilmişdir. Müasir standartlara uyğun şəkildə yenidən qurulan 7, 10, 11, 18, 24, 28, 29, 34 və 37 nömrəli tam orta məktəblər, eləcə də Gəncə şəhər internat tipli xarici dillər təmayüllü gimnaziya təhsil infrastrukturunun yenilənməsinə mühüm töhfələr verir.

Ali, orta ixtisas və peşə təhsili sahəsində də mühüm layihələr reallaşdırılmışdır. Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində Gəncə Dövlət Aqrar Kolleci yaradılmış, Gəncə Dövlət Universitetinin 5-ci tədris binasında Türk Əməkdaşlıq və Kooperasiya Agentliyinin dəstəyi ilə Nuru Paşa adına kitabxana istifadəyə verilmişdir. Eyni zamanda Gəncə Tibb Kolleci PHŞ-nin Tələbə Evi fəaliyyətə başlamış, Avropa İttifaqı və BMT-nin İnkişaf Proqramının birgə layihəsi çərçivəsində Gəncə şəhər Peşə Təhsili və Təlim Məktəbində yeni təlim emalatxanası istifadəyə verilmişdir.

Gəncədə sənaye, ticarət və sahibkarlığın inkişafı, eləcə də yerli istehsalın genişləndirilməsi istiqamətində mühüm layihələr həyata keçirilir. Son zamanlar Türkiyənin "Parıltı Halı" şirkətinin xalça istehsalı müəssisəsi, "ASC GROUP" MMC-nin "Bingo" markası ilə tum istehsalı müəssisəsi, "AzerBlast" MMC-nin sənaye əhəmiyyətli partlayıcı maddələr zavodu, eləcə də "Mehmanoğlu Yem və Taxıl" MMC-nin yem istehsalı müəssisəsi fəaliyyətə başlamışdır. Ticarət və sahibkarlıq infrastrukturunun inkişafı istiqamətində isə müasir standartlara uyğun yenidən qurulan "Gəncə qalası" ticarət kompleksi və sahibkarlara vahid məkanda operativ xidmət göstərən "Gəncə KOB evi" istifadəyə verilmişdir.

Həyata keçirilən bu layihələr Gəncənin istehsal və ixrac potensialının genişlənməsinə, regionda sahibkarlıq mühitinin daha da yaxşılaşmasına və iqtisadi fəallığın artmasına mühüm töhfə vermişdir. Təkcə bir fakt: şəhərdə son illər 15860 yeni iş yeri açılmışdır.

Gəncədə səhiyyə infrastrukturunun müasirləşdirilməsi, tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi və əhalinin müasir səhiyyə xidmətlərinə çıxış imkanlarının genişləndirilməsi istiqamətində də mühüm layihələr həyata keçirilmişdir. Həyata keçirilən layihələr çərçivəsində Ərazi Sosial Xidmət Mərkəzi yenidən qurularaq istifadəyə verilmiş, iki korpus və yardımçı binalardan ibarət Gəncə Şəhər Psixiatriya Xəstəxanasının tikintisi başa çatdırılmışdır. Eyni zamanda Uşaq Xəstəxanasının Təcili yardım və Poliklinika şöbələri əsaslı şəkildə yenilənmişdir. Akademik Z.Məmmədov adına xəstəxanada reanimasiya, laboratoriya, terapiya və təcili yardım şöbələri, eləcə də camaşırxana və mətbəx kompleksi yenidən qurulmuşdur. Abbas Səhhət adına Xəstəxanada isə laboratoriya, təcili yardım, Nevrologiya və II Terapiya şöbələri, həmçinin anbar və aptek bölmələri əsaslı şəkildə yenilənərək müasir tələblərə uyğunlaşdırılmışdır.

Şəhərin idman infrastrukturunun müasirləşdirilməsi üçün də bir sıra irihəcmli layihələr reallaşdırılmışdır. Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən Gəncə İdman Sarayı bu gün respublika və beynəlxalq səviyyəli yarışlara evsahibliyi edir. Dövlət başçısının təməlini qoyduğu Gəncə Şəhər Stadionunun tikintisi də başa çatmışdır. UEFA-nın 4-cü kateqoriya standartlarına uyğun inşa edilən, 15343 tamaşaçı tutumuna malik stadion müasir işıqlandırma, təhlükəsizlik, rabitə və yayım sistemləri, eləcə də məşq meydançaları ilə təchiz olunmuşdur. Eyni zamanda 2002-ci ildə Ümummilli Lider Heydər Əliyevin iştirakı ilə açılan Gəncə Olimpiya İdman Kompleksi ötən il əsaslı şəkildə yenidən qurulmuşdur. Heydər Əliyev Fondu tərəfindən Gəncə İdman Liseyi də əsaslı şəkildə yenidən qurularaq idmançıların istifadəsinə verilmişdir.

Şəhərdə mədəniyyət müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, zəngin mədəni irsin qorunması, tarixi-memarlıq abidələrinin bərpası və gələcək nəsillərə ötürülməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Dövlətin bu sahəyə göstərdiyi xüsusi diqqət və qayğı nəticəsində şəhərin mədəniyyət və incəsənət infrastrukturunun müasirləşdirilməsi, tarixi irsin mühafizəsi və mədəni həyatın daha da canlandırılması istiqamətində mühüm layihələr reallaşdırılmışdır. Bu layihələr çərçivəsində F.Əmirov adına 1 nömrəli Uşaq Musiqi Məktəbi və Bülbül adına 3 nömrəli Uşaq Musiqi Məktəbi müasir standartlara uyğun əsaslı təmir olunaraq istifadəyə verilmişdir. Uşaq Rəssamlıq Məktəbinin binasında zəruri yenidənqurma və bərpa işləri aparılmış, Nizami Gəncəvi adına Gəncə Dövlət Tarix-Diyarşünaslıq Muzeyində isə əsaslı təmir-bərpa işləri həyata keçirilərək muzeyin maddi-texniki bazası əhəmiyyətli dərəcədə gücləndirilmişdir.

Nizami yurdu üçün növbəti mühüm və strateji uğurlardan biri Gəncənin Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) "Yaşıl şəhərlər" şəhər dayanıqlılığı proqramına qoşulmasıdır. Prezident İlham Əliyevin təşəbbüsü və dəstəyi ilə reallaşan bu proqrama Azərbaycandan qoşulan ilk şəhər məhz Gəncədir. Qeyd edək ki, Gəncədə olan yaşıllıq zolaqlarının qorunub saxlanılması və yeni yaşıllıq sahələrinin salınması istiqamətində mütəmadi işlər aparılır. Şəhərdəki mövcud yaşıllıqlara daim qulluq göstərilir, ərazilərdə mütəmadi olaraq iməcilik və ağacəkmə aksiyaları təşkil olunur. Bu istiqamətdə atılan mühüm addımlardan biri də Gəncədə "Ekoloji Park Kompleksi"nin yaradılmasıdır.

Ötən il Heydər Əliyev adına Mərkəzi Meydanda, Xan bağı istirahət parkında, Fikrət Əmirov adına parkda və Nizami Kinoteatrının qarşısında yerləşən istirahət parkında təmir-bərpa və yenidənqurma işləri başa çatdırılmışdır. Bununla yanaşı, C.Cabbarlı və M.Ş.Vazeh parklarında abadlıq işləri, "Nizami" filminin lentə alındığı pavilyonda isə bərpa işləri görülür. Əlavə olaraq şəhər ərazisində olan bir neçə parkda da əsaslı və qismən təmir-bərpa işlərinin həyata keçirilməsi nəzərdə tutulur. Bir sözlə, 8 il ərzində ümumilikdə şəhərdə 68175 kvadratmetr yaşıllıq sahəsi salınmışdır. Bundan başqa, şəhərdə 12 fəvvarə əsaslı şəkildə təmir edilmişdir.

Bu il Heydər Əliyev Park-Xiyaban Kompleksinin ərazisindəki süni göl də əsaslı təmir və bərpa işlərindən sonra sakinlərin istifadəsinə verilmişdir. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində fəaliyyət göstərən "Regional Su Meliorasiya" QSC-nin sifarişi ilə həyata keçirilən layihə çərçivəsində gölün texniki vəziyyətinin yaxşılaşdırılması, təhlükəsizliyinin təmin edilməsi və ətraf ərazinin abadlaşdırılması istiqamətində genişmiqyaslı işlər görülmüşdür.

Gəncədə son illər həyata keçirilən mühüm layihələrdən biri də ictimai nəqliyyatın yenilənməsidir. Bu işdə "BakuBus" MMC-nin Gəncə Avtoparkının yaradılması xüsusi qeyd edilməlidir. MMC-nin iştirakı ilə ümumi sahəsi 10 hektar olan və 300 yerlik avtobus parkını özündə birləşdirən kompleksdə texniki baxış və təmir postları, avtomatlaşdırılmış uçot sistemli yanacaq təsərrüfatı, həmçinin saatda 60 avtobusun yuyulması gücünə malik müasir infrastruktur inşa edilmişdir. Avtoparkın fəaliyyətə başlaması ilə 675 nəfər daimi işlə təmin olunmuşdur.

İdman sahəsində də Gəncə mühüm beynəlxalq və respublika əhəmiyyətli tədbirlərə evsahibliyi edir. Bu sırada 2025-ci ildə keçirilən III MDB Oyunlarının açılış və bağlanış mərasimlərini xatırlatmaq olar. Bununla yanaşı, "Regional İnkişaf" İctimai Birliyi, Gəncə Şəhər İcra Hakimiyyəti və Azərbaycan Velosiped İdman Federasiyasının birgə təşkilatçılığı ilə "Gəncə - 2019-cu ilin Avropa İdman Şəhəri" layihəsi çərçivəsində velosiped yürüşü, Azərbaycan Avtomobil Federasiyasının təşkil etdiyi "VI Challenge Gəncə" idman avtomobillərinin yarışı və avto-şousu da şəhərin idman həyatına mühüm töhfə verən tədbirlər sırasında yer almışdır.

Son illər Gəncənin dünyanın müxtəlif ölkələrinin şəhərləri ilə əməkdaşlıq, dostluq və qardaşlaşma əlaqələri daha da genişlənmişdir. Qurulan əlaqələr iqtisadi, ticarət, mədəni-humanitar və sosial sahələrdə qarşılıqlı əməkdaşlığın inkişafına, təcrübə mübadiləsinin genişlənməsinə və şəhərlərarası münasibətlərin möhkəmlənməsinə xidmət edir. Bu istiqamətdə Gəncə ilə bir sıra xarici ölkələrin şəhərləri arasında mühüm hüquqi sənədlər imzalanmışdır. 17 dekabr 2019-cu ildə Ukraynanın Odessa şəhəri ilə əməkdaşlığa dair Niyyət Protokolu, 26 aprel 2021-ci ildə Çin Xalq Respublikasının Çindao şəhəri ilə dostluq və əməkdaşlıq münasibətlərinin qurulmasına dair Niyyət Protokolu, 24 fevral 2023-cü ildə Özbəkistan Respublikasının Səmərqənd şəhəri ilə ticari-iqtisadi və mədəni-humanitar sahələrdə əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Əməkdaşlıq əlaqələri 15 iyun 2023-cü ildə Çindao şəhəri ilə Dostluq və Əməkdaşlıq haqqında Sazişin imzalanması ilə yeni mərhələyə qədəm qoyub. 16 may 2024-cü ildə isə Belarus Respublikasının Qomel şəhəri ilə qardaşlaşma əlaqələrinin qurulmasına dair Anlaşma Memorandumu təsdiq olunub. İmzalanan bu sənədlər Gəncənin beynəlxalq əlaqələrinin davamlı inkişaf etdiyini və şəhərin beynəlxalq müstəvidə nüfuzunun getdikcə möhkəmləndiyini bir daha təsdiqləyir.

Gəncə müxtəlif beynəlxalq platformalarda da fəal şəkildə təmsil olunur. Şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov, həmçinin ŞİH-in nümayəndələri son 8 ildə Belarusun Qomel, Çinin Çindao, Özbəkistanın Səmərqənd, Tacikistanın Xocənd, Gürcüstanın Batumi və Tbilisi, Cənubi Koreyanın Qvanqju, Serbiyanın Novi Sad, Belçikanın Gent və İsveçrənin Cenevrə şəhərlərinə səfərlər etmiş, keçirilən beynəlxalq tədbir, konfrans və forumlara qatılmışlar.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində qazanılan tarixi qələbə hər bir gəncəli üçün xoş anlar yaşatdı. Bu müharibədə gəncəlilər 100-dən artıq şəhid verdilər. Döyüş bölgəsindən kənarda yerləşməsinə baxmayaraq, Gəncə 5 dəfə Ermənistan silahlı qüvvələri tərəfindən ballistik raket atəşlərinə məruz qaldı. Həmin hücumlar nəticəsində 10-u qadın, 6-sı azyaşlı olmaqla 26 mülki şəxs həlak oldu və 66-sı qadın, 48-i azyaşlı olmaqla 175 nəfər yaralandı. Eyni zamanda şəhərin yaşayış binalarına, mülki infrastruktur obyektlərinə, dini abidələrə və nəqliyyat vasitələrinə ciddi ziyan dəydi. Şəhidlərin xatirəsinin əbədiləşdirilməsi, onların qəhrəmanlığının gələcək nəsillərə çatdırılması istiqamətində Gəncədə mühüm layihələr həyata keçirildi. Müharibə iştirakçıları və şəhid ailələrinin müraciətləri nəzərə alınaraq, Gəncə şəhər Şəhidlər xiyabanında I Qarabağ müharibəsi zamanı itkin düşmüş Gəncə sakinlərinin adlarının əks olunduğu xüsusi xatirə lövhəsi quraşdırıldı. Bununla yanaşı, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərin xatirəsinə Gəncənin "İstiqlal" parkında "Memorial Abidə Kompleksi" inşa edildi. Kompleksdə xüsusi lövhələr üzərində 600-ə yaxın şəhidin şəkli yerləşdirildi, ərazidə postamentlə birlikdə hündürlüyü 5 metr olan Azərbaycan əsgərinin heykəli ucaldıldı, iki xatirə bulağı yaradıldı. Bunlardan əlavə, şəhidlərin həyat yolu və qəhrəmanlıqlarının tanıdılması üçün "Gencesehidleri.az" internet portalı istifadəyə verildi.

Prezidentin tapşırıqlarına uyğun olaraq, Gəncədə şəhid ailələri və qazilərin müraciətlərinə baxılması, onların sosial qayğılarının həlli daim diqqət mərkəzində saxlanılır. Şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov müntəzəm olaraq həssas kateqoriyadan olan şəxsləri qəbul edir, habelə şəhər sakinləri ilə səyyar görüşlər təşkil edir.

Göründüyü kimi, ölkənin ikinci sənaye və mədəniyyət mərkəzi olan Gəncə dövlət başçısının qayğısı ilə inkişafının yeni mərhələsini yaşayır. Görülən bütün bu işləri Prezident İlham Əliyevin Gəncəyə və gəncəlilərə göstərdiyi diqqət və qayğı kimi dəyərləndirən şəhər sakinləri qarşıdan gələn illərdə də qurub-yaratmağı özlərinin vətəndaşlıq borcu hesab edirlər.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*



# Mədəniyyət



Korifeylərimiz

## Teatr və kinomuzun həmişəYaşarı

**Xalq artisti Yaşar Nurinin anadan olmasının 75 ili tamam olur. Onun həyatdan köçməsindən isə artıq 14 il keçir. Zaman bir yerdə qərar tutmur. Yaşar Nurinin də bu dünyaya gəlişindən və gedişindən də hələ çox illər keçəcək. Ancaq rol aldığı filmlər, teatr və televiziya tamaşaları nümayiş etdirildikcə, o, hər zaman xatırlanacaq…**

Yaşar Nuri 1951-ci il sentyabrın 3-də Bakıda dünyaya göz açıb. Atası Məmmədsadıq Nuriyev tanınmış aktyor, anası Rəfiqə xanım evdar qadın idi. Yaşargil ailədə dörd uşaq olublar. Ata ocağını - Bakının məşhur "Sovetski"dəki darısqal evi, orada keçən ata-analı günlərini, məhəllələrinin dolanbac küçələrində tay-tuşları ilə oynadığı oyunları, qonşu həyətdəki evin damına qalxıb ətrafı seyr etmələrini həsrət dolu təbəssümlə yada salırdı Yaşar Nuri. Dəcəllik etsə də, uşaqlıqdan böyük-kiçik yeri bilib. Bir də boya-başa çatdığı qədim Bakının o köhnə məhəlləsini ədəb-ərkan məktəbi hesab edirdi. "Bu gün sənətdə az-çox tanınıramsa, buna görə uşaqlığıma, atama, məhəlləmizin ağsaqqal və ağbirçəklərinə borcluyam", - deyirdi.

Bakıdakı 173 saylı orta məktəbdə təhsil alıb. Deyirdi ki, üç dəfə Krımdakı "Artek" pioner düşərgəsinə əlaçı şagird olduğu üçün göndərilib. Eyni zamanda kiçik yaşlarından atası onu teatra aparıb. Yaşar Nuri 11 yaşında ilk dəfə balaca aktyor kimi səhnəyə çıxıb. Həmin günü xiffət qarışıq məmnunluqla xatırlayırdı: "Atamla keçmiş "26-lar bağı"ndakı (indiki "Sahil" bağı) Ordubadi adına yay teatrına getmişdik. Oturub aktyorların məşqinə baxırdım. "Toy kimindir?" operettasında Qoşunun oğlunu oynayan aktyor xəstələnmişdi. Teatrın aktyoru Şünasi atamın razılığını aldıqdan sonra məni səhnəyə çağırdı. Diqqətlə baxdıqdan sonra sevincək dedi: "Vücud, bu, hazır aktyordur, mən ölüm..." Şünasi masanın arxasına keçib atamın bazarlıq edib yanına qoyduğu kağız torbanın üstünə oynayacağım rolun sözlərini yazdı. Qoşa Qala qapısından evə gələnədək rolumu əzbərlədim. Axşam yenə teatra getdim və deyilənlərə görə, rolu pis oynamadım. Çox keçməmiş, "Hacı Qara"da Hacı Qaranın oğlu Bədəl rolunu mənə verdilər".

Ekran qarşısına da şagird ikən çıxıb. O, məktəb illərində televiziyanın "Yelkən" verilişinin aparıcısı idi. "Buratino", "Qaranquş", "Pioner" uşaq verilişi-teatrlarında da müntəzəm iştirak edirdi. Aktyorluq sənətinə sevgi beləcə qəlbində həmişəlik yer tapıb. Yaşar Nuri dram dərnəklərinin üzvü olub. 26-lar adına Mədəniyyət Sarayı xalq teatrının tamaşalarında çıxış edib. Cəlbedici görkəmi, aydın tələffüzü, qoçaqlığı köməyinə çatıb. Balaca aktyorun fitri istedadı olduğunu söyləyib, gələcəyinə inanıblar. Aktyor kimi tanınmağa başlayıb. Ancaq buna görə nə məktəbdə, nə də məhəllədə öyünüb. Qazandığından qardaşına və bacılarına da xərclik verib.

O vaxtlar birindən başqa bütün fənlərdən qiyməti "5" idi. Amma televiziya verilişlərində, səhnədə oynadığı rollarla aktyorluq istedadına şübhə yeri qoymayan Yaşar Nuri ifadəli oxudan 4 alırdı. Müsahibəsində sinifdə aktyorluq etməyə utandığını, şeir söyləmək üçün hətta son zəngdə iştirak etmədiyini deyir, sonra gülə-gülə əlavə edirdi: "Adama deyən gərəkdir ki, televiziyada ifadəli şeir deyirsən, doğmaca məktəb yoldaşlarının qarşısına çıxa bilmirsən?"

Orta məktəbi bitirəndə səhnənin cazibəsinə düşmüşdü. Odur ki, sənət seçimi üçün düşünüb-daşınmağa ehtiyac qalmamışdı. Üstəlik, valideynləri də seçimi övladlarının ixtiyarına vermişdi. Yaşar Nuri 1968-ci ildə orta məktəbi bitirib sənədlərini Azərbaycan Dövlət İncəsənət İnstitutunun (hazırda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) Dram və kino aktyorluğu fakültəsinə verib. İmtahanlardan müvəffəqiyyətlə keçib. Görkəmli səhnə xadimləri Rza Təhmasib və Əliheydər Ələkbərovdan aktyorluq dərsləri alıb.



Gənc tələbənin atasının adından, şöhrətindən istifadə etməsinə ehtiyacı olmayıb. Çünki özü kiçik yaşlarından aktyor kimi tanınıb. Buna görə institutda bəzən müəllimlərin qoyduğu qaydalara əməl etmədiyinə görə problemləri yaranıb.

1972-ci ildə ali təhsilini başa vurub. Bir il hərbi xidmətə yollanıb. 1974-cü il dekabrın 1-də baş rejissor Tofiq Kazımovun dəvətilə Akademik Milli Dram Teatrına qəbul edilib. Atası bir gün teatra gəlib, onun oynadığı tamaşaya baxıb və qiymətini verib. Məmmədsadıq Nuriyev oğluna "Hə, aktyor ola bilərsən", - deyib .

Akademik Milli Dram Teatrında ilk dəfə "Övlad" ("Böyük oğul") tamaşasında Silva rolu ilə tamaşaçı qarşısına çıxan aktyor sonralar "Bağlardan gələn səs"də Pərviz, "Bəşərin komediyası və yaxud Don Juan"da Sqanarel, "Quşu uçan budaqlar"da Qasım, "Dəli yığıncağı"nda Sərsəm Salman və başqa rollar da oynayıb.

Kinorejissorlar da Yaşar Nurinin istedadını nəzərə alıblar. Onu çəkilişlərə dəvət ediblər. İlk rolu kinorejissor Şamil Mahmudbəyovun "Dörd bazar günü" filmində Seyran olub. Ardınca "Əzablı yollar"da kiçik div, "Yol Əhvalatı"nda Makintoş, "Bəyin oğurlanması"nda İsrafil, "Hər şey yaxşılığa doğru"da Əbdülqəni, "Pəncərə"də Nəsib və başqa rolları ekranda canlandırıb. Yaşar Nuri 50-yə yaxın bədii filmdə müxtəlif xarakterli rollar oynayıb.

Teatrda və kinoda rejissor kimi də özünü sınayıb. Teatrda İsi Məlikzadənin "Subaylarınızdan görəsiniz" əsərinə quruluş verib. Kinoda isə "Spasibo" filmini ekranlaşdırıb.

Azərbaycan Dövlət Televiziyasında 100-dən çox tamaşada, bədii kompozisiyada, satirik səhnəcikdə iştirak edib. "Yollar görüşəndə...", "Ömrün yolları", "Qatarda", "Evləri köndələn yar", "Kökdən düşmüş piano", "Topal Teymur", "Göz həkimi", "Ac hәriflər", eləcə də "Səni axtarıram", "Bağışla" və "Səndən xəbərsiz" trilogiyası və başqa televiziya tamaşalarında da yaddaqalan rollar ifa edib.

Fəaliyyətinin bir hissəsi isə dublyajlarla bağlı olub. Yaşar Nuri "Azərbaycanfilm" kinostudiyasında neçə-neçə yerli filmin səsləndirilməsində, əcnəbi filmlərin dublyajında iştirak edib. Onun səsi ilə radioda bir sıra rollar təqdim olunub. "Sabahınız xeyir", "Gülüş axşamı" yumoristik radio verilişlərində, radio tamaşalarında çıxış edib.

Repertuarı zəngin olsa da, istedadını geniş ifadə etməsi üçün hər zaman bütün yollar üzünə açıq olmayıb. Onun daha yaxşı oynayacağını bilə-bilə bəzən arzusunda olduğu rolu başqasına veriblər. Özünü sındırmayıb. Müsahibə zamanı da səsindəki qüssəni hiss etdirmək istəmədən deyirdi: "Cılızlaşıb hər şey. Hamı bir-birinə badalaq vurmaqla məşğuldur. O qədər badalaq vuranlarım olub ki, sayını itirmişəm. Mənimsə paxıllıq eləməyə vaxtım yoxdur. Ola bilsin, kiməsə qibtə edəm, ancaq paxıllıq yox". İllər boyu "rolun böyük-kiçiyi yoxdur" düşüncəsi ilə səhnədə, kinoda ona həvalə olunan rolları oynamışdı. Ən kiçik, epizodik rollarda belə özünün böyük aktyor məharətini ifadə etmişdir.

Azərbaycan incəsənətinə göstərdiyi xidmətləri diqqətdən kənarda qalmayıb. Yaşar Nuri 1981-ci ildə Əməkdar artist, 1989-cu ildə Xalq artisti fəxri adlarını alıb. 1984-cü ildə Azərbaycan Lenin Komsomolu Mükafatına, 1991-ci ildə Dövlət mükafatına, 1992-ci və 1996-cı illərdə "Qızıl dərviş" mükafatına, 2005-ci ildə Azərbaycan Respublikası Prezidentinin I dərəcəli mükafatına, 2005-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə, 2011-ci ildə "Şöhrət" ordeninə, 2012-ci ildə Milli Kino Mükafatına layiq görülüb.

Düçar olduğu xəstəlik aparılan müalicələrə və mücadilələrə rəğmən, aktyoru həyatdan ayırıb. Xalq artisti Yaşar Nuri 2012-ci il noyabrın 22-də vəfat edib.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*



Tariximiz

## Şuşalı olub musiqi və teatrdan kənarda qalmaq mümkün deyil

### Mirzə Muxtar da belə sənətkarlardan idi

**Mədəniyyətimizin inkişafına böyük xidmət göstərən, tanınan, sevilən sənətkarları xalqımız yalnız yubileylərində, ad günlərində deyil, həmişə xatırlayır, ehtiram və hörmətlə yad edir. Belə sənətkarlardan biri də görkəmli aktyor, musiqişünas Mirzə Muxtardır.**

Özündən sonra yaddaşlarda pozulmaz izlər qoymuş sənətkarın adı mədəniyyət tariximizə görkəmli səhnə xadimi, müəllim və musiqişünas-müğənni kimi həkk olunub. Görkəmli ictimai-siyasi xadim, yazıçı, dramaturq Nəriman Nərimanov onun sənətkarlığına yüksək dəyər verərək yazmışdır ki, Mirzə Muxtar musiqidə ustadır.

Mirzə Muxtar 1841-ci ildə musiqi beşiyimiz olan Şuşada dünyaya gəlib. Atası Mirzə Əli Əsgər Qarabaği bənzərsiz səsə malik bir xanəndə olmaqla yanaşı, həm də mahir kamança ifaçısı kimi də tanınmışdı. Mirzə Muxtar dünyaya gözünü açandan, həyatı az-çox dərk edəndən musiqi səsi eşitmişdi, evlərinə toplaşan sənət adamlarının söhbətlərinə qulaq asmışdı. Mirzə Muxtarın musiqiçi, aktyor kimi formalaşmasında bu mühit müsbət rol oynamışdı. Evlərində tez-tez qurulan məclislərdə eşitdiyi musiqilər özü də hiss etmədən onun sabahkı taleyini müəyyənləşdirmişdi.

O, ilk təhsilini Şuşadakı mədrəsədə almışdı. Fitri istedadı ilə başqalarından seçilən Muxtar mədrəsədə türk, ərəb, fars dillərini dərindən mənimsəmişdi. Kiçik yaşlarından kitablarla dost olan, mütaliəyə maraq göstərən Muxtar Şərq və Azərbaycan klassik ədəbiyyatının dünyaca tanınmış şairlərindən Nizami, Sədi, Hafiz, Füzuli və Firdovsinin əsərlərini oxumuş və onları dərindən dərk etmişdi. Qeyri-adi istedad sahibi olan Mirzə Muxtar rus və erməni dillərini də bildiyinə görə XIX əsrin 60-70-ci illərində Şuşadakı "Qış klubu"nda rus və erməni teatr tamaşalarına gedib baxırdı. Həmin anlar ürəyində ana dilində tamaşalar göstərmək arzusunda idi. Və bu, nəhayət, bir gün gerçəkləşdi - Mirzə Muxtar arzusuna çatdı, 1870-ci ildə, əsasən, müəllimlərdən ibarət olan yerli ziyalıları başına yığaraq Şuşada "Hacıqulularının zalı"nda M.F.Axundovun "Hacı Qara" komediyasını tamaşaya qoydu. O, bu addımı ilə həm də uzun bir yaradıcılıq yoluna çıxdı - 1883-cü ildə bir sıra tamaşaları səhnələşdirdi. Amma həmin il acınacaqlı bir hadisə nəticəsində doğma yurdunu tərk etmək məcburiyyətində qaldı. Bir müddət Ağdamda yaşadıqdan sonra Gəncəyə köçdü, müəllimlik etdi. Sonra Tiflisə üz tutaraq xüsusi gimnaziyada təhsil aldı. Mirzə Muxtar gimnaziyada dərs almaqla yanaşı, türk-rus məktəbində dərs dedi. Bunlarla bərabər o, həvəskarlar dəstəsinin sıralarında aktyorluq da edirdi. Dövrünün tanınmış yazıçıları Sultanməcid Qənizadənin, Nəcəf bəy Vəzirovun, Əbdürrəhim bəy Haqverdiyevin kiçik məsxərələrini tamaşaya qoyurdu. Ümumiyyətlə, Tiflis mühiti onun aktyor və musiqiçi kimi formalaşmasında mühüm rol oynadı.



Ürəyində çağlayan yaradıcılıq arzularını həyata keçirmək istəyən Mirzə Muxtar 1899-cu ildə Bakıya gəlir. Əvvəlcə müəllimliklə məşğul olur, dərs deyir. Bununla bərabər, Mirzə Muxtar həm də teatrdan uzaq dayana bilmir. Şəhərdəki teatr həvəskarları ilə tanışlıq onun bu sahəyə olan sevgisini daha da artırır. Dövrünün tanınmış ziyalıları Cahangir Zeynalov, Məhəmməd Əlvəndi, Əbülfət Vəli ilə dost olması onun Bakının teatr mühitində tanınmasına şərait yaradır. Ziyalı dostlarının köməyi və məsləhəti ilə aktyor teatr tamaşalarında çıxış edir, müxtəlif obrazlar canlandırır. Axır ki, aktyorluğa olan sevgi müəllimliyə üstün gəlir. Mirzə Muxtar 1905-ci ildə həyatını bütünlüklə teatr sənətinə həsr etmək üçün müəllimlikdən ayrılır. Bundan sonra Mirzə Muxtar "İkinci müsəlmən dram cəmiyyəti"nin, "Həmiyyət", "Nicat", "Səfa" mədəni-maarif cəmiyyətlərinin, Hüseynqulu Sarabskinin "Opera artistləri dəstəsi", "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli qardaşlarının müdiriyyəti", Abbasmirzə Şərifzadənin "Müsəlman artistləri ittifaqı" teatr truppalarında aktyor kimi çalışır.

Bakıya gələnə qədər dövrünün tanınmış ziyalıları Əbdürrəhim bəy Haqverdiyev, Üzeyir bəy Hacıbəyli və başqaları Mirzə Muxtarı Şuşadan yaxşı tanıyırdılar. Onun bacarığından, məlahətli səsindən, istedadından, aktyor, teatr təşkilatçısı olduğundan yaxşı xəbərdar idilər. Buna görə də Azərbaycan peşəkar musiqisinin banisi Üzeyir bəy Hacıbəyli Mirzə Muxtarı ilk Azərbaycan operası olan "Leyli və Məcnun" tamaşasının məşqlərinə dəvət edir. Tamaşanın məşqləri 1907-ci ilin sonlarında Bakıda maarifpərvər ziyalı İmran Qasımovun evində və "İslamiyyə" mehmanxanasında aparılırdı. Mirzə Muxtara tamaşada Məcnunun atası rolunu oynamaq tapşırılmışdı. Böyük sənətkar işinin öhdəsindən bacarıqla gəlir.

Mirzə Muxtarın tamaşalarda nümayiş etdirdiyi ifa tərzi elə ilk baxışdan teatrsevərləri sehirləyirdi. Buna görə də aktyorun şöhrəti gündən-günə artırdı. 1913-cü ildə Bakının teatr ictimaiyyəti Mirzə Muxtarın teatrımızın inkişafındakı xidmətlərini nəzərə alaraq səhnə fəaliyyətinin 40 illiyini keçirmişdi. Böyük təntənə ilə keçən tədbirdə özünün iştirakı ilə Üzeyir bəy Hacıbəylinin "Rüstəm və Söhrab", "Leyli və "Məcnun" operalarından səhnələr nümayiş etdirilmişdi.

Mirzə Muxtar yaradıcılığı boyu obrazlar qalereyası yaratmışdı. Aktyor hətta yaşlı vaxtlarında aktrisa çatışmazlığı ucbatından qadın rolları da oynamaq məcburiyyətində qalmışdı. O, Üzeyir bəy Hacıbəylinin "Arşın mal alan"da Cahan xala, "Məşədi İbad"da Gülnaz, "Ər və arvad"da Yetər, "Müsibəti-Fəxrəddin" faciəsində Hürü, Nəriman Nərimanovun "Şamdan bəy"ində Pərizad, Sultanməcid Qənizadənin "Axşam səbri xeyir olar" vedovilində Gülcamal kimi qadın rollarını canlandırmışdı.

1918-ci ilin martında ermənilər Bakıda törətdikləri soyqırımı zamanı Mirzə Muxtarın da evi dağıdılmış, olan-qalanı əlindən çıxmışdı. Bunu eşidən Hacıbəyli qardaşları ona ayda 500 manat təqaüd təyin etmişlər.

Teatrımızın inkişafında misilsiz xidmətlər göstərmiş aktyor, musiqişünas Mirzə Muxtar 1929-cu ilin yanvarında 88 yaşında vəfat etmişdir.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

Abidələrimiz

## Bakının qədimdən qədim "keşikçi"si - Qız qalası

**Xəzərin sahilində az qala Bakının özü qədər qədim tarixə malik Qız qalasını görənlər, xüsusən də turistlər, səyyahlar, arxitektor və coğrafiyaşünaslar heyranlıqlarını gizlədə bilmirlər və bu da təsadüfi deyil.**

Qız qalası unikal-konstruktiv quruluşuna görə, nəinki Azərbaycanda, eləcə də Yaxın Şərqdə analoqu olmayan bir abidədir. Daşdan hörülmüş nəhəng silindr formasında olan bu abidənin hündürlüyü şimal tərəfdən 28, cənub tərəfdən 31 metrdir. Təməl hissədə qala divarlarının qalınlığı 5 metrə, 8-ci mərtəbədən yuxarıda isə 4 metrə çatır. Qala 8 günbəzdən ibarətdir ki, onlar da qalanı 8 mərtəbəyə bölür. Hər mərtəbə yonma daşlarla tikilmiş, günbəz formalı tavanla örtülmüşdür. Daşla hörülmüş bu tavanların ortasında dairəvi deşiklər vardır. Deşiklər şaquli xətt istiqamətindədir, 8-ci mərtəbənin tavanının ortasında olan dairəvi deşikdən baxdıqda birinci mərtəbənin döşəməsini görmək mümkündür.

Qalaya yeganə giriş yolu onun qərb tərəfindən - 2 metr hündürlükdə və 1 metrdən artıq tağlı qapıdandır. Qız qalasının yuxarıdan görünüşü günəşi və odu bildirən, Azərbaycanda geniş yayılmış "buta"ya oxşayır.

Buraya ilk dəfə yolu düşən yerli sakinlərdə də, turistlərdə də çox zaman qalanın adı maraq doğurur. Abidənin adının etimologiyası ilə bağlı mübahisələr indiyə qədər səngimək bilmir. Onun inşa tarixi və mahiyyəti yetərincə müəmmalıdır, adının mənşəyi isə çoxsaylı əfsanələrlə bağlıdır. Bəzi müəlliflərin fikrincə, qalanın adı Bakı xanının qızının adı ilə bağlı olduğu üçün Qız qalası adlandırılmışdır. Rəvayətə görə, qardaşı (bəzi mənbələrdə hökmdar atası) tərəfindən qalada saxlanılan qız bu əzaba dözməyərək özünü qalanın başından ataraq Xəzərin sularına qərq olmuşdur. Söylənilən digər əfsanələrdən biri də qalanın adının şahın aşiq olduğu və evlənmək üçün qala tikdirməyi ona şərt qoyan bir qıza həsr edilməsidir. Bir çox tədqiqatçı-alimin fikrincə, bu, gözətçi qalası və ya müdafiə istehkamlarının bir hissəsidir. Digər tədqiqatçılar onun qədim məbəd, başqaları isə rəsədxana olduğunu iddia edirlər.

Bu fərziyyələrin hər biri çoxsaylı dəlillərə söykənir. Lakin təyinatından asılı olmayaraq, tikilinin misilsiz memarlıq abidəsi olması faktı danılmazdır. Məhz bu səbəbdən Qız qalası dövlətimiz tərəfindən mühafizə olunur. Abidə həmçinin 2000-ci ilin dekabrında UNESCO-nun Dünya İrs Siyahısına salınmışdır.

Tədqiqatçıların fikrincə, memarlıq tarixində Qız qalası ilə müqayisə edilə biləcək analoji abidə yoxdur. Onun yaşının Şumer dövründən başladığını iddia edən mütəxəssislər də var, XII yüzillikdə tikildiyini sübut etməyə çalışanlar da. Burada zaman fərqi tikilmə tarixi bilinməyən başqa abidələrdə olduğu kimi, bir neçə il deyil, hətta bir neçə əsr də deyil, 3000 ildən artıqdır.

Qız qalasının cənub-qərb divarında 14 metr hündürlükdə ərəb dilində qədim kufi xətti ilə yazılmış daş kitabə yerləşdirilmişdir. Yazıda "Qülleyi Məsud ibn Davud" sözləri həkk olunub. Yazı kalliqrafik xüsusiyyətlərinə görə XII əsrə aid edilir. Bəzi alimlər burada qalanı ucaldan memarın adının həkk olunduğunu ehtimal edirlər.

Əsrlər bir-birini əvəzlədikcə Qız qalası təbii proseslərin təsiri nəticəsində zədələnərək ciddi təhlükə ilə üz-üzə qalsa da, ümumilikdə öz ilkin görkəmini və struktur quruluşunu qoruyub saxlaya bilib. Ötən əsrin 60-cı illərində aparılan bərpa işlərindən sonra abidə muzey kimi fəaliyyət göstərir. Dünya əhəmiyyətli bu abidənin qorunub saxlanması və mövcud görkəmdə gələcək nəsillərə çatdırılması üçün Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, 2009-2013-cü illərdə burada konservasiya işləri aparılıb. Maddi-mədəni irsimizə həmişə diqqət və qayğı göstərən Heydər Əliyev Fondunun dəstəyi ilə görülən işlər nəticəsində Qız qalasının təkrarolunmaz görkəmi tam bərpa edilib, bu bənzərsiz abidə yenidən istifadəyə verilib. Yenidənqurmadan sonra qalanın daxilində beynəlxalq standartlara uyğun müasir muzey ekspozisiyası yaradılıb. Konservasiya prosesi dövründə abidənin tarixinin və təyinatının öyrənilməsində mühüm rol oynaya biləcək elmi tədqiqatlar aparılıb, qaladakı pilləkən yenisi ilə əvəz edilib.

Qız qalasının mərtəbələrində xüsusi monitorlarda bu abidənin tarixi, daxili strukturu, tikintisində məqsəd, təyinatı və sair məsələlərlə bağlı fərziyyələr, əfsanələr və digər maraqlı faktlar əks olunub. Ekspozisiyadakı stenddə qədim sənətkarlıq məmulatları barədə məlumat verilir. Hər bir mərtəbədə ekspozisiyaya uyğun işıqlandırma sistemi quraşdırılıb. Burada Qız qalasının müdafiə, istehkam, dini, rəsədxana və digər təyinatı barədə fərziyyələrlə, elmi araşdırmalarla tanış olmaq mümkündür. Monitorlarda Qız qalasının təyinatı barədə film nümayiş olunur. Ekspozisiyada Qız qalasının özünəməxsus və bənzərsiz memarlığı geniş əksini tapıb. Burada orijinal maket qurulub. Maketin üzərindəki monitorda qalanın daxili strukturu barədə müfəssəl məlumat yerləşdirilib.

Köhnə Bakını əks etdirən monitorda şəhərin iqtisadi, gündəlik həyatı və şəhərsalma mövzularına geniş yer ayrılıb. Burada Qız qalası haqqında əfsanələrlə də tanış olmaq mümkündür. Ekspozisiyanın növbəti bölməsində Qız qalasının müdafiə obyekti rolunu oynaması ilə bağlı fərziyyə və elmi araşdırmalardan bəhs edilir. Stenddə qədim silah nümunələri nümayiş olunur. Monitorlarda İçərişəhərin hərbi tarixi və burada baş verən döyüşlər əksini tapıb. Ekspozisiyada Qız qalasının qədim rəsədxana rolunu oynaması fərziyyəsinə də geniş yer ayrılıb.



Ümumiyyətlə, bu maddi-mədəniyyət abidəsində həyata keçirilən konservasiya işləri və yeni yaradılan muzey ekspozisiyası bura gələn hər bir kəsdə zəngin təəssürat və xoş ovqat yaradır. Onu da xüsusi qeyd edək ki, milli-mənəvi dəyərlərimizin, maddi-mədəniyyət abidələrimizin qorunub saxlanmasına və təbliğinə həssaslıqla yanaşan Heydər Əliyev Fondu konservasiya tədbirləri zamanı dəstəyini əsirgəməmişdir.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Bir zabitin Vətən andı

**Bu sözün içində insanın doğulduğu torpağın ətri, ata ocağının istisi, ana laylasının səsi, uşaqlıq xatirələri və doğma yurdun müqəddəsliyi yaşayır. Vətən yalnız yaşadığımız torpaq deyil, insanın varlığı, kimliyi, şərəfi və namusudur. Onu qorumaq isə hər kəsə nəsib olmayan müqəddəs bir borcdur. Bu borcun ən uca zirvəsi Vətən uğrunda canından keçmək, ömrünü xalqının azadlığına qurban verməkdir. Azərbaycan tarixində belə oğulların adı həmişə ehtiramla çəkilib. Onlar ölümün gözünə dik baxaraq Vətən üçün həyatlarını fəda ediblər.**



Belə qəhrəman oğullarımızdan biri də Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin baş leytenantı, şəhid Elmar Şahin oğlu Mirzəyevdir. Onun qısa, lakin mənalı ömür yolu Azərbaycan zabitinin Vətən qarşısındakı sədaqətinin, hərbi andına bağlılığının və qəhrəmanlığının parlaq nümunəsidir.

Elmar Mirzəyev 1995-ci il mayın 1-də Biləsuvarın Ağalıkənd kəndində dünyaya göz açıb. Uşaqlıq illərindən Vətənə böyük sevgi bəsləyib. O, həyat yolunu tərəddüdsüz seçib. Torpağa bağlılığı, hərb sənətinə marağı onu 2012-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə aparıb. Elmar burada 4 il hərb elminin sirlərinə yiyələnib. O, Vətəni qorumağı peşə kimi deyil, müqəddəs vəzifə kimi qəbul edib. 2016-cı ildə ali hərbi təhsilini başa vuraraq leytenant rütbəsi alıb və həmin ildən zabit kimi xidmətə başlayıb.

Zabitlik onun üçün çiyinlərində daşıdığı paqonlardan, hərbi rütbədən böyük məna ifadə edirdi. Bu, Vətən qarşısında məsuliyyət, əsgərin taleyinə cavabdehlik, verilən tapşırığı sonadək yerinə yetirmək və lazım gələndə Vətən uğrunda canından keçmək demək idi.

Elmar valideynlərinin xatirəsində ağıllı, savadlı, tədbirli və qayğıkeş bir övlad kimi yaşayır. Harada necə davranmağı bilən, insanlarla münasibətdə mehriban və diqqətli olan Elmar ailəsində də çox sevilirdi. Elə yaşadığı kənddə ona olan hörmət onun insani keyfiyyətlərindən irəli gəlirdi. O, ata-anasına, doğmalarına münasibətdə diqqətli, mehriban idi.

Elmarın ürəyində Vətən sevgisinin isə özünəməxsus yeri vardı. Uşaqlıqdan Vətənə olan məhəbbəti illər keçdikcə daha da möhkəmlənir. O, Vətəni uğrunda canından keçməyə hazır olduğunu söyləyirdi. Bu sözlər sonradan onun həyatının ən ağır sınağında adi bir ifadə olmadığını təsdiqlədi.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda Azərbaycan Ordusunun qarşısında tarixi missiya dayanırdı - uzun illər işğal altında qalan torpaqları azad və ölkənin ərazi bütövlüyünü bərpa etmək. Baş leytenant Elmar Mirzəyev də bu müqəddəs mübarizənin ön sıralarında idi. Murovdağ istiqamətində gedən döyüşlər, ardınca Füzuli və Xocavənd uğrunda ağır savaşlar əsgər və zabitlərimizdən böyük iradə, cəsarət və fədakarlıq tələb edirdi. Qarşıda və arxada Vətən vardı. Belə anlarda zabitin məsuliyyəti daha çox olur. O, həm döyüşən əsgərlərin, həm də Vətənin taleyini düşünür. Döyüş meydanında onun bir amalı vardı - verilən tapşırığı yerinə yetirmək və Azərbaycan bayrağının işğaldan azad edilən torpaqlarda dalğalandırmaq. Güllə səslərinin, partlayışların və döyüşün ən ağır anlarının içində belə zabitin iradəsi sınmırdı. Təəssüf ki, Füzuli istiqamətində gedən döyüşlərdə Elmar şəhidlik zirvəsinə ucaldı.

Elmar Mirzəyev cəmi 25 il yaşadı. Lakin bu 25 il onun həyatının məzmununu dəyərləndirmək üçün kifayət qədər böyük bir tarixdir. O özündən sonra bir ailənin xatirəsini deyil, bütöv bir xalqın qürur duyacağı qəhrəmanlıq salnaməsini yaratdı. 2020-ci il oktyabrın 16-da Elmar Mirzəyev doğma Biləsuvarda torpağa tapşırıldı. O gün Ağalıkəndin bir oğlu Vətən torpağına əmanət edildi. Amma onun adı xalqın yaddaşına yazıldı.

Şəhidin valideynləri Şahin Mirzəyev və Ceyran Əsgərova üçün Elmar heç vaxt yalnız bir xatirə olmayacaq. O, ailənin əziz oğlu, Daşqının və Amalyanın qardaşı kimi həmişə yaşayacaq. Ailə üçün oğul itkisi əvəzolunmaz dərddir. Lakin Elmarın adı ilə qürur duymaq, onun Vətən üçün yaşaması və şəhid olması böyük bir təsəllidir.

Elmar Mirzəyevin döyüşlərdə göstərdiyi misilsiz şücaət və Vətən qarşısındakı xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilib. Şəhid baş leytenant ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.

Lakin onun ən böyük mükafatı Azərbaycan torpağının azadlığıdır. Şəhidlik hər kəsin çata biləcəyi zirvə deyil, bu zirvəyə yalnız Vətən sevgisini həyatından üstün tutanlar yüksəlir. Elmar da həmin zirvəyə öz şərəfli zabit ömrü ilə ucaldı. İllər keçəcək, Ağalıkəndin yeni nəsilləri doğulacaq və onlar azad Qarabağın adını çəkəndə bu azadlığın hansı fədakarlıqlar hesabına qazanıldığını xatırlayacaqlar. O zaman Elmar Mirzəyev kimi qəhrəmanların adı bir daha ehtiramla çəkiləcək.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Antibiotiklər təsirini niyə itirir?

**Bir vaxtlar sadə infeksiyaları qısa müddətdə aradan qaldıran antibiotiklər bu gün bəzi xəstəliklərdə gözlənilən nəticəni vermir. Pnevmoniya, qan infeksiyası və hətta adi yara infeksiyasının müalicəsi uzanır. Odur ki, həkimlər dərmanı dəyişməli və ya daha güclü antibiotiklərə müraciət etməli olurlar. Bunun əsas səbəbi insan orqanizminin antibiotikə öyrəşməsi deyil, dərmana uyğunlaşan və ona qarşı müdafiə mexanizmi yaradan bakteriyalardır. Bu proses antibiotiklərə qarşı müqavimət və ya rezistentlik adlanır.**



Antibiotik qəbul edildikdə ona həssas bakteriyaların böyük hissəsi məhv olur. Lakin təsadüfi genetik dəyişikliklərə görə daha davamlı olan bakteriyalar sağ qala bilər. Onlar çoxalır, müqavimət xüsusiyyətlərini gələcək nəsillərə, bəzən isə başqa bakteriyalara ötürürlər. Beləliklə, əvvəllər təsirli olan dərman həmin bakteriya qarşısında gücünü itirir. Bakteriyalar antibiotiki parçalayan fermentlər istehsal edə, dərmanın hüceyrəyə daxil olmasına mane ola və ya onu xüsusi nasoslar vasitəsilə hüceyrədən çıxara bilirlər.

Problemin miqyasını 2025-ci ildə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) dərc etdiyi hesabatdan da aydın görmək olur. Hesabat qan, sidik yolları, mədə-bağırsaq sistemi infeksiyaları və qonoreya ilə bağlı 23 milyondan çox laborator təsdiqli halın məlumatları əsasında hazırlanıb. Təhlilə görə, 2023-cü ildə dünyada qeydə alınmış hər altı bakterial infeksiyadan biri istifadə edilən antibiotiklərdən ən azı birinə qarşı davamlı olub. Vəziyyət bütün regionlarda eyni deyil. ÜST-nin hesablamasına əsasən, Cənub-Şərqi Asiya və Şərqi Aralıq dənizi regionlarında infeksiyaların hər üçündən biri, Afrika regionunda isə hər beşindən biri antibiotiklərə davamlı olub. Bu fərqin səbəbi yalnız dərmanların çox istifadəsi deyil. Laboratoriya imkanlarının məhdudluğu, infeksiyaların gec müəyyən edilməsi, keyfiyyətli dərmanlara çıxışın zəif olması, xəstəxanalarda infeksiyaya nəzarət qaydalarının tam yerinə yetirilməməsi və antibiotiklərin reseptsiz alınması da müqavimətin yayılmasını sürətləndirir.

Ən ciddi təhlükə yaradan mikroorqanizmlər sırasında "Escherichia coli" və "Klebsiella pneumoniae" xüsusi yer tutur. Onlar sidik yolları və qan infeksiyalarının, sepsisin və orqan çatışmazlığının əsas səbəblərindəndir. Belə ki, dünyada "Escherichia coli" nümunələrinin 40 faizdən çoxu, "Klebsiella pneumoniae" nümunələrinin isə 55 faizdən çoxu bu infeksiyalarda geniş istifadə edilən üçüncü nəsil sefalosporinlərə qarşı davamlıdır. Afrika regionunda bəzi göstəricilər 70 faizi ötür. Bir zamanlar son dərəcə etibarlı hesab edilən karbapenemlər də artıq müəyyən bakteriyalara qarşı təsirini itirməyə başlayır.

Mütəxəssislər bildirirlər ki, müqavimətin ən mühüm səbəblərindən biri antibiotiklərin ehtiyac olmadan qəbuludur. Soyuqdəymə, qrip və virus mənşəli boğaz infeksiyalarında antibiotik fayda vermir. Buna baxmayaraq, insanlar bəzən tez sağalmaq ümidi ilə özbaşına dərman qəbul edirlər. Antibiotikin düzgün diaqnoz qoyulmadan, uyğun olmayan dozada və lazımsız geniş təsir spektrində seçilməsi bakteriyalar üzərində əlavə seçici təzyiq yaradır. Nəticədə həssas bakteriyalar məhv olur, davamlı olanlar isə üstünlük qazanır.

Digər yanlış davranış müalicə rejiminin özbaşına dəyişdirilməsidir. Xəstə özünü yaxşı hiss etdiyi üçün dərmanı həkimin təyin etdiyi vaxtdan əvvəl dayandırır, dozanı buraxır və ya evdə qalmış antibiotiki sonrakı xəstəlik zamanı qəbul edir. Əsində isə antibiotik həkimin müəyyən etdiyi uyğun dozada və elmi sübutlarla əsaslandırılmış ən qısa effektiv müddətdə istifadə edilməlidir. Müalicəni nə özbaşına yarımçıq saxlamaq, nə də lazımsız uzatmaq olar.

ÜST-nin baş direktoru Tedros Adhanom Qebreyesus 2025-ci il hesabatını təqdim edərkən antimikrob müqavimətin müasir tibbin inkişafını qabaqladığını və bütün dünyada ailələrin sağlamlığını təhdid etdiyini bildirib. Onun sözlərinə görə, çıxış yolu antibiotiklərin məsuliyyətli istifadəsi ilə yanaşı, keyfiyyətli diaqnostika, peyvəndlər, yeni nəsil dərmanlar və infeksiyaların qarşısını alan güclü səhiyyə sistemlərinin yaradılmasıdır.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Siyasi qütblər arasında sıxılan Ermənistan

## İrəvan üçün ən optimal yol Bakının təklif etdiyi sülh və əməkdaşlıq modelini icra etməkdir

**Azərbaycan və Ermənistan arasında illərlə davam edən münaqişəyə son qoyulduqdan və regionda yeni reallıqlar formalaşdıqdan sonra İrəvanın xarici siyasətdə nümayiş etdirdiyi qeyri-müəyyənlik və tərəddüd bu ölkənin konkret mövqeyini və gələcəyini sual altında qoyur.**



Paşinyan hökuməti fərqli güc mərkəzləri arasında balansı mümkün qədər saxlamağa, bir-birinə zidd siyasi qütblərin maraqlarını toqquşdurmadan manevr etməyə çalışsa da, bu yanaşma dövlətin strateji yönünü seçməsində ciddi problemə səbəb olur.

İrəvanın bir tərəfdən ənənəvi təhlükəsizlik və iqtisadi platformalarda qalmaq istəyini bəyan etməsi, digər tərəfdən isə alternativ təşkilatlara inteqrasiya cəhdləri xarici siyasət kursunun aydın olmadığını ortaya qoyur. Ermənistan rəhbərliyinin ard-arda səsləndirdiyi ziddiyyətli bəyanatlar da siyasi çaşqınlığın göstəricisidir. Baş nazir Nikol Paşinyanın fərqli tədbir və görüşlərdə verdiyi açıqlamalar hökumətin hələ də dəqiq istiqamət müəyyənləşdirə bilmədiyini nümayiş etdirir.

Avqustun 24-də N.Paşinyan Ermənistanın tezliklə Avropa İttifaqına qoşulmaq üçün rəsmi ərizə hazırlamağa başlayacağını elan edib. Lakin Baş nazir Şanxay Əməkdaşlıq Təşkilatının tədbirində çıxışı zamanı gələcək iqtisadi tərəfdaşların seçilməsi məsələsinin "hələ tam yetişmədiyini" vurğulayıb. Paşinyan iqtisadi inteqrasiya istəyinin heç bir tərəfə qarşı yönəlmədiyini söyləyib. Baş nazir sentyabrın 1-də Rusiya Prezidenti ilə ikitərəfli təmasdan dərhal sonra tamamilə fərqli tonda danışıb: "Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə çox yaxşı görüşüm oldu və biz mənim Moskvaya qarşıdan gələn səfərim zamanı səmimi və konstruktiv söhbəti davam etdirmək barədə razılığa gəldik".

Görünən odur ki, diplomatik tərəddüdlər fonunda rəsmi İrəvan dəyişən şəraiti bəhanə edərək mövcud ziddiyyətlərin üzərini örtməyə çalışır. Paşinyan "yenidən formalaşan münasibətlər daha yaxşı, konstruktiv, faydalı və səmimi olacaq", - deyərək fərqli siyasi qütblər arasında yaranan etimadsızlığı gizlətməyə cəhd edir. Ancaq fərqli platformalarda, məsələn ABŞ nümayəndə heyəti ilə görüşdə regional marşrutlar üzrə müzakirələr aparıldığı halda, Bişkekdə referendum ideyasından imtina edildiyinin bildirilməsi rəsmi İrəvanın güc mərkəzləri arasında sıxılıb qaldığını, yekun qərarı nə vaxt, necə verəcəyini müəyyənləşdirə bilmədiyini sübut edir.

Nikol Paşinyan Bişkekdə ABŞ senatoru Stiv Deynsin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Tərəflər Ermənistan-ABŞ əlaqələrinin müxtəlif istiqamətlərdə davamlı inkişafının vacibliyini vurğulayıblar, regional prosesləri müzakirə ediblər. Xüsusən, TRIPP layihəsinin bölgədə kommunikasiyaların açılmasında və inkişaf etdirilməsində roluna diqqət çəkilib.

Mövcud mənzərə göstərir ki, İrəvanın hələlik reallaşdırmağa risk etmədiyi iddiaları ənənəvi müttəfiqlərlə siyasi uçurumu dərinləşdirir. Daha ciddi təhdid isə odur ki, təhlükəsizlik çətirindəki iştirakın dondurulması, diplomatik gərginliyin artması və alternativ tərəfdaş axtarışları bu ölkəni siyasi qütblərin açıq qarşıdurma meydanına çevirə bilər. Yəni xarici təzyiqlər fonunda var-gəl edən İrəvan ikili oyunlar ilə daha böyük iqtisadi-siyasi basqılara məruz qalacağının fərqində deyil.

Ermənistandakı mövcud vəziyyət həm də xaricdəki lobbi şəbəkələrinin fərqli qanadları arasında gedən mübarizə ilə bağlıdır. Bəzi hallarda hakimiyyətini qorumağa çalışan Ermənistan rəhbərliyi lobbinin xidmət etdiyi kənar güc mərkəzlərinin də maraqları ilə hesablaşmaq məcburiyyətində qalır.

Əlbəttə, bu geosiyasi burulğanlardan və xarici təzyiqlərdən xilas olmağın optimal yolu da mövcuddur. İrəvan fərqli güc mərkəzlərinin siyasi alətinə çevrilməkdən xilas olmaq üçün diqqətini uzaq qütblərin vədlərinə deyil, birbaşa regional reallıqlara yönəltməlidir. Bu xüsusda ən rasional seçim Bakının irəli sürdüyü sülh gündəliyinə tam uyğun hərəkət etmək, regionda bərqərar olunmuş yeni reallıqları qeyd-şərtsiz qəbul etmək və qonşularla dinc yanaşı yaşamaq prinsipini əsas götürməkdir. Azərbaycanın regionda yaratdığı yeni nəqliyyat, logistika və kommunikasiya imkanlarından yararlanmaq, tranzit yükdaşımalarına qoşulmaq və regional əməkdaşlıq formatlarında yer almaq İrəvan üçün real müstəqilliyin yeganə çıxış yoludur.

Siyasi qütblər arasında qalmaq Ermənistana nə real təhlükəsizlik zəmanəti verir, nə də davamlı iqtisadi inkişaf vəd edir. Bu ölkənin varlığını sürdürməsi və gələcək perspektivləri Bakının təklif etdiyi regional sülh və əməkdaşlıq modelini mənimsəməkdən keçir. Əgər İrəvan rəhbərliyi siyasi avantüralardan, tarixi illüziyalardan və ərazi iddialarından tamamilə imtina edərək, regional inteqrasiya yolunu seçərsə, həm fərqli güc mərkəzlərinin təzyiqindən azad olar, həm də Cənubi Qafqazın dinc, təhlükəsiz və dayanıqlı gələcəyinin bərabərhüquqlu tərəfdaşına çevrilər.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# Norveç məhkəməsi Rusiya gəmisini Şpitsbergendə həbs edib

**Norveç məhkəməsi Ukraynanın "Naftoqaz" şirkətinin müraciəti əsasında Rusiyanın "Professor Molçanov" elmi-tədqiqat gəmisini Şpitsbergendə həbs edib.**



AZƏRTAC xəbər verir ki, bu barədə Şpitsbergen qubernatorunun rəsmi saytında məlumat yayılıb.

Məlumata görə, Nord-Tröms dairə məhkəməsinin qərarı ilə Barensburqda (Şpitsbergen) lövbər salmış Rusiya gəmisinə həbs qoyulub.

Qərara əsasən, Şpitsbergen qubernatorunun müvafiq qərarı verilənədək gəminin hazırkı yerini tərk etməsinə icazə verilmir. Bildirilib ki, gəminin həbsi "Naftoqaz"ın Krımdakı aktivləri ilə bağlı arbitraj qərarının icrasını təmin etmək məqsədilə görülən tədbirdir.

Qeyd edək ki, "Professor Molçanov" 2025-ci ilin iyunundan Şpitsbergenə müntəzəm yük-sərnişin reysləri həyata keçirir. Gəmi bu il mart ayında Murmanskdan arxipelaqa ilk səfərinə çıxıb.

# "Boeing" təhlükəsizlik pozuntularına görə 3,1 milyon dollar cərimə ödəyib

**"Boeing" şirkəti genişmiqyaslı təhlükəsizlik pozuntularına görə ABŞ Federal Aviasiya Administrasiyasına (FAA) 3,1 milyon dollar cərimə ödəyib.**



AZƏRTAC xəbər verir ki, bu barədə "Reuters" Agentliyinə FAA-dan bildirilib. Cərimə 2025-ci ilin sentyabrında təklif edilib və şirkət tərəfindən 2026-cı ilin yanvarında ödənilib. Bu barədə məlumat ictimaiyyətə əvvəllər açıqlanmayıb.

FAA-nın məlumatına görə, pozuntular arasında 2024-cü ilin yanvarında "Alaska Airlines" aviaşirkətinin "Boeing 737 MAX 9" təyyarəsində baş verən və gövdənin bir hissəsinin uçuş zamanı qopması ilə nəticələnən insidentlə bağlı hallar da olub.

Agentlik həmçinin "Boeing" şirkətinin təhlükəsizlik üzrə məsul əməkdaşların müstəqilliyinə müdaxilə etdiyini bildirib. FAA 2023-cü ilin sentyabrından 2024-cü ilin fevralınadək şirkətin istehsal müəssisələrində yüzlərlə keyfiyyət pozuntusu müəyyən edib.

# Hava şəraiti açıqlanıb

**Azərbaycanda sentyabrın 3-nə gözlənilən hava şəraiti açıqlanıb.**

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 19-21, gündüz 26-30 dərəcə isti olacaq. Atmosfer təzyiqi 762 millimetr civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 45-50 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 18-22, gündüz 27-32, dağlarda gecə 10-15, gündüz 18-22 dərəcə isti olacaq.

# ALLAH RƏHMƏT ELƏSİN!

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi iş yoldaşları

**ANAR MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin İntizam komissiyasının sədri Eldar İbrahimov komissiya üzvləri ilə birlikdə Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyevə əzizi

**SAHİB MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Tibb Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Tədris Terapevtik Klinikasının baş həkimi Fəridə Hacıyevaya anası

**MÖHTƏRƏM XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | | |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru





www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3316
Sifariş 1121

Qiyməti 60 qəpik